Xalqın qəzeti!
# Xalq qəzeti
№ 279 (30395) 21 dekabr 2023-cü il, cümə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

## Azərbaycan futbolu da Xankəndiyə qayıdır!



Səhifə ⇨ 11

## Əziz Qarabağ, sən azadsan!




## Nisbi sakitlikdən möhkəm sülhə nə qədər qalıb?

### Son üç ay Qarabağ münaqişəsi tarixində, eləcə də iki ölkə arasında ən dinc dövrlərdən biri hesab olunur



**“Ermənistan və Azərbaycan müsbət gündəmlə dünyanı təəccübləndirməyi, dünyanı heyrətləndirməyi bacarıb”. Bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Böyük Britaniyaya səfəri çərçivəsində “BBC World”ə verdiyi müsahibəsində deyib.**

Prezidentin köməkçisi qeyd edib ki, artıq iki ölkə arasında hərbi qarşıdurma mərhələsi başa çatıb: “Azərbaycan özünün suverenliyini və ərazi bütövlüyünü bərpa edib, həmçinin ərazilərinin 30 ildir davam edən hərbi işğalına son qoyub. Rəsmi Bakı hələ 2020-ci ildə 44 günlük müharibə başa çatdıqdan sonra Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olduğunu bəyan edib. Bu məqsədlə qarşı tərəfə sülh müqaviləsinin fundamental prinsiplərini və mətnini təklif edib. Hazırda tərəflər arasında da diplomatik danışıqlar aparılır. Bunlar artıq birbaşa danışıqlardır”.

*(ardı 4-cü səhifədə)*

## Paşinyanın Qarabağ ağrıları, yaxud özü yıxılanın ağlaması

### Ermənistanın baş nazirinin “günah keçisi” axtarışları davam edir



**Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsinin İctimai Televiziyasına müsahibəsində Azərbaycan və Rusiya ilə münasibətlər baxımından bir sıra məqamlara toxunub. Əvvəlcədən bildirək ki, Nikol yenə aləmi bir-birinə qatıb. Yazımızda erməni hökumət rəhbərinin hansı məsələlərdən bəhs etdiyinə diqqət yetirəcək, başlıca olaraq, onun Ermənistan üçün Qarabağ kitabının bağlanması xüsusunda söylədiklərinə nəzər salacağıq.**

Ümumən onu vurğulayaq ki, N.Paşinyanın müsahibəsinin Azərbaycanla münasibətlər istiqaməti üzrə iki xətt nəzərə çarpır. Bunlardan birincisi ölkəmizə qarşı çıxmaq, onu işğalçı kimi təqdim etməkdir. İkinci istiqamət bilavasitə Qarabağ xəttidir. Rusiyaya münasibətdə də iki meyil özünü göstərir. Birincisi, Rusiyanı Qarabağın itirilməsinə görə günahlandırmaq, ikincisi Moskvanı Azərbaycanın Ermənistan torpaqlarının, guya, işğalına göz yummaqda, müttəfiq kimi üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməkdə ittiham etməkdir. Qeyd edək ki, axırıncı xüsusda ittiham predmeti Rusiyanın hakim rol oynadığı və Ermənistanın da üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatıdır. Təfərrüatlara varmadan deyək ki, Paşinyan qurumu Bakıya münasibətdə fəaliyyətsizlikdə və susqunluqda qınayır.

***

N.Paşinyan bildirir ki, artıq keçmiş olan Dağlıq Qarabağ problem ilə bağlı danışıqlar prosesində heç vaxt bu məsələnin həllini təklif edən variant olmayıb. Nikol o anlamda haqlıdır ki, Ermənistan hakimiyyəti və Qarabağdakı sabiq separatçı rejim illərlə bütün həll variantlarının, səmərəli təkliflərin qarşısını kəsirdi və razılığa gəlmək mümkünsüz olurdu. Belə nəticəyə gəlmək mümkündür ki, Paşinyan hakimiyyətə gəldi, problemi aradan qaldırmaq istədi və dedi: “Qarabağ Ermənistandır nöqtə”.

Sonra baş verənlər də hər kəsin yaxşı xatirindədir – 44 günlük müharibə və Ermənistanın rüsvayçı məğlubiyyəti… İndi isə Qarabağ ermənisizləşib. Paşinyanın üzərində dayandığı əsas məqam budur. Doğrudur, o, məsələni bölgənin ermənisizləşməsi yox, ermənisizləşdirilməsi şəklində qoyur və mövcud xüsusda Azərbaycanı qınamaq yolu tutur. Nikolun sözlərindən belə çıxır ki, Bakı Qarabağ ermənilərinin bölgəni tərk etmələrini şərt kimi ortaya qoyurmuş, Ermənistan hakimiyyəti isə bunun qarşısını almaq istəyirmiş. Bəli, erməni hökumət rəhbəri son vaxtlar durmadan nümayiş etdirdiyi həyasızlığını pik həddə çatdırır.

*(ardı 4-cü səhifədə)*

## Nifrət dağarcığı

### Erməni antisemitizmi “miatsum”un dəfnindən sonra yaranmış qəzəbdir

**Əgər tarixin qədim dövrlərinə baş vurmasaq, yəhudi və erməni tayfalarının qarşıdurması versiyasını həqiqət kimi nəzərdən keçirməsək, hayların arasında antisemitizmin yayılmasının bir neçə səbəbini göstərmək olar və bu səbəblər antik dövrün deyil, ən yeni tarixin yaddaşıdır.**



Erməni antisemitizminin ən sadə səbəbi ondan ibarətdir ki, İsrail son otuz ildə Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətini nəinki dəstəkləmədi, üstəlik, Bakı və Tel-Əviv öz aralarında strateji münasibətlər qurdu. Ermənilər üçün vəziyyəti “qəlizləşirdirən” həm də o idi ki, Azərbaycan 44 günlük müharibədə Ermənistan ordusunun darmadağın edilməsində xaricdən, o cümlədən İsraildən aldığı silahlardan istifadə etdi.

### Təmayül

Bu həssas mövzu ilə bağlı İsrailin “Ynet” nəşrində analitik məqaləsi dərc olunan tarix elmləri doktoru, Ermənistan–Azərbaycan münasibətlərinin tədqiqatçısı Elina Bardaç-Yalova yazır ki, Ermənistanda antisemitizm mövcuddur və bu, nə Azərbaycanın, nə də İsrailin ixtirasıdır. Tanınmış alim son dövrlər haylar arasında antisemitizm meyillərinin artması ilə bağlı həyəcan təbili çalır və İsrail hakimiyyətini gələcəkdə başağrısına çevrilə biləcək problemi diqqətlə izləməyə çağırır: “Son illər biz Ermənistanda çoxsaylı antisemit insidentlərin şahidi olmuşuq. Belə hadisələrin bir çoxuna rəsmi İrəvan tamamilə laqeyd yanaşıb. Bundan başqa, son bir ildə, xüsusilə də Qəzza bölgəsində “Dəmir qalxan” müharibəsi başlayandan internetdə antiisrail və antiyəhudi çıxış və bəyanatların səviyyəsi əhəmiyyətli dərəcədə artıb”.

*(ardı 4-cü səhifədə)*

## Azərbaycan – Türkiyə münasibətləri çağdaş dünyaya örnəkdir



**“Azərbaycanla Türkiyə arasında münasibətlər digər dövlətlərə örnəkdir, cox güclü siyasi münasibətlərimiz var. Biz istəyirik ki, “Bir millət, iki dövlət şüarı” ilə inkişaf edən bu münasibətlər iqtisadi sahədə də özünü göstərsin və biz iş adamları ilə birlikdə daha da irəli gedəcəyik”. Bunu ölkəmizdə səfərdə olan Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz Bakıda Azərbaycanda fəaliyyət göstərən türk iş adamlarının iştirakı ilə keçirilən “İş dünyasının görüşü” adlı tədbirdə deyib.**

Azərbaycanla Türkiyənin inkişaf etdirdiyi bu münasibətlərin bütün Qafqaz üçün rifah olduğunu söyləyən qardaş ölkənin vitse-prezidenti bildirib ki, dostluq münasibətlərinə əsaslanan əlaqələrin digər qardaş ölkələri də əhatəsinə alaraq çoxtərəfli forma alması, bölgədə də rifah əldə edilməsi üçün birgə səy göstərilir. Hazırda dünya iqtisadiyyatının yaxşı vəziyyətdə olmadığını vurğulayan Cevdet Yılmaz deyib ki, beynəlxalq iqtisadiyyat, hələ ki, özünə gəlməyib. “Dünyada ticarət həcmi azalıb. Amma biz bunu bilirik ki, çətin şərtlər fürsətlər yaradır. Biz istəyirik ki, daha çox iş adamı Azərbaycana gəlsin, daha çox iş adamı Türkiyəyə getsin və bu münasibətlər daha da güclənsin. 2022-ci ildə iki dövlət arasında ticarət dövriyyəsinin həcmi 6 milyard ABŞ dolları olub. Ticarət dövriyyəsi bu ilin on bir ayı ərzində 6,7 milyard ABŞ dolları səviyyəsinə çatıb. Bu göstəricinin ilin sonuna kimi daha da artacağına əminəm”, – deyə o əlavə edib.

**(ardı 7-ci səhifədə)**

## Cənubi Qafqazın geosiyasi parçalanma riski




Səhifə ⇨ 8

## Britaniya Ukraynanı ayağa qaldırır



Səhifə ⇨ 11

# Dövlət başçısı və Birinci xanım Xocavəndin Qırmızı Bazar qəsəbəsində



**Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonuna səfər ediblər.**

Dövlətimizin başçısı və birinci xanım rayonun Qırmızı Bazar qəsəbəsində olublar.

Qəsəbə 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində Qırmızı Bazar qəsəbəsi separatçılardan təmizlənib.

Qeyd edək ki, Qırmızı Bazar Xocavənd rayonunun iki qəsəbəsindən biridir və olduqca əlverişli strateji mövqedə, mühüm yolların kəsişməsində yerləşir. Qırmızı Bazara 1947-ci ildə qəsəbə statusu verilib. Qəsəbənin ərazisi təbii sərvətlər, meşə zolaqları və şirin su ehtiyatları ilə zəngindir. İşğaldan əvvəl qəsəbədə gövdəsinin diametri 600 santimetr, hündürlüyü 25 metr, yaşları min və iki min il olan iki Şərq çinarı qədim təbiət abidəsi kimi qorunurdu. Qəsəbə, eyni zamanda, kənd təsərrüfatı və turizm potensialına malikdir.

# Şuşakənd qədim türk məskənidir



**Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı rayonunda olublar.**

Dövlətimizin başçısı və birinci xanım rayonun qədim Şuşakənd kəndinin ərazisinə baxış keçiriblər.

Qeyd edək ki, Şuşakənd kəndi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Kənd 2023-cü il sentyabrın 19–20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılardan təmizlənib.

Qədim tarixə malik kənddə bəzi tədqiqatlara görə, eramızın əvvəllərində Şimali Qafqaz çöllərində yaşamış türkdilli tayfalar məskunlaşıb.

Kəndin ərazisi turizm və kənd təsərrüfatı potensialına malikdir.

# 2500 yaşlı Şıx Dursun çinarı ulu babalarımızın yadigarıdır





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 20-də Xocavənd rayonunun Şıx Dursun kəndində olublar.**

Dövlətimizin başçısı və birinci xanım kənddəki "Çinar müqəddəs yer" abidə kompleksinə baxış keçiriblər.

Qeyd edək ki, Qırmızı Bazar qəsəbə inzibati ərazisi dairəsinə daxil olan Şıx Dursun kəndi 1992-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Kənd 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib.

Kənddə 2500 ilə qədər yaşı olduğu təxmin edilən çinar nəinki Azərbaycanın, dünyanın ən yaşlı ağaclarından biri sayılır. Ağacın hündürlüyü 54 metr, gövdəsinin diametri 27 metrdir. Ağacın yaxınlığında onu su ilə təmin edən Tenqri bulağı yerləşir.

***AZƏRTAC***

# Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı ən yüksək səviyyədədir

## *Prezident İlham Əliyev Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz ilə görüşüb*



**Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz ilə görüşüb.**

Cevdet Yılmaz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Azərbaycan Prezidenti hər fürsətdə və beynəlxalq təşkilatlar çərçivəsində keçirilən tədbirlərdə Türkiyə Prezidenti ilə görüşdüyünü və müzakirələri davam etdirdiyini vurğuladı.

Cevdet Yılmaz Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırdı və Ulu öndər Heydər Əliyevin əsl liderlik nümayiş etdirərək Azərbaycan dövlətinin qurucusu olduğunu qeyd etdi.

Türkiyənin vitse-prezidenti tarixi Qələbə və Azərbaycanın suverenliyinin tam bərpa olunması münasibətilə bir daha təbriklərini çatdırdı, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin Türkiyədə böyük sevinclə qarşılandığını vurğuladı. Bu xüsusda ermənilər tərəfindən basdırılmış minaların hələ də böyük təhlükə törətdiyi və yenidənqurma işlərinə mane olduğu bildirildi.

Vitse-prezident Türkiyədə baş vermiş zəlzələ zamanı Azərbaycanın göstərdiyi qardaşlıq dəstəyinə görə təşəkkürünü bildirdi, Kahramanmaraşda həyata keçirilən bərpa və tikinti işlərini xüsusilə qeyd etdi. Cevdet Yılmaz dünyanın yaşıl və rəqəmsal transformasiya dövründə olduğunu nəzərə alaraq, Azərbaycanla Türkiyənin bu sahədə də birgə çalışmasının və əməkdaşlığının vacibliyini vurğuladı.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsinin Preferensial Ticarət Sazişinin imzalanmasından sonra daha da artmasından məmnunluq ifadə olundu. Həmçinin gələn il Azərbaycan–Türkiyə hökumətlərarası komissiyanın iclasının keçirilməsi, eləcə də ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə edildi.

Söhbət zamanı beynəlxalq təşkilatlar, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq, təşkilatın daha da gücləndirilməsi, digər qardaş türk ölkələri ilə işbirliyinin dərinləşdirilməsinə dair fikir mübadiləsi aparıldı.

# Roma Papası Fransisk Həzrətlərinə

**Zati-müqəddəsləri,**

İsa peyğəmbərin mübarək mövludu — Milad bayramı münasibətilə Sizi və Sizin simanızda bütün həmməzhəblərinizi ürəkdən təbrik edir, ən səmimi və xoş arzularımı çatdırıram.

Xristian aləminin ən müqəddəs bayramlarından biri, yeniliyin, mərhəmət və şəfqət duyğularının rəmzi olan Milad bayramı insanları yüksək mənəvi ideallar və dəyərlər ətrafında birləşdirərək qəlbləri parlaq ümidlərlə doldurur, yeni nailiyyətlərə ruhlandırır. Yüksək birgəyaşayış mədəniyyəti və çoxəsrlik tolerantlıq mühitinin mövcud olduğu Azərbaycan cəmiyyətində Milad bayramı ölkəmizdə ənənəvi olaraq qeyd olunan dini bayramlar arasında özünəməxsus yer tutur.

Fəxrlə qeyd edirəm ki, bu gün Azərbaycan etnik və dini müxtəlifliyin milli sərvət kimi qorunduğu, bütün konfessiyalar üçün bərabər şəraitin yaradıldığı məkan, dünyada multikulturalizmin ünvanlarından biridir. Ölkəmizdə tarixən olduğu kimi hazırda da əmin-amanlıq, mehribanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayan müxtəlif xalqların və dinlərin nümayəndələri arasında nümunəvi dostluq və qardaşlıq münasibətləri hökm sürür.

Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin, dinlərarası harmoniyanın, dini-mənəvi irsin və multikultural dəyərlərin qorunub-saxlanılması dövlət siyasətimizin başlıca istiqamətlərindəndir. Azərbaycanda xristian inanclı vətəndaşlarımız digər etiqadların mənsubları ilə birgə ölkəmizin ictimai-siyasi həyatının bütün sahələrində yaxından iştirak edir, dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər. Əminəm ki, xristian icması doğma Vətənləri olan Azərbaycanın tərəqqisi və rifahı naminə qüvvə və bacarığını bundan sonra da əsirgəməyəcəkdir.

Azərbaycanın Müqəddəs Taxt-Tac ilə əlaqələrinin yüksələn xətlə və dinamik inkişafı məmnunluq doğurur. Xoşməramlı niyyətlərə xidmət edən ikitərəfli münasibətlərimizin tarixi əlamətdar hadisələr və nailiyyətlər ilə zəngindir. Azərbaycan-Müqəddəs Taxt-Tac əməkdaşlığının inkişafında, konstruktiv dialoqumuzun genişlənməsində Sizin böyük şəxsi töhfənizə, habelə Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinə daim verdiyiniz yüksək qiymətə görə Sizə minnətdarlığımı bildirirəm.

İnanıram ki, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında mövcud olan nümunəvi əməkdaşlıq münasibətləri bundan sonra da sivilizasiyalar arasında qarşılıqlı etimad mühitinin yaradılmasına və ümumbəşəri dəyərlərin təşviqinə xidmət edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizi doğum gününüz və qarşıdan gələn Yeni, 2024-cü il münasibətilə də səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, humanizm ideallarının təntənəsi naminə ali missiyanızda uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 dekabr 2023-cü il**

# Azərbaycan Respublikası idmançılarının və idman mütəxəssislərinin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32 ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə**

Xəlfəyev Ziyad Əli oğlu

**"Tərəqqi" medalı ilə**

Allahverdiyev Xanlar Xanlar oğlu
Allahverdiyev Mehman Firuddin oğlu
Babayev Nazim Tahir oğlu
Bünyadova Tamilla Hüseyn qızı
Əhmədov Kamal İzzət oğlu
Əliavsarov Ələkbər Əliəsgər oğlu
Əsgərov Asif Şamil oğlu
Hidayətzadə Elnur Rəhim oğlu
Hüseynli Turac Bəylər oğlu
Hüseynov Rahib Ağəli oğlu
Qurbanov Bəhruz Seyfulla oğlu
Novruzov Əsgərxan Qurban oğlu
Rüstəmov Allahverdi Ağəmməd oğlu
Rüstəmov Lütfiyar Əyyub oğlu
Skydan Hanna Aleksandrovna
Şahbanov İbadulla Şəmsuddinoviç
Vəliyev Şirin Musa oğlu.

**2.** Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə aşağıdakı şəxslərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilsin:

Abdullayev Arif Yədulla oğlu
Əbilov Eldar Zöhrab oğlu
Məmmədov Fərhad Nizami oğlu.

**3.** Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Beybutov Rafiq Qəmbər oğlu
Əliyev Tofiq Zöhrab oğlu
Əzizli Eldəniz Yamən oğlu
Həşimov Qasım Murtuza oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 dekabr 2023-cü il**

# Baş nazir qardaş ölkənin vitse-prezidentini qəbul edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 20-də ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Türkiyənin vitse-prezidentinin rəsmi səfərinin iki ölkə arasında mehriban qonşuluq və qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd edilib. Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının və müttəfiqliyinin hərtərəfli inkişafında prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın səyləri xüsusi vurğulanıb. İki qardaş ölkənin hər zaman bir-birini dəstəklədiyi məmnunluqla qeyd edilib.

Xüsusilə 44 günlük Vətən müharibəsi zamanı göstərilən siyasi-mənəvi dəstəyə görə qardaş türk xalqına və rəhbərliyinə bir daha dərin təşəkkür ifadə olunub. Azərbaycanın da hər zaman Türkiyənin yanında olduğu bildirilib.

Azərbaycan-Türkiyə sarsılmaz qardaşlığının Kahramanmaraşda baş vermiş dəhşətli zəlzələ zamanı da özünü göstərdiyi qeyd olunub. Bildirilib ki, bu gün Azərbaycan dağıdıcı zəlzələdən sonra bərpa-quruculuq işlərində də Türkiyənin yanındadır. Azərbaycan Türkiyədə zəlzələdən zərər çəkən bölgələrin yenidən qurulmasına yardım üçün 100 milyon ABŞ dolları məbləğində vəsait ayırıb.

İqtisadi-ticari əməkdaşlığın çox yüksək dinamikaya malik olduğu məmnunluqla vurğulanıb. Bildirilib ki, ötən il qarşılıqlı ticarətin həcmi 6 milyard ABŞ dollarına yaxın olub ki, bu da 25 faiz artım deməkdir. Cari ilin 11 ayında bu artım daha böyük temp nümayiş etdirir – 33 faiz. Preferensial Ticarət Sazişinin ticarət dövriyyəsinin genişləndirilməsinə mühüm töhfə verəcəyi diqqətə çatdırılıb. Mövcud geniş imkanlardan istifadə edilərək ticarətin həcminin daha da artırılacağına, iqtisadi əməkdaşlığın əhatə dairəsinin genişləndiriləcəyinə əminlik ifadə olunub. Bu baxımdan Azərbaycan-Türkiyə Strateji Əməkdaşlıq Şurasının, həmçinin Birgə Hökumətlərarası Komissiyanın iclaslarında qəbul edilən qərarların icrasının mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Komissiyanın ötən ilin noyabr ayında Bakıda keçirilmiş sonuncu iclası zamanı imzalanmış Fəaliyyət Planının böyük hissəsi hökumətlərimizin birgə səyləri nəticəsində icra edilib. Tərəflər Hökumətlərarası Komissiya çərçivəsində yaxından işləməyə hazır olduqlarını ifadə ediblər.

İnvestisiya sahəsində əməkdaşlığın yüksək dinamikası təqdir edilərək Azərbaycanın Türkiyədə, Türkiyənin isə Azərbaycanda ən böyük sərmayədarlardan biri olduğu məmnunluqla qeyd edilib.

Azərbaycanla Türkiyənin birgə reallaşdırdığı Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, Bakı-Tbilisi-Qars kimi enerji və nəqliyyat layihələrinin mühüm regional və qlobal əhəmiyyət daşıdığı vurğulanıb.

Cənub Qaz Dəhlizinin strateji önəmi qeyd edilərək Azərbaycan ilə Türkiyənin bundan sonra da Avropanın enerji təhlükəsizliyinə töhfə verməyə davam edəcəyinə ümidvarlıq ifadə olunub.

Vurğulanıb ki, İğdır-Naxçıvan təbii qaz boru kəmərinin tikintisi də enerji gündəliyimizdə duran aktual məsələlərdən biridir. Türkiyə Prezidentinin cari ilin sentyabrında Naxçıvana səfəri zamanı dövlət başçıları tərəfindən təməli qoyulan bu layihənin də tez bir zamanda tamamlanacağına əminlik ifadə olunub.

Nəqliyyat sahəsində əməkdaşlığın inkişaf dinamikası xüsusi vurğulanıb. 2023-cü ilin 10 ayında iki ölkə arasında daşınmış yüklər həcminin 35 faiz artığı bildirilib.

Nəqliyyat sahəsində gündəlikdə duran bütün məsələlərin müsbət məcrada həll olunduğu bildirilərək, Azərbaycan tərəfindən dəmir yolu daşıma tariflərinə Türkiyə daşıyıcıları üçün əhəmiyyətli endirimlərin tətbiq edildiyi diqqətə çatdırılıb.

Azərbaycanın əsas hissəsi ilə Türkiyə arasında birbaşa dəmir yolu əlaqəsinin təmin edilməsi baxımından Qars-Naxçıvan dəmir yolu layihəsinin reallaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan sentyabrda prezidentlər tərəfindən imzalanmış niyyət protokolunun önəmi vurğulanıb.

Tərəflər hər iki ölkənin ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizə sahəsində də əməkdaşlığa böyük önəm verdiyini bildiriblər.

Son dövrlərdə müşahidə edilən qlobal iqlim dəyişmələri fonunda dünyada su ehtiyatlarının artırılmasının və sudan səmərəli istifadənin ciddi aktuallıq kəsb etdiyi diqqətə çatdırılıb.

Bütün ölkələr üçün olduğu kimi Azərbaycan üçün də su ehtiyatlarının qorunmasının strateji əhəmiyyət kəsb etdiyi bildirilib. Bu baxımdan iki ölkə arasında Araz və Kür çayları hövzəsinin su ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi ilə bağlı əməkdaşlığın zərurəti xüsusi vurğulanıb.

Görüşdə Türkiyə şirkətlərinin hazırda Qarabağda və Şərqi Zəngəzurda davam edən bərpa-quruculuq işlərində fəal iştirakı məmnunluqla qeyd olunub.

Tərəflər, həmçinin Azərbaycan-Türkiyə münasibətlərinin kənd təsərrüfatı, humanitar, təhsil, turizm və maraq doğuran digər sahələrdə genişləndirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.

**XQ**

# Milli Məclis Sədrinin Türkiyənin vitse-prezidenti ilə görüşü

**Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



S.Qafarova qeyd edib ki, Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanındadırlar. İkinci Qarabağ müharibəsi və Türkiyədə baş vermiş dağıdıcı zəlzələ zamanı bir daha bunun şahidi olduq.

Görüşdə ikitərəfli əlaqələrin inkişafında ali və yüksək səviyyəli qarşılıqlı səfərlərin müstəsna rolu və iki ölkə rəhbərlərinin qarşılıqlı səfərlərinin, beynəlxalq tədbirlər çərçivəsində görüşlərinin münasibətlərin bütün istiqamətlərdə inkişafına təkan verdiyi vurğulanıb. Xatırlanıb ki, 2021-ci il 15 iyun tarixli Şuşa Bəyannaməsində iki ölkə arasında strateji tərəfdaşlıq məsələləri öz əksini tapıb.

Azərbaycanla Türkiyə arasındakı münasibətlərin inkişafında parlamentlərimizin də vacib rolu qeyd edilib və bu istiqamətdə fəal əməkdaşlığın mövcud olduğu diqqətə çatdırılıb.

Səmimi görüş üçün təşəkkürünü bildirən vitse-prezidenti Cevdet Yılmaz bu il Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinin qeyd edildiyini xatırladaraq, onun Azərbaycanın inkişafındakı xidmətlərindən danışıb. Qarşılıqlı səfərlərin intensivləşdirilməsinin əhəmiyyətini vurğulayan vitse-prezident ölkələrimizin beynəlxalq təşkilatlarda, həmçinin Türk Dövlətləri Təşkilatında sıx əməkdaşlığından məmnunluğunu ifadə edib.

Söhbət zamanı Cevdet Yılmaz Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi münasibətilə təbriklərini çatdırıb. Qonaq Türkiyədə baş vermiş zəlzələ zamanı Azərbaycanın göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib.

Görüşdə Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, Milli Məclisin deputatı Hikmət Məmmədov, Türkiyə-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Şamil Ayrım çıxış edərək iki ölkə arasında əlaqələrin bu günü və gələcəyi barədə fikirlərini bölüşüblər.

**Ə.BƏDƏLOV**
**XQ**

# İcma Ermənistan diplomatına cavab verib

**Ermənistanın xarici işlər nazirinin müavini Vaqan Kostanyanın növbəti anti-Azərbaycan açıqlaması bir daha onu göstərir ki, daşnak təfəkkürlü erməni diplomatları iki ölkə arasında münasibətlərin normallaşdırılması perspektivindən qətiyyən məmnun deyil və müxtəlif təxribatçı açıqlamalarla prosesə mane olmağa çalışırlar.**

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

Bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda bildirilib.

Erməni diplomatın Qarabağ ermənilərinin qayıdışı fikri ilə bağlı isə bildiririk ki, bu proses qarşılıqlı olmalı, Qərbi azərbaycanlıların da Ermənistana qayıdışı təmin edilməlidir.

Qeyd edək ki, Ermənistan xarici işlər nazirinin BBC-yə müsahibəsində iddia edib ki, Azərbaycan sülh sazişinin imzalanması üçün heç bir istək nümayiş etdirmir.

**XQ**

# Zakir Həsənov Laçında hərbçilərlə görüşüb

**Dekabrın 20-də müdafiə naziri general-polkovnik Zakir Həsənov, Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov və nazirliyin digər rəhbər heyəti azad edilmiş ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşüb.**



Müdafiə naziri şəxsi heyətin fərdi hazırlığının təkmilləşdirilməsi, bilik və bacarığının daha da artırılması üçün üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsinin vacibliyini vurğulayıb. Ali Baş Komandanın istənilən tapşırıqlarının icrasına hər an hazır olmaları hərbi qulluqçuların diqqətinə çatdırılıb.

Zakir Həsənov hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, eləcə də döyüş hazırlığının yüksək səviyyədə saxlanması ilə bağlı aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verib.

**XQ**

# “Beynəlxalq radio” və “CBC FM”ə yayım radiotezlikləri ayrıldı

**Audiovizual Şuranın dekabrın 20-də keçirilən növbəti iclasında boş və istifadəyə yararlı radiotezliklərin ayrılması məsələsi müzakirə olunub.**

AZƏRBAYCAN RESPUBLİKASI
AUDİOVİZUAL ŞURASI

Audiovizual Şuranın müvafiq qərarları ilə "Azərbaycan Beynəlxalq Radiosu"nun ümumölkə yayımının təmin edilməsi üçün "Bakı Teleqüllə Kompleksi"ndən 92,5 MHs, "Şuşa" RTYS-dan 89,2 MHs, "Astara" RTYS-dan 95,2 MHs, "Yalama" (Xaçmaz rayonu) RTYS-dan 97,4 MHs, "Danaçı" (Zaqatala rayonu) RTYS-dan 98,0 MHs radiotezlikləri ümumölkə yerüstü radio yayımçısı "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin, habelə "CBC FM"-in Qarabağda və Şərqi Zəngəzurda yayımının genişləndirilməsi məqsədilə "Şahyeri" (Xocavənd rayonu) RTYS-dan 93,8 MHs radiotezliyi regional yerüstü radio yayımçısı "Caspian İnternational Broadcasting Company" MMC-nin istifadəsinə ayrılıb.

**XQ**

# “Media savadlılığı” platformasının təqdimatı

**Bakıda "Media savadlılığı" platformasının təqdimatı keçirilib.**

Açılış nitqində ölkəmizdə həyata keçirilən media islahatlarının həm peşəkar mediaya dəstək, həm də sağlam media mühitini yaratmağa xidmət etdiyini deyən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Agentliyin cari müddətə qədər gənclər üçün media savadlılığı mövzusunda bölgələrdə bir sıra maarifləndirici tədbirlər keçirdiyinə diqqət çəkib.



Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi üzrə Dövlət Xidmətinin rəisi İlqar Musayev isə sosial şəbəkə vahidlərinin artması fonunda mümkün kiberhücumlar barəsində maarifləndirmə işlərinin vacibliyi barədə danışıb.

Sonra "Media savadlılığı"na dair platformanın təqdimatı olub.

Medianın İnkişafı Agentliyinin "Media dəstək layihələri və strateji planlaşdırma" şöbəsinin müdiri Ləman İsgəndərova veb-sayt platformasının ümumilikdə 5 bölmə və 10 altbölmədən ibarət olduğunu qeyd edib.

Təqdimatdan sonra Türkiyə Radio və Televiziya Ali Şurasının İnsan Resursları və Təhsil İdarəsi rəhbərinin müavini Feyza Gizlogider "İzədiklərimizin izi qalar" mövzusunda geniş mühazirə ilə çıxış edib.

Konfrans panel sessiya ilə öz işini davam etdirib.

**XQ**

# Ankarada Azərbaycan Milli Kitabxanasının 100 illik yubileyi qeyd edilib

**Dekabrın 20-də Azərbaycan Milli Kitabxanasının 100 illik yubileyi Türkiyə Milli Kitabxanasında qeyd edilib.**



Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov çıxışında kitabxananın 100 illik yubileyinin qardaş ölkədə qeyd olunmasından məmnun olduğunu bildirib, iki ölkənin milli kitabxanaları arasında ortaq mədəniyyətimizin inkişafına dair bir sıra layihələrin keçirilməsinin nəzərdə tutulduğunu vurğulayıb.

Mədəniyyət Nazirliyinin şöbə müdiri Akif Marifli, ölkəmizin TÜRKSOY-dakı daimi nümayəndəsi Elçin Qafarlı çıxış edərək Türkiyə Milli Kitabxanası ilə mütəmadi olaraq birgə keçirilən tədbirlər, kitab təqdimatları haqqında danışıb və hər iki ölkənin kitabxanalarına gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

**XQ**

# Paşinyanın Qarabağ ağrıları, yaxud özü yıxılanın ağlaması

(əvvəli 1-ci səhifədə)

Məlum olduğu kimi, Azərbaycan rəsmiləri 44 günlük müharibə müddətində də, lokal xarakterli antiterror tədbirlərindən əvvəl və sonra da bildiriblər ki, Qarabağın erməni əhalisinin bölgədə qalıb yaşamasına heç bir problem yoxdur. Rəsmi Bakı, eyni zamanda, yerli ermənilərin hüquq və təhlükəsizliyinə konstitusyon əsasdakı təminatları verəcəyini dəfələrlə açıqlayıb. Lakin Ermənistan buna məhəl qoymayıb. Nəticədə, bu gün Qarabağ, demək olar, ermənisizləşdirilib və bunun səbəbkarı Azərbaycan yox, bilavasitə Ermənistan hakimiyyətidir. Daha dəqiq desək və sırf mənəvi baxımdan yanaşsaq, minlərlə insanın öz yaşayış yerlərini tərk etməsinin günahkarı varsa, həmin şəxs elə N.Paşinyanın özüdür.

***



Ancaq Ermənistanın baş naziri günahı özündə görmək istəmir və Qarabağ məsələsi fonunda ənənəvi anti-Rusiya xəttini işə salır. Nikolun fikirlərindən belə qənaət hasil olur ki, Qarabağdakı Rusiya sülhməramlıları bir çox məsələlərdə olduğu kimi, bölgənin erməni sakinlərinin öz evlərini tərk etmələrində də günahkardır. "Biz bunun (yəni,Qarabağın ermənisizləşməsinin - red) qarşısını almaq üçün hər şeyi etdik", - deyən hökumət rəhbərini o anlamda haqlı saymaq mümkündür ki, Ermənistan hakimiyyəti, həqiqətən, Qarabağda separatizmin saxlanılmasına çox çalışdı, ancaq məqsədinə çata bilmədi. Bəli, N. Paşinyan Rusiyanı aşağılayan tərzdə ritorik sual ünvanlayır: "...Yəni, 9 noyabr (2020-ci il) tarixli üçtərəfli bəyanatda yazılıb ki, Azərbaycan Dağlıq Qarabağa hücum etsin, Rusiya sülhməramlıları bu zaman sığınacaqlara sığınsın?" …Aydındır ki, belə yanaşma Moskvanı ələ salmaqdan, əsl reallıqlardan uzaqlaşmaqdan, təxribatdan və gerçək mahiyyətin qəsdən təhrifindən başqa bir şey deyil.

N.Paşinyanın həm fikirlərini əsaslandırmaq, həm anti-Rusiya xəttini aktiv saxlamaq, həm də günahı özündən uzaqlaşdırmaq üçün 1999-cu ilə gedib çıxmasına diqqət yetirək. Erməni baş nazir bildirir ki, həmin vaxt Dağlıq Qarabağın Meğri ilə dəyişdirilməsi məsələsi gündəmdə olub. Əlbəttə, ayrı-ayrı illərdə Qarabağ münaqişəsinin tənzimlənməsinə dair müxtəlif variantların irəli sürülməsi mümkündür və irəli sürülüb də. Sadəcə, məsələni sırf həll variant kimi vurğulamaq təhrifdir və ictimai rəyə yanlış siqnallar ötürməkdir. Bilavasitə, 1999-cu ilə gəldikdə isə bəli, həmin vaxt Azərbaycan-Ermənistan münasibətlərində azacıq da olsa, yumşalma meyili nəzərə çarpıb. Bu, Ermənistan hakimiyyətindəki Vazgen Sarkisyan və Karen Dəmirçyan ikilisinin sayəsində olub. Ancaq o da məlumdur ki, həmin ilin oktyabrın 27-də Ermənistan parlamentində törədilmiş terror nəticəsində hər iki şəxs – həm baş nazir, həm də parlament sədri qətlə yetirildi. Nəticədə o zamanadək adları çəkilən şəxslərin kölgəsində qalan, söz sahibinə çevrilə bilməyən prezident Robert Koçaryan "Qarabağ klanı"nın təmsilçisi kimi, təşəbbüsü ələ aldı. Bununla da yumşalmaların qarşısı kəsildi və münaqişənin həlli dalana dirəndi. R.Koçaryandan sonra "Qarabağ klanı"nın daha bir təmsilçisi Serj Sarkisyan da danışıqları uzatmaqla məşğul oldu.

***

Qarabağ mövzusunda ilk qırılma anı 2016-cı ildə yaşandı. Həmin ilin Aprel müharibəsi zamanı Ermənistan uzun illərdən sonra ilk dəfə Azərbaycanın öz torpaqlarını geri qaytarmaqda qərarlılığını hiss etdi. Ona görə N.Paşinyan müsahibəsində Aprel müharibəsindən sonrakı proseslərə toxunur və bildirir ki, həmin ilin avqustunda Qarabağ məsələsi ilə bağlı yeni - üçüncü sənəd təqdim olundu. O, BMT Təhlükəsizlik Şurasının bütün tərəflərlə məsləhətləşmələrdən sonra Dağlıq Qarabağın gələcəyi ilə bağlı qərar qəbul edəcəyi məsələsinə də yer verir.

Əlbəttə, N.Paşinyan özünü təmizə çıxarmaq üçün bir sıra məsələləri gündəmə gətirir ki, onların hazırda hansısa ciddi əhəmiyyəti qalmayıb. Amma burada bir incə məqamı görmək mümkündür. Erməni baş nazir, faktiki olaraq, bildirir ki, onun hakimiyyətinədək Qarabağ diplomatik müstəvidə itirilməkdə idi. Belə çıxır ki, bölgəni əldən verməyə çalışan qüvvələr hərəkətlərini Ermənistanın suverenliyinin qorunması kontekstində ifadə edirdilər. Yəni, müasir erməni dövlətçiliyi üçün Qarabağ identikliyi məsələsi sıradan çıxırdı.

Məsələyə mövcud prizmadan yanaşsaq, 2018-ci ildən sonra hakimiyyətə yiyələnmiş N.Paşinyan 2019-cu ildə "Qarabağ Ermənistandır nöqtə" bəyanatını verməklə, bölgəyə sahiblənmək istəyini, yəni, identikliyin qorunması əzmini ortaya qoymuşdu. Axı, Nikol özünü demokratiyanın qladiatoru sayaraq, elə zənn etmişdi ki, dünya birliyi Ermənistanın Qarabağ avantürasını demokratiyanın mükafatı qismində qəbul edəcək. Yəqin, elə buna görə həm sözügedən sərsəm bəyanatı vermişdi, həm də Şuşada Cıdır düzündə şərab içib sərxoş olmuşdu. Bir sözlə, açıq şəkildə Qarabağın Ermənistana məxsusluğunu vurğulamaq və nümayişə çıxarmaq yolu tutmuşdu. Yəqin, arxayın imiş ki, onu hakimiyyətə gətirənlər Qarabağ müstəvisində də dəstəklərini əsirgəməyəcəklər. Ancaq, necə deyərlər, bu həna o hənadan olmadı…

***

Diqqətə çatdırdıqlarımız fonunda maraqlı məqam isə ondan ibarətdir ki, N.Paşinyan bir yandan özünün hakimiyətdə olmadığı keçmişə qayıdır və Qarabağın onsuz da əldən çıxdığı görüntüsünü yaradır, digər tərəfdən isə yenə də keçmişə qayıtmaqla, 2020-ci ildə Rusiyanın Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını vurğulayır. Əlbəttə, 2020-ci ildən sonra Rusiyanın bəzi məqamlarda tutduğu mövqenin üzərində də dayanmağa ehtiyac var. O zaman belə təəssürat yaranmışdı ki, Ermənistan, loru dildə desək, təzim edəcəyi təqdirdə, Kremlin Qarabağ məsələsinə yenidən baxması mümkündür.

Hazırda Rusiya liderinin, eləcə də ölkənin digər rəsmilərinin açıqlamaları ondan ibarətdir ki, Paşinyan 2022-ci ilin oktyabrında Praqada və 2023-cü ilin mayında Brüsseldə Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdı və bu, bölgənin İrəvanın əlindən çıxmasıdır. Belə yanaşmaya qarşılıq isə Paşinyan Rusiya Prezidenti Vladimir Putinin 2020-ci ildə dediklərini xatırladır. Çox güman ki, Putinin RTR telekanalına müsahibəsindəki fikirlərini əsas götürür. Yeri gəlmişkən, cənab Putin müsahibəsində, kifayət qədər, aydın şəkildə bəyan etmişdi ki, Qarabağ və ona bitişik rayonlar Azərbaycanın tərkib hissəsidir.

Heç şübhəsiz, Paşinyanın xatırlatması İrəvanın Moskvaya təzimdən boyun qaçırmasının eyhamıdır. Deməli, istər 2018-ci ilə qədərki, istərsə də 2020-ci ildən sonrakı proseslər Ermənistan üçün Qarabağ kitabının bağlandığının təsdiqidirsə, yerdə qalır Nikolun "Qarabağ Ermənistandır" bəyanatı. Yəni, indiki durumda Paşinyan dilə gətirməsə də, məhz bu bəyanat ənənəvi Qarabağ ssenarinin pozulmasıdır. Əlbəttə, mövcud anlamda erməni baş naziri haqlı saymaq mümkündür. Digər yandan isə Nikol günahkardır. Çünki ölkəsinə acınacaqlı durum yaşadan 44 günlük müharibəyə səbəb onun hərəkətləri idi.

***

Belə bir sual da yaranır: Ermənistan rəsmiləri nə üçün 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata Rusiyanın Qarabağdakı erməni faktorunu saxlamaq yönümlü sənəd kimi baxırlarmış? Daha doğrusu, əvvəl belə yanaşırlarmış, sonra xəyal qırıqlığına uğrayıblar. Deməli, Ermənistan parlamentinin sədri Alen Simonyanın bir müddət əvvəl dedikləri də məhz xəyal qırıqlığının nəticəsi imiş. Simonyan bildirmişdi ki, Rusiya üçtərəfli bəyanatla Qarabağı Azərbaycana verdi. Və deməli, üçtərəfli bəyanatla müharibəni dayandırıb Ermənistanı xilasın qarşılığında, İrəvan Moskvaya yönəlik heç bir jest etməyib.

***

Bəli, nəticəyə gəlirik ki, sözügedən bəyanata Qarabağdakı erməni faktorunu saxlamaq yönümlü sənəd kimi yanaşan Ermənistan, əslində ikili oyun oynayırmış. Çalışırmış ki, həm Qarabağdakı status-kvonu – separatçı rejimi qorusun, həm də ümumən Qarabağ avantürasının Qərb xəttini müəyyənləşdirsin. Yəni, üçtərəfli bəyanat, eləcə də Qarabağdakı Rusiya sülhməramlıları rəsmi İrəvan üçün, bir növ, sipər imiş. Praqada və Brüsseldə Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanımaq isə beynəlxalq hüquqla imitasiya və Qarabağ müstəvisində yeni reallıqlar formalaşdırmaq cəhdi…

Nəzərə alaq ki, Paşinyan bir tərəfdən ölkəmizin suverenliyinə hörmətlə yanaşdığını bildirir, digər yandan Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi üçün beynəlxalq təminat məsələsini qaldırır, bölgənin xüsusi statuslu ərazi kimi rəsmiləşməsini istəyirdi. Yəni, İrəvan insan faktorlu manipulyasiyası ilə, öz aləmində, Qarabağ avantürizminin davamına siyasi və mənəvi sərmayə yatırırdı. Bu, həmin avantüra üçün klassik gedişat trayektoriyasına zidd idi. Və görünür, elə buna görə də V.Putin və Rusiya rəsmiləri Paşinyanın Praqada və Brüsseldə etdiklərini qabardırlar.

Heç şübhəsiz, Kremldən tanınma məntiqinin yanlışlığını dilə gətirilməsi, Qarabağ münaqişəsi baxımından, belə demək mümkünsə, klassik qavrama zidd mahiyyətin vurğulanmasıdır. Deməli, Putinin açıqlamasında da incə eyham var. Təxminən belə: bizi nəzərə almadan məsələnin Qərb platformasındakı həlli məntiqi ilə Qarabağı tanıyırsınızsa, bizlik heç nə yoxdur. Necə deyərlər, özü yıxılan ağlamaz.

***

Sonda onu deyək ki, Ermənistanın baş naziri keçmişdə ilişib qalmaqdansa, ittiham yönümlü fikirlər səsləndirməkdənsə, yenə müxtəlif manipulyasiyalara yol verməkdənsə, ilk növbədə Azərbaycanla sülh müqaviləsi baxımından pozitiv mövqe ortaya qoymalıdır. Bunu etmir və onun bildirdikləri fonunda mövcud durum deməyə əsas verir ki, Bakı-İrəvan nizamlamasında mürəkkəbliklər qalmaqdadır. Əlbəttə, mövcud xüsusdakı bir sıra çətinliklərin məhz Azərbaycanın prinsipial mövqeyi ilə aradan qalxdığını da söyləmək lazımdır. Ümumən, müsbət məqam budur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Nisbi sakitlikdən möhkəm sülhə nə qədər qalıb?

(əvvəli 1-ci səhifədə)

## Bakı sülh gündəmini dəstəkləyir

H.Hacıyev müsahibəsində dekabrın 7-də Azərbaycan Prezident Administrasiyası və Ermənistan baş nazirinin Aparatı vasitəsilə sülh gündəmini irəli aparmaq niyyətini, həmçinin etimad quruculuğu tədbirləri haqqında birgə bəyanatın verildiyini diqqətə çatdırıb. Onun dediyinə görə, son üç ay Ermənistan-Azərbaycan münasibətləri, iki ölkənin müstəqilliyi tarixində ən sakit və ən dinc dövrlərdən biri hesab oluna bilər: "Müharibə yoxdur, vəhşiliklər yoxdur, qarşıdurma yoxdur və əsgərlər kazarmalarına qayıdıblar. Nisbi sülh təmin olunub, indi onu uzunmüddətli sülhə çevirməyin, o cümlədən sülh müqaviləsinin imzalanmağın vaxtıdır".

Daha sonra münaqişənin tarixinə qısa ekskurs edən Prezidentin köməkçisi Ermənistan tərəfindən azərbaycanlılara qarşı etnik təmizləmə aparıldığını və bunun danılmaz fakt olduğunu xüsusi olaraq vurğulayıb: "Ermənistan otuz ildən artıq müddətdə işğalçı ölkə olub. Onlar Azərbaycanın işğal altında saxladıqları ərazilərini dağıdıblar. Bu, bir reallıqdır. Ermənistan Azərbaycanın suveren ərazilərində separatçı quruma dəstək verib. Azərbaycan separatçı qurumun mövcudluğuna və onun hərbi komponentinə son qoymağa məcbur idi. Amma indi buna son qoyulub. İndi regionun sülh barədə düşünməyinin vaxtıdır. Azərbaycan birbaşa sülh danışıqlarının tərəfdarıdır. Bu arada biz digər vasitəçilik səylərindən və ya təklif edilən müsbət konsepsiyalardan qaçmırıq. Amma vacib olan odur ki, Ermənistan və Azərbaycan bir araya gələrək sülh bağlamalıdır. Sülh əldə edildikdən sonra hesab edirəm ki, digər ölkələr və tərəfdaşlar da bunu dəstəkləyə bilər".

## "Domokl"un hədəfi əvvəldən bəlli idi



"Qarabağ məsələsi ilə bağlı erməni ideya və istəklərinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə xalqa açıq danışmamışıq". Bu sözləri dünən yerli mediaya müsahibəsində baş nazir Nikol Paşinyan deyib. Onun sözlərinə görə, iqtidar daxilən bununla barışıb və ictimaiyyətdən gizlətmir. Çünki bunun alternativi yox idi. İndi təsəvvür edin, camaata deyirik: vəziyyətimiz belədir, əraziləri qaytarırıq, "dqr"nin statusunu sıfırlayırıq. Onun gələcək statusu ilə bağlı heç bir əminlik yoxdur, üstəlik, ən yüksək beynəlxalq orqanlarda hansı qərarın verildiyi də məlumdur".

Bu etirafından sonra Paşinyan münaqişənin tarixinə baş vuraraq, "ən optimal həll variantını" belə təqdim edir: "Madrid prinsiplərindən sonra müzakirə olunan bütün variantlar Qarabağ probleminin həll edilməməsini nəzərdə tuturdu. Yalnız 1999-cu ildə bir variant vardı. Əgər, o, imzalansa idi "Dağlıq Qarabağ" probleminin həll olunduğunu söyləmək olardı. Bu, Meğri və "dq"nın mübadiləsi idi. Yəni, Meğri Azərbaycana, Dağlıq Qarabağ isə Ermənistana birləşdirilir. Dağlıq Qarabağ probleminin başqa həll yolu yox idi. Bu problem konkret olaraq ona görə yaradılıb ki, "dq" məsələsi Ermənistanın başının üstündə "Domokl qılıncı" kimi asılsın. Ola bilsin, elə Azərbaycanın üzərində də".

Paşinyanın daxili auditoriyaya hesablanmış bu "tarixi açıqlama"sı, müəyyən mənada məntiq amilindən məhrum deyil. Sadəcə bir düzəlişlə ki, onun müqayisəli məcaz kimi istifadə etdiyi "Domokl qılıncı"nın sonda kimin boynuna endiriləcəyi elə qondarma münaqişənin əvvəlindən bəlli idi. Ədalətli hökmün icrasının bu qədər ləngiməsinin səbəblərini və səbəbkarlarını isə baş nazirin özü də çox yaxşı bilir.

Bakı sülhə doğru uzanan yolun son ünvanına tezliklə yetişməkdən ötrü bütün imkanlarından yararlanır. Amma bu zaman haqlı olaraq rəsmi İrəvandan da adekvat addımların atılmasını gözləyir.

Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov son üç ayda Ermənistan tərəfindən sərhəddə elə bir təxribatın olmamasını müsbət hal kimi dəyərləndirir. Ekspert bunun tam gözlənilən olduğunu diqqətə çatdırır: "Azərbaycan Qarabağdakı qeyri-qanuni erməni silahlılarını tərk-silah edərək, ərazi bütövlüyünü təmin etdi və indi bayrağımız Xankəndidə dalğalanır. Aydın məsələdir ki, hazırda bizim strateji hədəfimiz Ermənistanla sülh sazişinin imzalanmasıdır. Amma, bu, heç də o demək deyil ki, İrəvan siyasi və diplomatik müstəvilərdə özünü sakit aparır, sülhə aparan yolda maneələr yaratmağa çalışmır. Qarabağ erməniləri könüllü şəkildə bölgəni tərk edəndən sonra rəsmi İrəvan Azərbaycana qarşı yeni tələblər irəli sürməyə başlayıb. Guya onların geri qayıtmaları ilə bağlı sülh sazişinin mətnində ayrıca bənd olmalıdır. Eləcə də Zəngəzur dəhlizinin açılması yolunda yeni-yeni bəhanələr uydurmağa çalışırlar. Əslində, bu məsələ də öz həllini tapacaqdır".

F.Sadıxov hesab edir ki, Azərbaycanın sülhə nail olma yönündə fəal və davamlı diplomatik addımları nəticəsində sülh sazişi imzalanacaq: "İki ölkə arasındakı münasibətlərdə tam yumşalma mərhələsi gəlməsə də, hər halda İrəvan tərəfindən buna aparıb çıxaracaq müəyyən əlamətləri müşahidə etməkdəyik".

## Sülh prosesinin Tbilisi ünvanı

Son vaxtlar gündəmdə Gürcüstan paytaxtının Bakı və İrəvan arasında sülh sazişinin imzalanması üçün ideal məkan olduğu barədə mülahizələr dolaşır. Rəsmi Bakı bu versiyaya loyal yanaşdığını açıqlasa da, İrəvan hələlik susur.

Gürcü politoloq Levan Mamaladze Tbilisini Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması üçün ən real məkanlardan biri sayır. O, bunu "Report"un yerli bürosuna açıqlamasında deyib: "NATO da Bakı və İrəvan arasında sənədin Tbilisidə imzalanması prosesində fəal rol oynaya bilər. Hərbi alyansın Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina da Azərbaycan və Ermənistan arasında əlaqələrin sülhə doğru getməsini yüksək qiymətləndirib. Tbilisi Bakı və İrəvan arasında sülh sazişinin imzalanması üçün bir məkan kimi hazırlanır. Onun Gürcüstana səfəri Alyansın bu region ilə daha çox maraqlandığını açıq şəkildə göstərir. Gürcüstanın hərbi sistemi NATO standartlarına uyğun çalışır və bu da o deməkdir ki, qonşu dövlətlər də Avroatlantik Alyansla daha sıx əməkdaşlıq etməyə imkan tapacaq".

Bu cür addımlar atmaqla Gürcüstanın həm də böyük risklərə getdiyinə diqqəti yönəldən L.Mamaladze bildirib ki, hazırda bölgədə baş verənlərin fonunda Moskvanın mövqeyinə nəzər salmaq lazımdır: "Çünki NATO-nun regionda aktivliyi Rusiyanın maraqlarına ziddir. Belə olan halda, Kreml çalışacaq ki, bu əməkdaşlıq mümkün olmasın. Gələn il NATO ilə yeni əməkdaşlığa start veriləcək".

Qafqazlıların probleminin Qafqazda həll olunmasını daha məqsədəuyğun sayan Bakı indiki mərhələdə hansı platformada və kim tərəfindən təşkil olunacağından asılı olmayaraq, sülh masasına əyləşməyə hazır olduğunu bildirib. Bunu həm də qarşılıqlı etimad mühitinin, ikitərəfli dialoqa səmimi inamın yarandığı mövcud şərait diktə edir.

İrəvan da etiraf etməlidir ki, son üç ayda sərhəddə, eləcə də iki ölkə arasında müşahidə olunan nisbi sakitliyin əldə edilməsi Azərbaycanın müstəsna xidmətidir. Qarabağ iqtisadi rayonunda həyata keçirdiyi məhz birsutkalıq antiterror tədbirlərindən sonra istər atəşkəsin pozulması, istərsə də bölgədə hərbi təxribatların törədilməsi üçün heç bir səbəb qalmadı. Hələlik sərhədlər tam müəyyən edilməsə də, şərti təmas xəttində tam sakitlikdir, qoşunlar ölkələrin öz ərazisində dislokasiya olunub. Bu, həm də o deməkdir ki, möhkəm və dayanıqlı sülhün əldə oluanması, Şərqin ən "uzunömürlü" münaqişəsinə son qoyacaq sülh müqaviləsinin imzalanması üçün bütün zəruri şərtlər yetişib.

***İmran BƏDİRXANLI***
***XQ***

# Nifrət dağarcığı

(əvvəli 1-ci səhifədə)

Xanım Bardaç-Yalova olduqca vacib bir məqama – Ermənistanda yəhudilərə qarşı nifrət təmayülünün niyə məhz son bir ildə, ələlxüsus da, Qəzzada hərbi əməliyyatlar başlayandan sonra geniş vüsət almasına toxunaraq, məsələ ilə əlaqədar öz versiyasını irəli sürür: "Düşünürük ki, son bir il ərzində erməni cəmiyyətində antisemit əhvalın güclənməsi (hələlik Qəzzada müharibəni nəzərdən keçirmirəm) sadəcə hayların, az qala, bütün dünyaya qarşı böyüyən qıcığının, bir növ, əksidir. Bu isə onların "miatsum" adlı sərsəm ideyasının tam iflasa uğramasını dərk etmələri fonunda baş verir. Dəqiq bilmirəm, görəsən, Ermənistan ictimai fikrində antifransız əhvali-ruhiyyənin səbəbini və dərəcəsini ölçüblərmi? Əgər bunun səbəbi kimi Bakının Qarabağ iqtisadi rayonu üzərində suverenliyini tam bərpa etmək siyasətinə qarşı Fransanın nəsə qoymaq iqtidarında olmaması, onun bu məsələdə gücsüzlüyü fonunda yaranması üzə çıxarsa, qətiyyən təəccüblənmərəm. Qəzzada hərbi əməliyyatlara gəldikdə isə, kənardan elə görünə bilər ki, guya, ermənilər fələstinlilərin müdafiəsinə qalxıblar. Amma, bu, ilk baxışda belədir. Reallıqda isə məsələ bir qədər fərqlidir. 7 oktyabr terror aktına çox kəskin cavab tədbirləri görən İsrailin ünvanına bütün dünyada tənqid və ittihamların artmasından istifadə edən ermənilər yəhudilərə qarşı tamamilə fərqli xarakterli nifrətlərini yeni ampluada izhar etməyə başladılar".

## Təqlid

Amma bu təmayülün ermənilərin yəhudilərə qarşı nifrətinin heç də yeganə səbəbi olmadığını vurğulayan müəllif yazır ki, sadalanan səbəblərin bəziləri təmiz psixoloji xarakter daşıyır: "Görünür, belə motivlərdən biri ermənilərin qlobal miqyasda yəhudi funksionallığı modelini təqlid etmək cəhdində gizlənir. İntəhası, bu model onlarda o qədər də effektli alınmır. Əgər tam dəqiqliyi ilə desək, faydasız cəhdlərdir. Onların milli ideoloqlarının fikrincə, müasir İsrail və Ermənistan xalqın sərgərdan oğul və qızlarını öz çətiri altına toplamaq missiyasını daşıyır. Fəqət, səhrada cənnət – oazis yaratmağı bacaran yəhudilərdən fərqli olaraq, ermənilərin quruculuq qabiliyyəti heyrətamiz formada yalnız sovet dönəmində nəyəsə nail olmağa çatdı. Bu da İrəvanın qədim müsəlman simasını "müzəffərcəsinə" dağıdaraq, onun yerində ermənilərin çəhrayı arzularının şəhərini ucaltmaqdan ibarət oldu. İttifaq büdcəsindən ayrılmış böyükhəcmli dotasiyanın hesabına reallaşan "erməni arzusu" deportasiya edilmiş azərbaycanlıların hələ soyumamış ocaqlarına Suriyadan, Livandan, hətta Fransadan "sivil" repatriantların köçürülməsindən ibarət idi. Bəli, məhz SSRİ mərhələsi məlum erməni ideyasının "çiçəklənən" dövrü sayılmalıdır. Sovet Ermənistanını isə tarixi dövr fərqi ilə şərti olaraq "müasir İsrail" adlandırmaq olar".

Məhz Moskvanın "atalıq dəstəyi" ilə Ermənistanın milli dövlətçilik atributuna yiyələndiyini xüsusu olaraq önə çəkən yəhudi tarixçisi məqaləsində onu da qeyd edir ki, SSRİ dağılandan sonra və hərə öz başının çarəsinə baxmağa məcbur qalanda məlum oldu ki, ermənilər sadəcə nəyisə yaratmaq imkanına malik deyillər: "Ermənilərin müstəqillik əldə etdikləri 1991-ci ildən 32 il keçib. Bu müddət ərzində onlar, misal üçün, yəhudilər kimi iqtisadi cəhətdən inkişaf etmiş, texnoloji tərəqqiyə nail olmuş və sosial yönümlü bir dövlət qura bilərdilər. Amma bunun əvəzində millətin bütün potensial enerjisi Qarabağın işğalına, oradakı boz zonanın və separatçı rejimin saxlanmasına xərcləndi. Hələ bir özlərinin "pir qələbəsi"ndən boş qürrələnmə və hamıya acıq verməklə məşğul idilər. Müharibədə məlum oldu ki, onların fəxr etdikləri "keçilməz Ohanyan müdafiə xətti" özünün fransızsayağı bütün qüdrətinə baxmayaraq, geridə qalmış texniki düşüncənin məhsuludur. Azərbaycan Ordusu PUA-ların vasitəsi ilə həmin müdafiə xəttini "asankeçilən" etdi. Bəli, keçmişdə qalmış müharibə taktikasına malik Ermənistan Azərbaycan Silahlı Qüvvələrinin yüksək texnoloji həmlələrinə müqavimət göstərməyə hazır olmadığını ortaya qoydu. Ordusunun darmadağın edilməsi ilə eyni zamanda, həm də "miatsum" tiryəkinin sıradan çıxması hələ də beyinlərinə hakim kəsilmiş xəstə erməni ideologiyasının yarıtmazlığını göstərdi".

## Empatiya

Məqaləsində İsrailin ermənilərin maraqlarına lazımi səviyyədə empatiya göstərməməsindən şok keçirdiklərini qələmə alan Elina Bardaç-Yalovanın qənaətinə görə, hələ Sovet məkanında yəhudi intelligensiyasının azərbaycanlılarla müqayisədə daha çox erməni elitası ilə yaxından bağlılığı faktını belə izah edir: "Axı onlar bu yaxınlıqdan çox şey umurdular. Bunun da çox bəsit səbəbi var. Azərbaycan elitası say etibarı ilə Rusiyada daha az təmsil olunmuşdu. Onların ziyalı təbəqəsi daha çox Vətənlərində yaşamağa üstünlük verir. Buna görə ermənilər ümid edirdilər ki, İsrail dövləti Rusiyadan köçmüş nəhəng repetriant kütləsinin hesabına erməniyönlü olacaq. İntəhası, bu, baş vermədi. Çünki yəhudi siyasətçiləri praqmatik adamlardır və onlar yalnız milli maraqlara görə hərəkət etməyə üstünlük verirlər. Bu maraqlar isə onlara ermənilərlə deyil, Azərbaycanla dostluq etməyi diktə edir. Praqmatizmdən danışarkən, iki ölkə arasındakı mənəvi bağları da qətiyyən unutmaq olmaz. Azərbaycan on minlərlə yəhudinin yaşadığı (onlar əsasən dağlıq ərazidə, Quba rayonunda yaşayırlar), özlərinə Vətən saydıqları ölkədir. Ermənistanda isə ermənilərdən və bir neçə min yezidi kürdündən başqa kənar millətlərin nümayəndələri yaşamır".

Tarixçi alim məqaləsinin sonunda yazdıqlarına onu da əlavə edir ki, böyük mənada yəhudilərin və müsəlmanların bölə bilmədikləri heç nə yoxdur: "Dünyada bir-birinə bunca yaxın və Yer üzündə həyatın mənasını bu qədər yaxın anlayan iki konfessiya mövcud deyil. Gec və ya tez, İsraildə və ərəb dünyasında radikalizmin və barışmazlığın dərəcəsi aşağı düşəndə, indi yaşanan münaqişə də öz həllini tapacaq. Əminəm ki, İsraillə dostluğu çox yüksək dəyərləndirən, eləcə də İslam dünyası ilə həmrəy olan Azərbaycan da tezliklə Cənubi Qafqaza və Yaxın Şərqə sülhün gəlməyini cani-dildən arzulayır. Biz həmçinin, erməniləri qonşularına və digər xalqlara qarşı etnik və dini dözümlülüyə çağırırıq. Azərbaycanlılara nifrətin sizi hansı aqibətə düçar etdiyini gördünüz. Bundan sonra daha kimlərəsə qarşı içinizi nifrətlə doldurmağı özünüzə rəva görməyin".

***Hazırladı:***
***İ.HƏSƏNQALA***
***XQ***

# Yeni təhlükəsizlik arxitekturası: dünya nizamının böhranı və xilası

**II yazı**

**Azərbaycan Qafqazda Avropa ilə Asiya arasında əsas geosiyasi körpüdür**

**Zbiqnev BZEJİNSKİ**

## Azərbaycanın potensialı və şansı

Bu məqalənin I hissəsində qoyulan sualı xatırlayaq: "Cənubi Qafqazda regional təhlükəsizlik arxitekturasının yeni oyunçusunun məhz Azərbaycan olması" tezisi hansı faktlar və faktorlara əsaslanır?

Suala əsaslı cavab vermək üçün iki araşdırma səviyyəsi arasında əlaqə yaratmaq şərtdir. Birincisi, Cənubi Qafqazda yerləşən müstəqil dövlətlərin regional və qlobal miqyaslarda yeritdikləri siyasətin məzmununun özəllikləri aydınlaşmalıdır. İkincisi, milli müstəqil dövlətlərin həmin siyasətinin regional və qlobal səviyyələrdə nə dərəcədə səmərəli (o dövlətin nüfuzunun artması kontekstində regional və qlobal miqyaslar üçün nə dərəcədə müsbət effektli olması aspektində) olduğu müəyyənləşdirilməlidir.

Bu iki aspekt bir məqamda birləşir: Cənubi Qafqazın region kimi geosiyasi xüsusiyyətləri prizmasında yerli dövlətlərin yeritdikləri siyasət onları geosiyasi oyunçu kimi qəbul etməyə imkan verməlidir! Dövlətin hansı keyfiyyətləri geosiyasi oyunçu olmağa imkan verir? Burada dövlət başçısının siyasətinin yeri və rolu nədən ibarət olmalıdır?

Azərbaycanla bağlı yuxarıda qoyulan sualların cavabları öncə vurğuladığımız aspektlərdə meydana çıxan suallara cavab axtarışlarını tələb edir. Bu kontekstdə onu deyək ki, "geosiyasi oyunçu" anlayışı da konkret məzmuna və şərtlərin ödənməsinə bağlıdır. Müasir mərhələdə hansı dövlətlər geosiyasi oyunçu sayıla bilərlər? Filosoflar, politoloqlar və analitiklər bu sualı araşdırırlar. Onun konkret nümunləri də hər bir region üçün mövcuddur. O cümlədən, Cənubi Qafqaz regionunda geosiyasi oyunçu olmaq imkanlarının da fəlsəfi, siyasi-nəzəri və geosiyasi parametrlərindən bəhs etmək mümkündür. Burada iki məsələni aydınlaşdırmaq gərəkdir. Birinci məsələ Cənubi Qafqazın region kimi özəllikləri haqqında ifadə edilən fikirlərlə bağlıdır. İkinci məsələ Cənubi Qafqazın regional özəllikləri şəraitində yerli dövlətlərin fəaliyyətlərinin məzmununun onların regional oyunçu olmaq potensialının göstəricisi kimi dərk edilməsidir. Öncə Cənubi Qafqazın regional özəllikləri üzərində dayanaq.

## "Avrasiya incisi"nin "oğurlanmış dəyəri"

İndi araşdırmaçılar Cənubi Qafqaza adətən kənar böyük güclərin mübarizəsi prizmasında baxırlar. Onlara elə gəlir ki, bölgənin heç bir dövlətinin mövcud prosesdə təsirli rola malik olmaq imkanları yoxdur. Azərbaycan, Gürcüstan və Ermənistan hansısa funksiya yerinə yetirə bilərlər, lakin təsirli yerli geosiyasi oyunçu olmaq şansları minimumdur.

Bir sıra tədqiqatçılar bəzən bu siyahıdan Azərbaycanı çıxarırlar. Onlar yazırlar ki, ölkə hazırda regionun geosiyasi oyunçusudur. Məsələn, A.Draqanov yazır ki, Azərbaycanın Cənubi Qafqazın geosiyasi panoramasında tutduğu strateji yeri müxtəlif analitik mərkəzlər, ekspertlər və politoloqlar araşdırırlar. Onların əsasında A.Draqanov belə nəticəyə gəlir ki, Cənubi Qafqazda "yalnız Azərbaycanın geosiyasi seçim imkanı mövcuddur", yəni Gürcüstan və Ermənistan üçün belə bir lüks yoxdur. Bu o deməkdir ki, real olaraq regional geosiyasi oyunçuluğa iddialı Azərbaycandır.

Lakin sonrakı fikirlərində A.Draqanov yanlışlığa yol verir. Yazır ki, bunlar Azərbaycanın regionda "öz oyununu apara biləcək oyunçu olması" üçün yetərli "geosiyasi potensiala malik olmasına kifayət etmir". "Məhz buna görə də Azərbaycan strateji tərəfdaş kimi Türkiyəni seçmişdir, ancaq, başqa dövlətlərlə, o cümlədən Rusiya ilə əməkdaşlıqdan heç zaman imtina etmir" (bax: Драганов, А Иран как региональный геополитический игрок // Журнал «Современный Кавказ: Геополитический выбор», Москва-Пятигорск, - 2009, - с. 242-247).

Bu fikirləri A.Draqanov yazanda Türkiyə ilə yanaşı, Rusya da Azərbaycanın strateji tərəfdaşı idi. Xatırladaq ki, Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa aid sənəd 2008-ci ilin 3 iyulunda imzalanmışdır. Həmin sənədin bazasında isə 1997-ci il iyulun 3-də imzalanmış qarşılıqlı təhlükəsizlik, əməkdaşlıq və dostluq haqqında müqavilə dayanır.

Bu faktları A.Draqanov ya bilməmişdir, ya özünü bilməyən kimi göstərmişdir, ya da imzalanan sənədlərə inanmamışdır. Ancaq bunlar onun problemidir, reallıq isə həmin sənədlərə hər iki tərəfin əməl etdiyini sübuta yetirir. Konkret olaraq, 1997-ci ildən bu yana Rusiya Azərbaycanın daxili işlərinə qarışmır və üstəlik, rəsmi Bakının atdığı prinsipial geosiyasi addımları dəstəkləyir. Kremldə açıq etiraf edirlər ki, Azərbaycan müstəqil siyasət yeridir və onun maraqlarına qarşı çıxmaq fikirləri (bəlkə də imkanları) yoxdur. Bu məqam xüsusilə 44 günlük II Qarabağ savaşından sonra daha qabarıq özünü göstərməkdədir.




Azərbaycanla Rusiya arasında münasibətlərin xarakteri və məzmununu müəyyən edən iki fundamental sənədi də mütləq vurğulamaq lazımdır. Onlardan biri 2018-ci ildə Azərbaycan və Rusiya prezidentlərinin imzaladıqları birgə Bəyannamədir, digəri isə 2022-ci ilin fevralında imzalanan Strateji Müttəfiqlik sənədidir. Rusiya XİN bütün bunların əsasında verdiyi bəyanatlarda vurğulayır ki, Azərbaycanla Rusiya arasında 2021-ci ilə qədər müxtəlif məzmunlu 150-dən çox sənəd imzalanmışdır. Tərəflər bütün istiqamətlərdə əməkdaşlığı genişləndirirlər. Azərbaycan Rusiyanın Avrasiya iqtisadi İttifaqına üzv olmayan ölkələr sırasında ən yaxın ticarət tərəfdaşıdır. Və bütün sahələrdə tərəflərin bir-birinin müstəqilliyinə sayğısı mövcuddur.

Hazırda Rusiya-Azərbaycan münasibətləri o dərəcədə inkişaf etmişdir ki, hətta Qərbin qısqanclığı artmışdır. Lakin Rusiya-Türkiyə münasibələri də sürətlə inkişaf edir və Azərbaycanla bağlı məsələlərdə Ankara ilə Moskvanın eyni mövqedə dayandığı aydın görünür. Yəni, Azərbacanın müstəqil siyasəti dəstəklənir, o cümlədən regional miqyasda atdığı addımlar təqdir olunur. Konkret desək, burada Bakıya qarşı hər hansı təzyiqdən söhbət gedə bilməz!

Deməli, A.Draqanov da başqaları kimi yanılır – Azərbaycan artıq real olaraq regional geosiyasi oyunçudur! II Qarabağ savaşından sonra regional geosiyasi miqyasda baş verənlərin postmüharibə mərhələsi kontekstində təhlilinə irəlidə baş vuracağıq. İndi isə bir sıra araşdırmaçıların hansı səbəblərdən Azərbaycanla bağlı həqiqətləri yarımçıq dedikləri üzərində dayanaq.

Məsələn, A.Draqanov niyə yanılmışdır? Çünki qlobal miqyasda regional proseslərin yerini və rolunu obyektiv müəyyənləşdirə bilməmişdir. Məsələ ondan ibarətdir ki, hər regionun özünəməxsusluğu mütləq nəzərə alınmalıdır. Bu baxımdan Cənubi Qafqazı Mərkəzi Asiya, Şərqi Avropa, Uzaq Şərq, Cənubi Asiya, Yaxın Şərq və s. regionlarla eyniləşdirmək olmaz. Qafqazın öz dinamikası vardır. Buna uyğun da geosiyasi reallıqlar və onların dəyişmə istiqamətləri formalaşır.

Digər məqam bəzi araşdırmaçıların Cənubi Qafqazda Azərbaycanın geosiyasi funksiyasını və ya missiyasını tam olaraq dərk edə bilməmələri ilə əlaqəlidir. Lakin hələ keçən əsrin 90-cı illərində Z.Bzejinski və H.Kissincer kimi diplomatiya və siyasət nəhəngləri, güclü analitiklər Azərbaycanı Qərblə Asiya arasında Qafqazda əsas "körpü" kimi qiymətləndirirdilər. Həmin məsələyə H.Makkinderin "Böyük Hartlant" ("Böyük Avrasiya») konsepsiyası işığında yanaşırdılar.

Qısa arayış: "Hartlant" ingiliscə "Heartlant" sözündəndir və mənası "Yerin ürəyi" deməkdir. Bu anlayış ilk dəfə 1904-cü ildə Oksfort Universitetinin professoru, britaniyalı H.C.Makkinder tərəfindən işlədilmişdir. Həmin termin Avrasiyanın dünya geosiyasətinin mərkəzi, ürəyi olduğunu ifadə etməyə və Qərb dövlətlərinin xarici siyasətində Hartlandın aparıcı rol oynamalı olduğuna xidmət edirdi. 1919-cu ildən Hartland "tarixin oxu" terminini əvəzləyərək, konsepsiya səviyyəsinə qaldırılmışdır. O dövrdən indiyə qədər həmin konsepsiya dünya geosiyasi təfəkküründə mühüm yer tutur.

Deməli, Rusiya ilə Azərbaycanın əməkdaşlığı nəinki iki qonşu dövlət kimi geniş və dərindir, həm də iki müstəqil dövlət olaraq strateji müttəfiqlik xarakteri daşıyır. Bu şərtlər daxilində kiminsə kiməsə təzyiq göstərməsi mümkün deyildir.

Türkiyə ilə Azərbaycanın münasibətlərinə gəldikdə isə bu, tam aydın olan məsələdir. Onun təməlində Ulu öndərin "Bir millət, iki dövlət" kəlamı dayanır, münasibətlər buna uyğun qurulur və inkişaf etdirilir. Həmin səbəbdən araşdırmaçıların Türkiyənin Azərbaycanın hansısa regional fəaliyyətinə məhdudiyyət qoymasından danışmaları mümkün deyildir. Əksinə, Türkiyə daim Azərbaycanın Cənubi Qafqazın bütün sahələrdə söz sahibi olmasına çalışmışdır. Zatən A.Draqanov da məhz buna görə regionda Azərbaycan–Türkiyə birliyindən bəhs etməyə məcburdur.

Eyni zamanda, Azərbaycanın Türkiyə ilə strateji müttəfiqliyinin konkret hüquqi çərçivədə qurması məsələsi mütləq vurğulanmalıdır. Həmin məqam Şuşa Bəyannaməsində öz əksini tapmışdır. Orada vurğulanır ki, tərəflər bir-birinə dəstək verirlər, daxili işlərinə qarışmırlar və bütün istiqamətlərdə əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdırlar. Eyni fikirlər Rusiya ilə imzalanmış strateji müttəfiqlik sənədində də mövcuddur.

## Avrasiyanın kəsişmə məkanı: Azərbaycan!

Diqqətə çatdırılan məqamların fonunda bizə "Pakistan Economic Net & Daily Ittehad Media Group"nun eksperti M.Faaruxun fikirləri daha inandırıcı görünür. Pakistanlı ekspert deyir ki, Azərbaycan Cənubi Qafqazın "açar geosiyasi oyunçusu və iqtisadi mərkəzidir". Bu ölkə Şərqi Avropa ilə Qərbi Asiyanın kəsişmə məkanında yerləşir. Azərbaycan, sadəcə coğrafi anlamda iki böyük regionun "kəsişmə məkanı" deyildir. O, real olaraq "Qafqaz regionunda həlledici yeniləşdirən, dəyişən rolunu oynayır".

Azərbaycanın iqtisadi yolu isə, sözün əsl mənasında, "kinematoqrafik transformasiyanı" xatırladır. Bütövlükdə Azərbaycan regional miqyasda möhtəşəm "transformasiya tarixi və həyat dayanıqlığı" nümunəsidir. Buna görədir ki, bu ölkə "geosiyasətin mürəkkəbliklərini və iqtisadi çağırışları məharətlə idarə edir".

Nəhayət, elmi-tədqiqat işlərində də regional inteqrasiyada müxtəlif xarakterli faktorların qarşılıqlı əlaqəsinin ümumi mənzərəni yaratdığı vurğulanır. Həmin aspektdə Cənubi Qafqazda geosiyasi, siyasi, geoiqtisadi faktorların sintezi mühüm rol oynayır. A.A.Burov bununla əlaqədar yazır ki, Qafqazda siyasi inteqrasiya ilə iqtisadi inteqrasiya arasında elə sıx əlaqə vardır ki, onları bir-birindən ayırmaq olmaz. Bu özəllik Cənubi Qafqazda "inteqrasiya proseslərinin spesifikasını müəyyən edir".

Beləliklə, Azərbaycanı regional miqyasda geosiyasi oyunçu kimi qəbul etməyə tam əsas mövcuddur. Bununla yanaşı, rəsmi Bakının regional siyasəti ilə regionlararası siyasəti arasında elə bir məntiqi və geosiyasi əlaqə vardır ki, Azərbaycanı geosiyasi oyunçu kimi daha yüksək zirvəyə qaldırır. Bu da dünyanın yeni təhlükəsizlik arxitekturasının yaradılmasında regional miqyasda açar rolunu oynayır. Həmin aspekti təhlil etmək və onun əsasında geosiyasi proqnoz vermək mümkündür. Biz hansı geosiyasi əlaqələri nəzərdə tuturuq?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Makronun Cənubi Qafqazdan umduğu nədir?

## "Yelisey sarayı"nın bölgədə məkrli planları

**Yazının sərlövhəsinə çıxardığımız bu suala dərhal və birmənalı belə cavab vermək olar: "Köhnə qitə"nin yeni sahibliyinə iddialı olan Fransa dövləti Cənubi Qafqazın zəngin nemətlərini ələ keçirmək niyyətinə düşüb. Bunun üçün rəsmi Paris min bir siyasi-diplomatik hiylə və oyunbazlığa əl atır.**



Prezident Emmanuel Makronun başçılığı ilə Yelisey sarayı öz məkrli niyyətlərinə çatmaq üçün regionda Türkiyəni özünə ciddi rəqib görür və bundan çox qeyzlənir. Belə ki, son illər bölgədə Cənubi Qafqazın bütün parametrlərə görə aparıcı dövləti olan müstəqil ölkəmizin gündən-günə güclənməsi, Azərbaycan–Türkiyə tandemi işğalçı Ermənistanı özünə "bacı" sayan rəsmi Paris üçün qarmaqarışıq yuxu kimi bir şeydir.

Təəssüf və təəccüb doğuran hal həm də budur ki, çağdaş dünyanın super gücü hesab edilən Birləşmiş Ştatlar da bu əsassız iddialarında Fransaya açıq və gizli dəstək verir. Yelisey sarayı kimi, Ağ ev də güclü və qüdrətli Türkiyənin liderliyilə Böyük Turanın tarix səhnəsinə çıxmasından əndişələnir.

Qərb dövlətlərinin saxta "Ərəb baharı" devizi altında Suriya, İraq və Liviyada apardıqları hibrid müharibələrin məqsədlərindən biri də Türkiyəni zəiflətmək, hətta mümkün olarsa, onu parçalamaqdır. Türk dünyasını quru yolla birləşdirən Zəngəzur dəhlizinin açılmasını isə Fransa, təbii ki, qəti surətdə istəmir. Bu, mümkün olmazsa, ən azı özünün yırtıcı maraqlarını ehtiva edən şərtlərini diktə etməyə çalışır.

Görünən budur ki, hazırda Fransa və ABŞ-ın mövqe və maraqları üst-üstə düşür. İraq, Livan və Suriyada bəd niyyətlərinə tam çata bilməyən imperialist qüvvələr indi də Cənubi Qafqazı qarışdırmaq arzusuna düşüblər. E.Makron Fransanın iri sənaye və hərbi kapitalına xidmət edən planlarının icrasına təkbaşına gücü çatmayacağının fərqindədir və Ağ evdən Cənubi Qafqazda onun adından çıxış etmək üçün etimad mandatı almağa məcbur olub.

Məlum olduğu kimi, Paris xeyli vaxtdır Cənubi Qafqazda öz pozucu planlarını yerinə yetirmək üçün Azərbaycanda guya insan haqları və demokratiyanın pozulması ilə bağlı saxta təbliğat şousu ilə məşğuldur. Bu niyyətlə bir çox beynəlxalq təşkilatlar və Qərb mediası Bakıya qarşı çirkin qarayaxma kampaniyasına start vermişdir. Lakin bunlar heç bir səmərə vermir, ona görə ki, əsl həqiqəti gizlətmək mümkün deyil. Dünya kimin haqlı, kimin haqsız olduğunu artıq başa düşür.

Azərbaycan dövlətinin 2023-cü il sentyabrın 19-da Xankəndi və ətraf ərazilərdə qətiyyətlə apardığı və cəmi 23 saata böyük uğurla yekunlaşdırdığı antiterror əməliyyatı Makronun ölkəsinin hərbçilərini "sülhməramlılar" adı altında Qarabağda yerləşdirmək niyyətini gözündə qoydu. Yeri gəlmişkən, Yelisey sarayının "kollaborist" Nikol Paşinyan hökuməti üçün hətta bu məqsədlə orden və medal dəsti sifariş etdiyi barədə məlumatlar Fransa mətbuatına da sızmışdı.

Ermənistanın siyasi isteblişmenti "Sahel Afrikası" ölkələrinin maddi sərvətlərini vəhşicəsinə talayan, onların xalqlarının inkişafını ən məkrli yollarla bloklayan "sivil və demokratik" Fransanın olduğundan xəbəri yoxdurmu?! Əlbəttə, eşitməmiş olmazlar. İtaliyanın baş naziri demişdir ki, Fransa öz atom elektrik stansiyalarında istifadə etdiyi uranın 20 faizindən çoxunu Nigerdən gətirir və bu ölkə əhalisinin 80 faizi isə elektrik enerjisinə həsrətdir.

Bəlkə, həmin Fransa Ermənistana bu ölkənin iqtisadi yüksəlişi üçün böyük sərmayələr gətirəcək? Xeyr! Paris onun siyasi və iqtisadi nəzarətində olan heç bir ölkəyə hüzur və rifah bəxş etmək niyyətində deyil. Belə olan halda yerli burjaziya gec-tez imperialist qüvvələri ölkədən qovub çıxarmaq meylinə düşə bilər. Məlumdur ki, Fransa öz neokolonialist siyasətinin təsiri altına aldığı dövlətlərdə korrupsiya üçün münbit şərait yaradır və satqın hökumətlərin əli ilə yerli xalqların var-dövlətini daşıyıb aparır.

Ermənistanı da Nigerin aqibəti gözləyir. Gözü sərsəm xülyalarla bağlı olan erməni siyasi zümrəsi hələ də başa düşmür ki, qonşu dövlətlərə normal siyasi-iqtisadi əlaqələr qurmaq istəməyən ölkələri özünütəcrid gözləyir və bu yanlış siyasət yaxşı heç nə vəd etmir. Ermənistanın hazırkı iqtidarı hər vəchlə Rusiyanın iqtisadi və hərbi təsirlərindən qurtulmağa çalışır, əvəzində özünə Yelisey sarayınn qismində yeni ağa axtarır. Əlbəttə, İrəvan növbəti tarixi yalnışlığa yol verir.

***Məsaim ABDULLAYEV***
***XQ***

### Ekspert rəyi

**Atamoğlan MƏMMƏDLİ,**
**BDU-nun professoru,**
**tarix elmləri doktoru, şərhçi**



**– İkinci Dünya müharibəsindən sonra Fransa dövləti Avropada siyasi və iqtisadi lider roluna çox iddialı idi. Lakin qısa müddət sonra Almaniya öz qəddini düzəldərək qitənin ən böyük iqtisadi gücünə çevrildi.**

**Beləliklə, iqtisadi sahədə niyyətlərinə çata bilməyən Paris qitənin siyasi liderliyini əlində saxlamağa cəhd edir. Avropa Şurasının Fransanın Strasburq (Orta əsrlərdə alman şəhəri hesab olunurdu–red) şəhərində yerləşməsi də Parisinin iddiaları üçün meydan açır.**

**Makron ölkəsinin liderliyi ilə Avropada federalizm siyasətini dəstəkləyir. Bu zaman o, Fransanı qitənin "super qüvvəsi" kimi təsəvvür edir və digər ölkələrin daxili işlərinə qarışmağı belə özünə rəva görür. Bu, əlbəttə, qitədə sarkazmla qarşılanır.**

**Makronun qlobal xarici siyasət xətti də qüsurludur. O, Fransanın dünyanın müxtəlif qitələrində hərbi iştirakını genişləndirməyə çalışsa da, reallıqda bunun əksi baş verir. Yelisey sarayı prezidentin təkidi ilə milli təhlükəsizlik qüvvələrinə və orduya maliyyə dəstəyini artırır.**

**Bu il avqustun 23-də ölkənin Nazirlər Kabinetinin yeni heyətdə ilk iclasında Makron etiraf edib ki, Fransa və Avropanın yüksək rifah və qayğısızlıq dönəmi başa çatır. O deyib ki, xarici siyasətdə Parisi çətin günlər gözləyir.**

**Fransa lideri üçün söz və insan haqları deyilən dəyərlər yoxdur. O, dəfələrlə riyakarcasına deyib ki, Fransanın azadlıq rejiminin öz qiyməti var və müəyyən qurbanlar tələb edir. Bəli, Makron Fransasında demokratiya artıq rişxənd mövzusuna çevrilib.**

**Ümumiyyətlə, Makronun Cənubi Qafqazdakı proseslərə müdaxilə cəhdləri bu ölkənin imperialist xarici siyasətindən qaynaqlanır. Parisdə dərk edirlər ki, Orta Asiyanın sərvətlərini Xəzər dənizi və Azərbaycan üzərindən Avropaya, o cümlədən bütün dünyaya daşıya biləcək Transxəzər layihəsi bölgə dövlətlərinə rifah gətirə bilər.**

**Zəngəzur dəhlizinin açılması Ermənistanın özü üçün də çox xeyirlidir. Lakin Fransa burada aranı qatıb özünə piroqdan daha böyük pay tələb edir. Lakin unudur ki, bura Qafqazdır, burada haqqın və ədalətin tərəfində duran Türkiyə və Azərbaycan kimi qlobal siyasətin güclü aktorları var.**

# MSK-da DSK sədrləri üçün müşavirə



**Dekabrın 20-də Mərkəzi Seçki Komissiyasında (MSK) dairə seçki komissiyalarının sədrləri üçün müşavirə keçirilib.**

Açılış nitqi ilə çıxış edən Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov iştirakçıları salamlayaraq dövlətimizin başçısının sərəncamı ilə təsdiq edilən Milli Fəaliyyət Proqramının MSK tərəfindən reallaşdırılan bütün maarifləndirmə layihələrinin əsas hüquqi bazasını təşkil etdiyini bildirib.

Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə keçirilməsi üçün ölkə üzrə bütün dairə və məntəqə seçki komissiyalarının geniş imkanlar və əlverişli şəraitlə təmin olunduğunu deyən MSK sədri seçkilərə hazırlıqla bağlı görülən işlər və atılan addımlar, habelə nəzərdə tutulan irimiqyaslı layihələr barədə ətraflı məlumat verib.



O bildirib ki, Prezident seçkilərinin fevralın 7-nə təyin olunması ilə bağlı Sərəncama əsasən, Mərkəzi Seçki Komissiyasına seçkilərin hazırlanıb keçirilməsinin təmin olunması həvalə edilib. Ölkədəki seçki prosesi qanunvericiliyin tələblərinə uyğun şəkildə keçirilir. Həmçinin seçkilər beynəlxalq təcrübələri öyrənərək daha da təkmilləşdirilir.

Məzahir Pənahov deyib: “Müşavirə seçki komissiyalarının sədrlərinin maarifləndirilməsi məqsədi daşıyır. Artıq uzun illərdir ki, bu cür tədbirlər həyata keçirilir”.

O əlavə edib ki, Seçki Məcəlləsinin tələblərinə görə, beynəlxalq müşahidəçiləri dəvət etmək üçün Azərbaycanda üç səlahiyyətli qurum var. Bunlar Milli Məclis, Xarici İşlər Nazirliyi və Mərkəzi Seçki Komissiyasıdır: “Milli Məclis beynəlxalq miqyasda parlament nümayəndə heyətlərini, XİN beynəlxalq təşkilatları dəvət edir. Seçki ilə bağlı əməkdaşlıq etdiyimiz qurumları isə Mərkəzi Seçki Komissiyası dəvət edir”.

MSK sədri vurğulayıb ki, artıq beynəlxalq müşahidəçilərə dəvətlər göndərilib: “Buna görə də bizim beynəlxalq müşahidəçilik baxımından heç bir problemimiz olmayacaq. Prezident seçkilərində səsvermə prosesini müşahidə etmək üçün beynəlxalq təşkilatların nümayəndələrinə də dəvət göndərilir”.

Məzahir Pənahov bildirib ki, işğaldan azad olunmuş ərazilərdə 26 məntəqə üzrə 23 mindən artıq seçici səs verə biləcək: “Hər məntəqəyə orta hesabla təxminən 800-900 nəfər seçici düşür. Bundan əlavə, işğaldan azad olunmuş ərazilərdəki siyahılar dəqiqləşdiriləcək. Seçkilərin şəffaf keçirilməsi üçün bütün digər vasitələrlə yanaşı, veb-kameralardan da istifadə olunacaq. Bu məqsədlə bütün ölkə coğrafiyasını əhatə edən 1 000 seçki məntəqəsində veb-kameralar quraşdırılması nəzərdə tutulur. Azərbaycanın istənilən vətəndaşı hər hansı bir səbəbdən aid olduğu seçki məntəqəsindəki siyahıya daxil edilməyibsə, MSK-ya müraciət edə bilər. Eyni zamanda, xarici ölkələrdə yaşayan vətəndaşların səs verməsi üçün konsulluqlara və səfirliklərə göstərişlər verilib”.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev bildirib ki, bu gün Azərbaycan seçki qanunvericiliyinə, demokratikliyinə, şəffaflığına görə dünyanın ən qabaqcıl ölkələrindən biridir: “Ölkəmizdə indiyədək prezident, parlament, bələdiyyə seçkilərinin keçirilməsi bizə imkan verir ki, bu məsələni daha da irəliyə aparaq. Prezident İlham Əliyev bütün seçki məntəqələrində yerli və icra hakimiyyəti orqanlarına, ümumilikdə bütün aidiyyəti qurumlara qanunvericiliyə ciddi riayət olunması, seçki prosesinin demokratik və şəffaf şəkildə keçirilməsi, heç bir qanun pozuntusuna yol verilməməsi barədə tapşırıqlar verib. Ölkəmizdə seçkilərin hər dəfə şəffaf və demokratik prinsiplər əsasında keçirilməsində Prezident İlham Əliyevin siyasi iradəsi çox böyük rol oynayıb”.

O bildirib ki, müşavirə qarşıdan gələn seçkilərin ən yüksək səviyyədə keçirilməsi üçün üzərimizə düşən vəzifələrin müzakirəsi baxımından önəmlidir: “Azərbaycanın seçki təcrübəsi, əldə etdiyi nailiyyətlər nəinki cəmiyyətimizdə, eyni zamanda, hər dəfə ölkəmizdə seçkiləri izləyən beynəlxalq müşahidəçilər tərəfindən də yüksək qiymətləndirilir. Əldə olunan bu nailiyyətlərdə yerlərdə seçkilərin keçirilməsinə məsul olan şəxslərin əməyi çox böyükdür. Ölkəmizdə vətəndaş həmrəyliyi mövcuddur. Buna görə də Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir”.

Prezidentin köməkçisi əlavə edib ki, bütün dünya işğaldan azad olunmuş ərazilərə insanların qayıdışını heyranlıqla izləyir. Artıq bugünədək keçmiş məcburi köçkünlər 5 yaşayış məntəqəsinə köçürülüb. Eyni zamanda, 20 mindən çox insan abadlıq-quruculuq işlərinə cəlb edilib. O bildirib ki, 2026-cı ilə qədər 35 minə yaxın ailənin işğaldan azad olunmuş ərazilərə köçürülməsi planlaşdırılır. Seçki dairə və məntəqələrinin yerini göstərən işarə və lövhələrin qurulması işləri də başa çatdırılacaq. Seçici siyahılarının hazırlanması seçkinin ən yüksək səviyyədə keçirilməsi üçün ən vacib şərtlərdən biridir. Məsələnin xüsusi əhəmiyyətini nəzərə alaraq qeyd etmək istərdim ki, hər zaman beynəlxalq müşahidəçilər seçici siyahılarının tam olmaması barədə öz etirazlarını bildirirdilər. Lakin Azərbaycanda kiminsə seçki hüququnun pozulması ilə bağlı bir dənə də nümunə yoxdur.

2022-2023-cü illər ərzində ölkə ərazisində yerli icra hakimiyyətləri tərəfindən 2,4 milyon ev təsərrüfatına baxış keçirilib və məlumatları təhlil edilib. Qeyd olunan məlumatlar əsasında seçici siyahılarının dəqiqləşdirilməsi işi aparılıb. Ölkə üzrə 125 seçki dairəsində səsvermə hüququna malik şəxslərin sayı 1 milyon 143 min 620 nəfər və ya 22,1 faiz artıb. 2023-cü il dekabrın 9-na olan göstəricilərə əsasən 6 milyon 324 min 556 nəfər olub. Seçici sayının artması bir sıra daxili və xarici miqrasiya ilə əlaqələndirilir.

Prezidentin köməkçisi qeyd edib ki, işğaldan azad olunmuş ərazilərə köçürülən əhalinin səsverməsi də diqqət mərkəzindədir. Orada səsvermə olacaq binalar müəyyən edilib.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev bildirib ki, müşavirələrin təşkili şəffaf və demokratik seçkilərin keçirilməsi işinə töhfə verir: “Əlbəttə, bu da şəffaflığın, ədalətin təmin olunması, qanunvericiliyin qorunması məqsədi daşıyır. Müasir Azərbaycanda seçkilərin, onun mahiyyətinin inkişafı Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır”.

Ədliyyə nazirinin müavini Toğrul Musayev vurğulayıb ki, seçki prosesi cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında da keçiriləcək. Səsvermə günü seçki komissiyalarının üzvləri penitensiar müəssisələrin ərazilərində sərbəst hərəkət edə bilirlər.

O bildirib ki, müvafiq məlumatları yoxlamaq üçün Mərkəzi Seçki Komissiyasının qərarı ilə ekspertlərdən ibarət işçi qrupları yaradıla bilər. Seçkilərlə bağlı Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin şəxsi heyəti gücləndirilmiş iş rejiminə keçəcək. Seçkilərin koordinasiya edilməsi, prosesə nəzarətin həyata keçirilməsi, operativ tədbirlərin görülməsi məqsədilə Xüsusi Qərargah yaradılıb.

Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli deyib ki, Azərbaycan xalqı suverenliyini tam bərpa etdikdən sonra ilk dəfə seçkilərə hazırlaşır: “Növbədənkənar prezident seçkiləri Azərbaycanın siyasi tarixində mühüm yer tutacaq”. Əli Hüseynli qeyd edib ki, Ulu öndər Heydər Əliyevin qarşımıza hədəf olaraq qoyduğu seçki konfiqurasiyası, onun maddi-texniki bazası özünü doğruldub.

Daxili işlər nazirinin müavini İsmət Əliyev bildirib ki, fevralın 7-də keçiriləcək prezident seçkiləri ilə bağlı Daxili İşlər Nazirliyində müvafiq tədbirlərə başlanılıb. Prezident seçkilərinin qanunvericiliyə uyğun təhlükəsiz şəraitdə keçirilməsi, ictimai asayişin qorunmasının təşkili məqsədilə nazirlik müvafiq tədbirlər planı hazırlayıb.

Baş prokurorun birinci müavini Elçin Məmmədov deyib ki, seçki qanunvericiliyinin tələblərinin pozulmasına yol vermiş şəxslər Baş Prokurorluq tərəfindən məsuliyyətə cəlb ediləcək. O bildirib ki, prokurorluq orqanları qanunla müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün müvafiq ekspert qrupları ilə qarşılıqlı fəaliyyət həyata keçirəcək. Növbədənkənar prezident seçkiləri Azərbaycan Respublikasında demokratik mühitin daha da inkişaf etməsinə təsir göstərəcək.

Elçin Məmmədov bildirib ki, fevralın 7-də keçiriləcək prezident seçkiləri əvvəlkilər kimi şəffaf şəkildə təşkil olunacaq.

Onun sözlərinə görə, 2018-ci ildə keçirilən prezident seçkilərində qanunvericiliyin tələblərinin pozulmasına yol verilməsi ilə bağlı məlumat daxil olmayıb.

Müşavirənin sonunda iştirakçıların sualları cavablandırılıb.

Qeyd edək ki, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinə və Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”na əsasən 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçki iştirakçıları üçün müxtəlif istiqamətlər üzrə çoxsaylı layihələri əhatə edən genişmiqyaslı maarifləndirmə proqramına start verib.

Seçki sistemi və praktikasının təkmilləşdirilməsi, seçicilərin məlumatlandırılması, seçki iştirakçılarının maarifləndirilməsi, habelə dairə və məntəqə seçki komissiyaları üzvlərinin bilik, bacarıq və peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi məqsədilə Mərkəzi Seçki Komissiyasının dekabrın 16-da keçirilən iclasında fərqli istiqamətlər üzrə əhatəli maarifləndirmə layihələrinin gerçəkləşdirilməsi barədə müvafiq qərar qəbul edilib.

***XQ***

# AHİK-in növbədənkənar qurultayı



**Dekabrın 20-də Bakı Konqres Mərkəzində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) növbədənkənar VI qurultayı keçirilib.**

Qurultayın Mandat, Redaksiya və Hesablayıcı komissiyalarının tərkibi və Katibliyin üzvləri seçilib, gündəlik təsdiqlənib.

Tədbirin gündəliyinə “İlham Heydər oğlu Əliyevin Azərbaycan Prezidentliyinə namizədliyinin dəstəklənməsi”, “AHİK-in Bəyanatı haqqında”, “AHİK-in 2018-2023-cü illər üzrə fəaliyyəti”, “Təftiş komissiyasının hesabatı” və “AHİK sədrinin seçilməsi” barədə məsələlər daxil edilib.

Mandat komissiyasının məruzəsi dinlənildikdən sonra gündəlikdəki birinci məsələ - “İlham Heydər oğlu Əliyevin Azərbaycan Prezidentliyinə namizədliyinin dəstəklənməsi” ilə bağlı Səttar Möhbalıyev çıxış edib.



O bildirib ki, Konfederasiya yarandığı vaxtlar hakimiyyətdəki qüvvələrin bizə hansı təzyiqlər göstərdiyi, hansı qeyri-qanuni addımlar atıldığı çoxlarına məlumdur. Bütün bunlara Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə son qoyuldu. Digər təsisatlar kimi, həmkarlar ittifaqlarının hüquqları beynəlxalq normalara uyğun bərpa olundu, sosial tərəfdaşlıq institutları formalaşmağa başladı. Bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. 2003-cü ildən başlayaraq bütün prezident seçkilərində həmkarlar ittifaqlarının vahid namizədi məhz İlham Heydər oğlu Əliyev olub.

O, 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində həmişə olduğu kimi, demokratiyanın zəfər çalacağına əminliyini ifadə edib. AHİK sədri deyib: “Xalqımız sarsılmaz birliyini, həmrəyliyini qoruyaraq tərəqqiyə, inkişafa səs verəcək, hakimiyyəti sınanmış və etibarlı əllərdə saxlayacaq”.

Səttar Möhbalıyev vurğulayıb ki, Azərbaycanın hərtərəfli inkişafı həm də həmkarlar ittifaqlarının tərəqqisi deməkdir. Konfederasiyada birləşən 1,5 milyon həmkarlar ittifaqının hər bir üzvü seçkilərdə Vətənimizin bütövlüyünü təmin edən, ölkəmizi qabaqcıl dövlətlər sırasına çıxaran İlham Əliyevin namizədliyini yekdilliklə dəstəkləyir və seçkilərdə ona səs verəcəklərini bəyan edir.

Sonra çıxış edən AHİK-ə üzv təşkilatların sədrləri Prezident İlham Əliyevin ölkəmizin inkişafı və tərəqqisi üçün gördüyü işlərdən danışıblar, onun namizədliyinin dəstəklənməsinin zəruriliyini bildiriblər.

Qərar layihəsi səsə qoyularaq yekdilliklə qəbul olunub və İlham Heydər oğlu Əliyevin növbədənkənar prezident seçkilərində namizədliyinin dəstəklənməsi ilə bağlı AHİK-in bəyanatı oxunub.

Gündəlikdəki “AHİK-in 2018-2023-cü illər üzrə fəaliyyəti” ilə bağlı çıxış edən S.Möhbalıyev bildirib ki, 2018-2023-cü illərdə həmkarlar ittifaqı üzvlərinin müalicə və istirahətlərinin təşkilinə 154 milyon 658 min manat vəsait xərclənib. Bu vəsaitin hesabına 391 min 836 nəfər müalicə alıb və istirahət edib.

AHİK sədri, həmçinin bildirib ki, 2018-2023-cü illərdə işçilərin əmək hüquqlarının pozulması ilə bağlı həmkarlar ittifaqının hüquq müfəttişləri tərəfindən məhkəmələrə 79 iddia ərizəsi ilə müraciət edilib.

AHİK-in 2018-2023-cü illərdəki fəaliyyətinə dair hesabat məruzəsi ətrafında çıxışlarda qurumun işi qənaətbəxş hesab olunub və qərar səs çoxluğu ilə qəbul olunub. Eləcə də Təftiş komissiyasının hesabat məruzəsi dinlənilib və səsə qoyularaq təsdiqlənib.

Gündəlikdəki “AHİK sədrinin seçilməsi” barədə məsələ ilə bağlı çıxışlarda sədr vəzifəsinə Səttar Suliddin oğlu Möhbalıyevin namizədliyi irəli sürülüb. Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının, Pan Avropa Regional Şurasının, Ümumhəmkarlar İttifaqları Konfederasiyasının və Türk Dövlətləri Həmkarlar İttifaqları Təşkilatının vitse-prezidenti, Milli Məclisin deputatı Səttar Möhbalıyev açıq səsvermə yolu ilə yenidən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri seçilib.

Bununla da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının növbədənkənar VI qurultayı öz işini başa çatdırıb.

***XQ***

# YAP-ın Mərkəzi Seçki Qərargahının növbəti iclası



**Dekabrın 20-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Seçki Qərargahının genişləndirilmiş iclası keçirilib.**

İclasda YAP-ın yerli seçki qərargahlarının sədrləri də iştirak ediblər.

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planının icra vəziyyəti müzakirə olunub, dekabrın 20-dək nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirildiyi qeyd edilərək qarşıda duran əsas hərəkət və tədbirlərin də müəyyən olunmuş müddətlərdə icrasına dair fikir mübadiləsi aparılıb, müvafiq tapşırıq və tövsiyələr verilib.

***XQ***

# Azərbaycan – Türkiyə münasibətləri çağdaş dünyaya örnəkdir

## Bu il ticarət dövriyyəsi 6,7 milyard dollara çatıb

(əvvəli 1-ci səhifədə)

Qeyd edilib ki, son illər ölkələrimiz arasında münasibətlərin ən yüksək səviyyəyə çatması qarşılıqlı investisiya qoyuluşlarının da artmasına səbəb olub. Azərbaycan şirkətlərinin Türkiyəyə yatırdığı investisiyaların həcmi artıq 19,5 milyard ABŞ dollarını ötüb. Yeri gəlmişkən, Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, 2023-cü ilin yanvar-sentyabr aylarında ölkəmizdən ən çox birbaşa investisiya Türkiyə iqtisadiyyatına yatırılıb. Hesabat dövründə Azərbaycandan qardaş ölkəyə yatırılan investisiyanın həcmi 1 milyard 760 milyon dollar təşkil edib ki, bu da illik müqayisədə 20 dəfə çoxdur. Ötən müddətdə Türkiyənin Azərbaycana yatırdığı investisiyaların həcmi isə 12 milyard ABŞ dollarına çatıb. Bununla yanaşı, Cevdet Yılmaz bu göstəricilərin daha da artmasına ümid etdiyini diqqətə çatdırıb.

Məlum olduğu kimi, hazırda Türkiyə Cümhuriyyəti, həm də ölkəmizin əsas ticarət tərəfdaşlarından biridir. Hazırda Türkiyənin həm idxalda, həm ixracda, həm də ikitərəfli dövriyyədə ölkəmizin ikinci əsas ticarət tərəfdaşı olması da bunu sübut edir. İki qardaş ölkə arasında ticarət əlaqələri isə davamlı olaraq artmaqdadır. Belə ki, 2022-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 7,9 faiz artaraq 3,3 milyard ABŞ dolları təşkil edib. 2023-cü ilin yanvar-oktyabr aylarında isə bu göstərici 6,7 milyard dollara çatıb. Bununla belə, ölkələrimiz arasında ticarət əlaqələrinin daha da artırılması üçün imkanlar olduqca genişdir.

Son zamanlar bu məsələ dövlət başçıları səviyyəsində də ətraflı müzakirə olunub, idxal-ixrac əməliyyatlarının artırılması üçün imkanlar nəzərdən keçirilib. Təsadüfi deyil ki, Bakıda keçirilən "İş dünyasının görüşü" adlı tədbirdə vitse-prezident Cevdet Yılmaz deyib: "Azərbaycan və Türkiyə prezidentləri bizim üçün hədəf qoyublar ki, ölkələr arasında ticarət dövriyyəsinin həcmini 15 milyard ABŞ dollarına çatdıraq. Biz hər ötən il bu hədəfə yaxınlaşırıq. Ümid edirəm ki, ən qısa zamanda bu hədəfə çatacağıq". Bu baxımdan Preferensial Ticarət Sazişini xatırladan vitse-prezident bunu ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün vacib sənəd kimi dəyərləndirib.

Hazırda Türkiyədə Azərbaycan sərmayəli 2 mindən artıq şirkət fəaliyyət göstərir. Ümumilikdə, Türkiyəyə investisiya qoyan azərbaycanlı iş adamları həm firma sayı, həm də investisiya həcmi baxımından Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ilk yerdədir. Ölkəmizdə isə 5678 Türkiyə investisiyalı kommersiya qurumu qeydiyyatdadır. Onların da 4019-u enerji, sənaye, telekommunikasiya, kənd təsərrüfatı, qida, yüngül sənaye, nəqliyyat, ticarət və digər xidmət sektorlarında aktiv fəaliyyət göstərir. Türkiyəni təmsil edən şirkətlərin ölkəmizin inşaat sahəsindəki fəaliyyəti də diqqət çəkir. Təkcə onu qeyd etmək kifayətdir ki, qardaş ölkənin şirkətləri ötən müddətdə Azərbaycanın tikinti sahəsində 517 layihəyə imza atıblar. Türk şirkətləri, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında da xüsusi fəallıq göstərirlər. Hazırda onların iştirakı ilə həmin ərazilərdə müxtəlif istiqamətlər üzrə 107 layihə həyata keçirilir.

Bütün bunları ölkələrimiz arasında münasibətlərin məntiqi nəticəsi kimi dəyərləndirən Türkiyənin vitse-prezidenti C.Yılmazın sözlərinə görə, bu layihələrin dəyəri 18 milyard ABŞ dolları olub. Bununla belə, o bildirib ki, ölkələrimiz arasında tikinti sahəsində əməkdaşlıq gələcəkdə daha da inkişaf etdiriləcək. O bildirib ki, gələn ilin fevralında Ankarada keçiriləcək birgə hökumətlərarası iqtisadi komissiyanın iclasında iş dünyası yenidən bir araya gələcək və həmin tədbirdə iki ölkənin ticarət və iqtisadi münasibətləri üçün yeni bir yol xəritəsi hazırlanacaq.



Yeri gəlmişkən, dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz arasında keçirilən görüşdə də münasibətlərin hazırkı səviyyəsindən, ölkələrimiz arasında ticarət dövriyyəsinin Preferensial Ticarət Sazişinin imzalanmasından sonra daha da artmasından məmnunluq ifadə olunub. Eyni zamnada, gələn il Azərbaycan – Türkiyə hökumətlərarası komissiyanın iclasının keçirilməsi, eləcə də ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə edilib. Söhbət zamanı, həmçinin beynəlxalq təşkilatlar, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq, təşkilatın daha da gücləndirilməsi, digər qardaş türk ölkələri ilə işbirliyinin dərinləşdirilməsinə dair fikir mübadiləsi aparılıb.

Bu gün isə Bakıda ulu öndər Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümünə həsr edilmiş Azərbaycan–Türkiyə İnvestisiya Forumu öz işinə başlayacaq. İqtisadiyyat Nazirliyindən bildirilib ki, tədbirdə hər iki ölkədən dövlət qurumları və özəl sektoru təmsil edən 600-dən çox nümayəndə iştirak edəcək. Azərbaycan – Türkiyə əməkdaşlığının müxtəlif istiqamətlər üzrə genişləndirilməsi imkanları nəzərdən keçiriləcək, investisiya üzrə əməkdaşlıq sazişi və müqavilələri imzalanacaq. Forum çərçivəsində, həmçinin investisiya, ticarət, kənd təsərrüfatı, müdafiə sənayesi, "yaşıl" enerji, sağlamlıq turizmi sektorlarını əhatə edən panel sessiyalar keçiriləcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Bazar coğrafiyamız 200 ölkəni əhatə edir

## *Xaricə 3 min 383 çeşiddə məhsul ixrac olunub*

**Cari ilin yanvar-noyabr aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 200 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçiriblər.**



Dövlət Gömrük Komitəsinin məlumatına görə, hesabat dövründə xarici ticarət iştirakçılarının sayı 67 min 515 nəfər təşkil edib. Onların isə 57 min 264 nəfəri fiziki, 10 min 261 nəfəri isə hüquqi şəxslərdir. Xarici fəaliyyət iştirakçısı qismində hüquqi şəxslərin 278-i dövlət, 9 min 973 nəfəri isə özəl sektorun nümayəndələri olub.

Qeyd edək ki, bu ilin 11 ayında idxal əməliyyatlarının həcmi 15 milyard 812,6 milyon ABŞ dolları, ölkəyə gətirilən malların çeşidlərinin sayı isə 7 min 616 ədəd olub. Bununla yanaşı, hesabat dövründə 31 milyard 512,9 milyon dollarlıq 3 min 383 çeşiddə məhsul ixrac olunub.

# Valyuta ehtiyatları 11 milyard dollara yaxınlaşıb

**Mərkəzi Bankın valyuta ehtiyatları 20,3 faiz artaraq 10,8 milyard ABŞ dollarını keçib. Bu barədə Mərkəzi Bankın pul siyasəti ilə bağlı qərarında bildirilib. Xatırladaq ki, dekabr ayının 1-nə bankın valyuta ehtiyatları 10,6 milyard dollar təşkil edib.**



Azərbaycan Mərkəzi Bankı bu artımı ölkənin tədiyə balansının cari əməliyyatlar hesabında iri həcmli profisitlə tamamlanması ilə əsaslandırıb. Belə ki, təkcə ilin 9 ayında tədiyə balansında 6,7 milyard dollar profisit yaranıb.

# Payızlıq əkin sahələrinin sığortalanması davam edir



**Azərbaycanda payızlıq əkin sahələrinin sığortalanması ilə bağlı müraciətlərin emal müddəti yanvarın 15-nə qədər uzadılıb.**

Aqrar Sığorta Fondunun məlumatına görə, əkin sahələrini bəyan edən fermerlərə həmin müddətə qədər sığorta ilə bağlı SMS bildirişlər göndəriləcək və onlar əkinlərini bu tarixə qədər sığorta edə biləcəklər. Yanvarın 15-nə qədər göndərilən SMS-lər üzrə 5 iş günü ərzində ödənişlərin edilməsi mümkün olacaq.

Qeyd edək ki, Prezident İlham Əliyevin imzaladığı "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında 1 sentyabr 2021-ci il tarixli fərmana əsasən, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rola malik olan bitkilər üzrə 10 hektardan artıq sahələrə əkin subsidiyaları aqrar sığorta olunmaqla verilir. Aqrar Subsidiya Şurasının müəyyən etdiyi siyahıya əsasən, bu qayda ilə sığortalanmış buğda, arpa, çəltik, çay, limon, fındıq və qarğıdalı bitkiləri üzrə əkin subsidiyaları ödənilir.

Yeri gəlmişkən, fermerlərə dəstək məqsədilə sığorta haqqının 50-nin ödənişi dövlət tərəfindən həyata keçirilir.

***XQ***

# Beynəlxalq Maliyyə Korporasiyası ölkəmizin önəmli layihələrini dəstəkləyir

**Dünya Bankı Qrupuna daxil olan, Azərbaycanla əməkdaşlığa böyük maraq göstərən Beynəlxalq Maliyyə Korporasiyası (IFC) özəl sektora investisiyaların qoyulmasının maliyyələşdirilməsi, kapitalın beynəlxalq maliyyə bazarlarına istiqamətləndirilməsi və şirkətlərə, həmçinin hökumətlərə məsləhət xidmətlərinin göstərilməsi vasitəsilə inkişaf etməkdə olan ölkələrdə sabit iqtisadi artıma kömək edir. IFC, eyni zamanda, özəl qurumlara və maliyyə institutlarına yeni yaranan bazarlarda iş yerlərinin açılmasına, vergi gəlirlərinin yaradılmasına, korporativ idarəetmənin və ətraf mühitin qorunmasına , habelə yerli cəmiyyətlərə öz töhfəsini verir.**




Baş nazir Əli Əsədov IFC-nin Avropa, Latın Amerikası və Karib hövzəsi ölkələri üzrə regional vitse-prezidenti Alfonso Qarsia Moranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə də ölkəmizin Dünya Bankı və Dünya Bankı Qrupuna daxil olan qurumlarla əməkdaşlığa böyük önəm verdiyi bildirilib. Bu baxımdan IFC ilə uzunmüddətli səmərəli tərəfdaşlığın önəmi vurğulanıb. Ötən müddətdə adıçəkilən korporasiyanın respublikamızın müxtəlif sahələrində layihələrin həyata keçirilməsinə dəstək verdiyi qeyd edilib.

Hazırda Azərbaycan hökuməti üçün prioritet hesab edilən sahələrdə Dünya Bankı, o cümlədən IFC ilə potensial layihələrin həyata keçirilməsi ilə bağlı məsələlər müzakirə olunur. Bu layihələr işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış, məşğulluğun artırılması, "yaşıl şəhər"lərin yaradılması, Cənub Qaz Dəhlizi layihəsinin genişləndirilməsi, "Bakı Gəmiqayırma Zavodu" MMC-nin fəaliyyətinin genişləndirilməsi, külək enerjisi infrastrukturunun tikintisi və digər istiqamətləri əhatə edir.

Adıçəkilən beynəlxalq maliyyə qurumunun Azərbaycanla əməkdaşlığını şərtləndirən bir sıra amillər var. Bunlar sırasında son illər ərzində ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyinin gerçəkləşdirilməsi, Azərbaycanın aşağı gəlirli ölkədən yüksək gəlirli donor ölkəyə çevrilməsi, 2021-ci ildən etibarən respublikamızın Dünya Bankının donoru qismində iştirakı xüsusi yer tutur.

Qeyd edək ki, bu gün respublikamızda işgüzar mühitin yaxşılaşdırılması, haqsız rəqabətin qarşısının alınması, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün məqsədyönlü tədbirlər görülür. Eyni zamanda, qeyri-neft iqtisadiyyatının inkişafı əsas prioritetlərdən biri kimi diqqətdə saxlanılır. Aqrar sektorda müxtəlif növ güzəşt və kredit mexanizmləri tətbiq edilir. Dövlət-özəl tərəfdaşlığı mexanizmləri vasitəsilə özəl sektorun iqtisadi inkişafda rolunun artırılması istiqamətində ardıcıl layihələr reallaşdırılır.

Onu da xatırladaq ki, rəqabətqabiliyyətli iqtisadiyyatın və kənd təsərrüfatının inkişafı, həmçinin dövlət-özəl sektor tərəfdaşlığı təmin olunması Azərbaycanın enerji siyasətinin əsas prioritetləri sırasındadır və bu istiqamətlərdə də səmərəli tərəfdaşlıq üçün yaxşı imkanlar mövcuddur.

Yeri gəlmişkən, IFC-in Azərbaycanla bərpaolunan enerji sahəsində birgə fəaliyyət göstərmək və bu sahəyə özəl investisiyalar yatırmaq üçün imkanları genişdir. Buna görə də beynəlxalq maliyyə qurumu dənizdə külək enerjisinin inkişafı, o cümlədən özəl investorların cəlbi ilə bağlı "yol xəritəsi"nin reallaşdırılması üzərində Azərbaycan hökuməti ilə birgə iş aparır.

Müstəqillik dövründə neft və qaz hasilatında artım Azərbaycan iqtisadiyyatının möhkəmlənməsində mühüm rol oynayıb, enerjinin diversifikasiyası postpandemiya zamanı ölkənin gələcək dayanıqlılığının təmin edilməsini şərtləndirib. Bu istiqamətdə davamlı uğurlar əldə edən Azərbaycan özünün 2030-cu ilədək milli inkişaf konsepsiyasına uyğun olaraq, özəl sektorun innovativ layihələrinin təşviqi və dəstəklənməsi IFC-in Azərbaycan üzrə əsas fəaliyyət istiqamətlərini təşkil edir və ölkəmiz həmin sahələrdə əməkdaşlığın davam etdirilməsinə maraq göstərir.

Azərbaycan iqlim dəyişikliklərinə qarşı qlobal mübarizəni davamlı olaraq dəstəkləyir, enerji səmərəliliyi istiqamətində sistemli layihələr həyata keçirir. Azad edilən ərazilərdə reallaşdırılan genişmiqyaslı bərpa işləri, o cümlədən "yaşıl enerji" zonasının, ekoloji təmiz nəqliyyatın, "ağıllı" şəhər və kəndlərin yaradılması ilə bağlı təşəbbüslərin gerçəkləşdirilməsi bunun bariz ifadəsidir. BMT-nin 29-cu sessiyasının–COP29-un Azərbaycanda keçirilməsinin bir səbəbi də məhz bununla bağlıdır. Ümumiyyətlə, bərpaolunan enerji mənbələrinə investisiyaların cəlb edilməsi, "təmiz enerji"yə keçidin təşəbbüsləri vasitəsilə qeyri-neft sektorunu optimallaşdırmağı planlaşdırıb.

Ölkəmizdə neft və qazdan diversifikasiya dekarbonizasiya üzrə fəaliyyəti sürətləndirməyə kömək etməklə rəqabət qabiliyyətini artıracaq. Azərbaycan kifayət qədər bərpaolunan enerji resurslarına malik olduğundan xüsusən dənizdə mövcud külək enerjisi potensialı hərəkətə gətiriləcək.

Dünya Bankının enerji sektorunun idarə olunmasına dəstək proqramı çərçivəsində aparılan qiymətləndirmələrə görə, hazırda dənizdə külək enerjisinin texniki potensialı 157 geqavatdır, cari quraşdırılmış ümumi güc isə 8 geqavata yaxındır.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi

***Mirağa ƏHMƏDOV,***
***iqtisadçı-ekspert***



IFC-in hesabatına əsasən, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı və adıçəkilən korporasiya tərəfindən dərc olunan "yol xəritəsi" də ölkənin 2040-cı ilədək 7 qiqavat dənizdə külək enerjisi quraşdırma potensialına malik olduğunu göstərir.

Bu beynəlxalq maliyyə qurumunun Cənubi Qafqaz üzrə nümayəndəsi İvana Fernandes Duartenin sözlərinə görə, respublikamızda külək enerjisindən istifadə yerli səviyyədə 7 milyard dolladarək ümumi əlavə dəyər gerçəkləşdirməyə kömək göstərəcək. Azərbaycan özəl sektorun rəhbərlik etdiyi artım modelinə riayət etdiyindən, dənizdə külək enerjisinin inkişafı ölkənin enerji sektorunu daha rəqabətqabiliyyətli etməyə imkan verəcək, eləcə də, bu sektorda tullantıların sıfır səviyyəsinə nail olmağa yardım edəcək. Nəticədə Azərbaycan bərpaolunan enerjini öz qonşularına və Avropaya ötürəcək və beləliklə, regional enerji mərkəzinə çevriləcək.

Azərbaycan hazırda bərpaolunan enerji mənbələrinin inkişafına böyük beynəlxalq dəstəkdən yararlanır. Artıq xarici tərəfdaşlarla bir sıra müqavilələr bağlanıb. "ACWA Power" və "MASDAR" ilə sazişlər, həmçinin, Avstraliyanın "Fortescue Future Industries" şirkəti ilə 12 qiqavat enerji üzrə saziş Avropaya enerji resurslarının tədarüklərini artırmaq baxımından strateji önəm daşıyır.

Azərbaycandan "yaşıl enerji"nin əsas satış bazarı Avropadır və artıq bərpaolunan mənbələrdən enerjinin tədarükü üzrə konkret layihə mövcuddur. Belə ki, 2022-ci il dekabrın 17-də Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Qafqaz regionundan Avropaya "enerji körpüsü"-nün çəkilməsi haqqında saziş imzalanıb. Əldə edilmiş razılaşma çərçivəsində 1000 meqavatadək gücə malik 1195 kilometr uzunluğunda "Black Sea Energy" elektrik kabelinin çəkilməsi nəzərdə tutulub. Bu kabel vasitəsilə Azərbaycanda istehsal olunan "yaşıl enerji"nin Gürcüstan və Qara dəniz yolu ilə Rumıniyaya və oradan Macarıstan və Avropanın digər hissələrinə nəqli planlaşdırılıb.

# Cənubi Qafqazın geosiyasi parçalanma riski

I yazı

**Bu barədə hələlik siyasətçilər və analitiklər susurlar. Reallıq isə ziddiyyətin dərinləşə biləcəyindən xəbər verir. Müəyyən mənada "geosiyasi laqeydlik" adlandıra biləcəyimiz bu tendensiyanın inkişaf etməsi ehtimalı yox deyildir. Doğrudur, bəzi ekspertlər regionda müşahidə edilən və konstruktiv xarakter daşıyan bir prosesi də vurğulayırlar. Həmin proses Azərbaycanın sülhsevər fəaliyyəti ilə əlaqəlidir.**




Yəni, Cənubi Qafqazda geosiyasi mənzərənin konstruktiv istiqamətdə dəyişmə dinamikasından söz açılır və burada Azərbaycanın oynadığı müsbət rol etiraf edilir. Lakin Ermənistan və ona havadarlıq edən müəyyən Qərb dövlətlərinin regiona neqativ təsirinin məğzini arxa plana atmağa çalışırlar. Bu isə çox təhlükəli nəticələr verə bilər. Məsələ birbaşa Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanma perspektivi fonunda bütövlükdə regional geosiyasətin mənzərəsindən gedir. Problemin bu tərəfi məhz daha geniş prizmada Cənubi Qafqazda geosiyasi proseslərin istiqamətlərinə baxmağı tələb edir.

## Avropa geosiyasi ayrılma xəttində

Ana Palaçio 2019-cu ildə "Project Syndicate" nəşrində dərc etdirdiyi məqalədə yazırdı ki, "Avropa geosiyasi ayrılma xəttindədir". İspaniyalı müəllif məqaləsində o dönəmdə BMT Baş Katibi olmuş Antonio Quterreşin qlobal geosiyasətdə "böyük çatlama" ifadəsini nümunə kimi göstərmişdir. A.Quterreş ABŞ və Çinin liderliyi ilə dünyanın geosiyasi mənzərəsinin "iki savaşan və rəqabət aparan" düşərgəyə bölünmə riskinin artıdığından bəhs etmişdir. Bu da beynəlxalq nizamı poza bilər.

İndi isə yazırlar ki, bu ehtiyatlılıq nəinki özünü doğruldur, hətta artıq "dərin uçurum" yaradır, müxtəlif regionlarda "geosiyasi xətt sınır" və ya bütövlükdə "geosiyasi ayrılma xətləri genşlənir".

Nümunə kimi, 2021-ci ildə Türkiyənin ANKASAM Beyin Mərkəzində Mustafa Cem Koyunçunun AUKUS-un yaranması ilə "yeni geosiyasi ayrılma xəttinin" formalaşmasından yazmasını və Pyotor Yakovlevin "Perspektivi" jurnalında "beynəlxalq münasibətlər sistemində əsas ayrılma xətləri"ni təhlil etməsini göstərmək mümkündür.

Məsələ yalnız alimlər, analitiklər və ya ekspertlərin dəyərləndirmələri ilə məhdudlaşmır – bir tərəfdən müxtəlif regionlarda gedən geosiyasi proseslər, digər tərəfdən siyasətçilərin özlərinin qiymətləndirməsi təsdiq edir ki, artıq geosiyasi sınma xətləri və geosiyasi çatlama istiqamətləri bir çox regionda real trekə çevrilir. Mövcud aspektdə hazırda ən həssas regionlar sırasında Cənubi Qafqaz heç də sonuncu yerdə deyildir.

## Kənardan "əsən sərt küləklər": turbulentlik şəraitində "situativ sülh"

İndi siyasətçilər daha çox Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması ətrafında regiona təsir etməyə cəhd göstərirlər. Bu oyunda Rusiya ilə yanaşı və hətta daha çox ABŞ və Avropa İttifaqının bir sıra böyük dövlətləri canfəşanlıq edirlər. Hər üçü eyni faktor üzrə üstünlüyü ələ almağa çalışır – Azərbaycanla Ermənistan arasıda tarixi, siyasi, geosiyasi ədalət prinsipi ilə deyil, öz maraqlarına uyğun sülh yaratmağa cəhdlər göstərir. Hər birinin öz diplomatik ibarəsi vardır. Rusiya regionda ənənəvi mövcudluğunu və bölgə dövlətləri ilə ümumi tarixə malik olmasını, xalqların dostluğunu və başqa duyğusal faktorları qabardır. Qərb isə demokratiya, liberalizm, insan haqları, azad inkişaf və sair kimi əzbərlədiyi və artıq gəlişi gözəl anlayışlar kimi qəbul edilən rəvayətlər danışır.

Hər iki tərəfin fəaliyyətində səmimilik və ədalətlilik görünmür. Belə bir şərt daxilində davamlı sülhün necə ola biləcəyini heç özləri də bilmirlər. Bir sıra ekspertlər isə hesab edirlər ki, Qərb və Rusiyanın indiki fəaliyyəti yalnız situativ sülh" deyilən vəziyyəti yarada bilər.

"Situativ sülh" o deməkdir ki, davamlı, qalıcı, real faktorlara əsaslanan və tərəflərin tam qəbul etdiyi sülhdən deyil, situasiyaya uyğunlaşdırılmış və buna görə də situativ şərtlər dəyişən zamanı barışın da sona çatacağı müvəqqəti razılıqdan söhbət gedir. Bu cür gedişat yalnız və yalnız onu təşkil edənlərə müvəqqəti sərf edir. Lakin Azərbaycan və Ermənistanı sülhə qovuşdurmur.

Müvəqqəti sülh görüntüsünü yaratmaqda Qərbə züy tutanlardan biri də Ermənistandır. Ən pisi də bundan ibarətdir. Çünki maraqlı tərəflərdən biri psevdosülh yolunu tutursa, bütövlükdə normallaşma ehtimalı çox aşağı düşür. Bu mənada Ermənistan da Cənubi Qafqazda "geosiyasi ayrılma xətti"nin yaranmasında və bütövlükdə gedişatın geosiyasi parçalanmaya aparılmasında iştirakçıdır!

Bu prosesdə daha çox risk yaradan faktorlar sırasında rəsmi İrəvanın özündən yeni-yeni "sülh şərtləri" uydurması ayrıca neqativ yer tutur. Son olaraq, Ermənistan rəsmilərinin məlum 2020-ci il 10 noyabr Bəyannaməsinin qüvvədən düşdüyündən və müqavilənin ancaq Qərb paytaxtlarının birində imzalana biləcəyindən söz açmaları onun misallarından biridir. Üstəlik, N.Paşinyan özündən "Azərbaycan əldə edilən razılaşmalara əməl etsə" şərtini çıxarmışdır. Birincisi, söhbət hansı razılaşmalardan gedir? İkincisi, indiyə qədər əldə olunan real razılaşmaları məhz Ermənistan pozmuşdur, Azərbaycan isə daim ona əməl etmişdir. Biz siyahını tuta bilərik, lakin o, çox uzun olacaqdır və keçən əsrin 90-cı illərinin əvvəllərindən bu yana olan müddətdə rəsmi İrəvanın bəd əməllərini əks etdirəcəkdir. Sadəcə, BMT-nin məlum 4 Qətnaməsinə əməl etməməsini xatırlamaq kifayətdir.

Bu faktlar onu göstərir ki, Ermənistan kənar təsirlər nəticəsində real olaraq sülhə deyil, regionda meydana gələ biləcək geosiyasi turbulentlikdən istifadə edərək, yenidən qarşıdurma yaratmağa meyllənir. Buna görə də Azərbaycan Prezidenti "Ermənistan revanşizmin baş qaldırmayacağına tam zəmanət verməlidir" xəbərdarlığını etməkdə tam haqlıdır.

Bu xəbərdarlıq həm də dövlətimizin başçısının mövcud vəziyyəti, kifayət qədər dərindən bildiyini və ona uyğun mövqe tutduğunu göstərir. Konkret olaraq, Azərbaycan Türkiyə ilə birlikdə regiona real və qalıcı sülh gətirəcək xəttini davam etdirir. Rəsmi Bakının son zamanlar Türkiyənin də danışıqlarda iştirakını vurğulamaq zərurəti bu baxımdan çox əhəmiyyətlidir.

Buradan vacib bir geosiyasi nəticə çıxarmaq olar: Cənubi Qafqazda regional geosiyasi çatlamanın qarşısını yalnız Azərbaycan–Türkiyə birliyi ala bilər. Burada Rusiyanın da müsbət rol oynayacağı istisna deyildir. Moskva üçün bu, bir çox aspektlərdə müsbət divident gətirərdi.

Beləliklə, Cənubi Qafqazın geosiyasi turbulentlikdən Azərbaycanın fəallığı ilə qurtulacağı proqnozunu vermək olar. Bakının qətiyyəti, ədalətli, obyektiv davranışı və sülhsevər mövqeyindən uzaqlaşmaması belə qənaətə gəlməyə əsas verir. Buna görə də növbəti və ondan sonrakı müzakirələrin hansı paytaxtda keçirilməsinin elə bir əhəmiyyəti yoxdur. Azərbaycan Vaşinqtonda da, Parisdə də, Brüsseldə də, Moskvada da eyni mövqedə olacaq! Bizcə, daha ədalətli və nəticə verə biləcək müzakirələr gec və ya tez İstanbulda olacaq!

**F.MƏHƏMMƏDOĞLU**
**XQ**

**Çox təəssüf ki, bu qoca diplomatın (o, ölkənin birinci prezidenti Levon-Ter Petrosyanın xarici siyasət üzrə baş müşaviri vəzifəsində çalışmışdı) həmin xəbərdarlığını anlamadılar və nəticədə "Artsax" adlı saxta qurum özünü buraxmalı oldu. Ancaq təkcə bu diplomat deyil, Ermənistanın ayıq başla düşünə bilən siyasətçiləri, ziyalıları, xüsusən, müxalifət təmsilçiləri, az qala, hər gün çağırış səsləndirirlər ki, biz ölkənin uzaq xaricdən gələn tövsiyələrlə yox, xalqın maraq və mənafeyinə uyğun şəkildə idarə olunmasını tələb edirik. Bir daha xatırladırıq, erməni siyasətçilər "uzaq xaricdən gələn" fitnə-fəsadların öz ölkələri üçün təhlükə olduğunu yaxşı bilirlər.**

# "İrəvanın "bunu yox, o birini verin" kimi seçim imkanı qalmayıb"

## Jirayr Liparidyan bunu bizim antiterror əməliyyatımızdan əvvəl demişdi

Bəs həmin "uzaq xaric" ifadəsi haraları əhatə edir? Sualın cavabını Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 15-də COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar keçirilən müşavirədəki çıxışında vermişdi. Dövlət başçımız vurğulamışdı ki, həyata keçirdiyimiz antiterror əməliyyatından sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürmüşdür. Bu ittihamların heç bir əsası yoxdur: "Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror əməliyyatı keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha təmin etmişdir və eyni zamanda, bütün humanitar normalara riayət edərək öz suverenliyini bərpa etmişdir. Bəzi Qərb ölkələri, onların arasında təbii ki, ənənəvi olaraq Fransa bununla barışmaq fikrində deyil. Halbuki artıq beynəlxalq birlik də görür ki, hətta Ermənistan bu vəziyyətlə barışıb və COP29 konfransının keçirilməsi bunu bir daha göstərir. Ancaq Fransada bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar".



Bəli, işğalçı ölkənin təhrikçi havadarları yeni reallıqlarla barışmalı olacaqlar. Çünki cənab Liparidyanın dediyi kimi, Ermənistanın artıq seçim imkanı qalmayıb. Seçim imkanı yoxdursa, onda Paris, Brüssel və ya Vaşinqton bu oyuncaq dövlətin başbilənlərini hansısa başqa səmtə istiqamətləndirə bilməyəcəklər. Çıxış yolu ancaq və ancaq Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq, uçurumun bir addımlığından geri çəkilmək dövlət müstəqilliyini qorumaqdır. Yeri gəlmişkən, Azərbaycan Prezidenti bu barədə dəfələrlə söz açıb və xatırladıb ki, Ermənistanın Ankara və Bakı ilə münasibətləri bərpa etməsi ölkənin regional iqtisadi layihələrdə iştirakına zəmin yarada bilər ki, bu da onun çökməkdə olan iqtisadiyyatına nəfəs verər.

Çox təəssüf ki, Paris və digər paytaxtlar Ermənistan dövlətinin böhranlardan çıxmasını, ölkənin iqtisadiyyatının dirçəldilməsini istəmir, məhz özlərinin maraqları naminə İrəvandan alət kimi istifadə etməkdə israrlıdılar. Onlar məğlub ölkənin rəhbərliyini inandırmağa çalışırlar ki, hələ hər şey itməyib, nəyisə dəyişmək mümkündür. Ancaq bir erməni məsəlində deyildiyi kimi, yalan vədlər alov içərisində olan şəxsə "qorxma, sən yanmayacaqsan!" – demək kimi, əxlaqsızlıq və cinayətdir.

Məhz Paris, Brüssel və Vaşinqtondan gələn ruhlandırmalara görə Ermənistan rəhbərliyi elə bilirdi ki, 44 günlük müharibədə uduzmayıblar. Elə Jirayr Liparidyan da 23 saatlıq antiterror əməliyyatından əvvəl Massaçusets Erməni Tədqiqatları Mərkəzindəki çıxışında soydaşlarına xatırladırdı ki, 44 günlük müharibədə qalib gəlmiş Prezident İlham Əliyevin əlində bir çox variantlar olsa da, biz əsası olmayan iddialara istinad edərək, özümüzü məğlub kimi aparmaq istəmirdik: "Fikrimcə, Azərbaycanla sülh sazişini imzalamaq olar və həmin sənəddə göstərilməlidir ki, Ermənistan Azərbaycanın daxili işlərinə qarışmayacaq".

Keçmiş dövlət müşaviri ermənilərə xatırladır ki, BMT Təhlükəsizlik Şurası, eləcə də, Ermənistanın dostları olan Rusiya, Fransa, İran, Yunanıstan açıq şəkildə bəyan ediblər ki, Qarabağ Azərbaycanın tərkib hissəsidir. Üstəlik, İlham Əliyev düşündüklərinin hamısını reallaşdırır.

Yeri gəlmişkən, bu uzaqgörən diplomat SSRİ-nin çökməsinin ilk onilliyində Ermənistan siyasətçilərinə dəfələrlə xatırlatmışdı ki, Azərbaycan indi bizə nə verirsə, onu götürək: "On ildən sonra onu da verməyəcəklər". O, ermənilərə Azərbaycan ərazisində ən yüksək muxtariyyət statusu verilməsini nəzərdə tuturdu. Bu sətirləri qələmə almaq üçün Liparidyanın son üç-dörd ildəki bir neçə müsahibəsinə baxdım. Həmin müsahibələrin heç birində "Mən iyirmi il qabaq sizə demişdimmi?"-- sualını görə bilmədim. Yəni, yada salmır. Amma xatırladır ki, Azərbaycanla razılaşmanı imzalayın və bu ölkənin daxili işlərinə qarışmaqdan vaz keçin. Vəssalam.

Bu çağırışa da cavab verməsələr, onda yəqin ki, Liparidyanın başqa çağırışına ehtiyac qalmayacaq.

**İttifaq MİRZƏBƏYLİ**
**XQ**

# Ermənistan mətbuatının AZƏRTAC ilə bağlı yalanı əsassızdır

**Ermənistan mətbuatında AZƏRTAC-da dərc olunan materialda sitatların guya təhrif edildiyi, Yuta Universitetinin alimlərinin işlətmədiyi ifadələrin yayımlandığı barədə iddialara cavab olaraq bildiririk ki, qeyd olunan məlumat Yuta Universitetinin yaydığı press-reliz əsasında hazırlanıb və Agentlik həmin tədbirdə iştirak etməyib.**

Qeyd edilən məlumatla bağlı olan press-relizin orijinalı AZƏRTAC-da saxlanılıb (fotolar əlavə olunur). Bundan əlavə, press-relizin özəlliklərində müəllif Eva Vasilevska, redaktoru M.Yavuz olduğu aydın görünür (foto əlavə olunur). Buna görə də araşdırmaçı statusuna iddia edən erməni jurnalistə isə ittiham irəli sürməzdən əvvəl faktlarla düzgün işləməyi öyrənməyi tövsiyə edirik.

Bildirilir ki, tədbirdə iştirak etmiş iki professor özlərinə aid olmayan sitatların guya məlumata salındığını qeyd ediblər. Ermənistan mətbuatı hətta onlardan müsahibə də alıb. Qeyd edək ki, tədbirdə iştirak edən professor Stiven Lobell özünə aid sitatla bağlı AZƏRTAC-a müraciət etdikdən sonra onun ifadələri həmin məlumatdan çıxarılıb. Lakin Ermənistan mətbuatında adıçəkilən digər professor Marcori Kaslın isə Agentliyə müraciəti daxil olmayıb.

Bundan əlavə, Ermənistan mətbuatı guya məsələ ilə əlaqədar AZƏRTAC-dan açıqlama almağa çalışıb. Lakin bildiririk ki, Agentliyə həmin media subyektindən sorğu daxil olmayıb və məqalə birtərəfli şəkildə dərc edilib.

Bir daha bildiririk ki, AZƏRTAC bu məlumatı Yuta Universitetinin press-relizi əsasında dərc edib və Agentliyin heç bir müxbiri həmin tədbirdə iştirak etməyib. Bu səbəbdən qeyd edilən sitatların AZƏRTAC tərəfindən yazılması iddiasını qəti şəkildə rədd edirik və bunu Agentliyin imicinə xələl gətirmək cəhdi kimi dəyərləndiririk.

# Şuşaya giriş-çıxış sərbəstdir

**Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi Şuşa şəhərinə giriş-çıxışa guya məhdudiyyət qoyulması ilə bağlı yayılan əsassız məlumatlara münasibət bildirib.**

Bununla bağlı nümayəndəlikdən daxil olan məlumatda qeyd olunub: "Bu gün bir sıra yerli KİV orqanlarında 31 dekabr-2 yanvar tarixləri arasında Şuşa şəhərinə giriş-çıxışa məhdudiyyətlərin qoyulması ilə bağlı həqiqətə uyğun olmayan məlumatlar yer alıb. Bildiririk ki, Şuşa şəhərinə giriş-çıxış hər zaman olduğu kimi müvafiq prosedur qaydalarına uyğun olaraq həyata keçirilir və heç bir məhdudiyyət qoyulmayıb".



**XQ**

# Kəngərli sakinləri ilə görüş

**Dünən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Kəngərli rayonunda olub, sakinlərlə görüşüb.**



Bir il əvvəl rayon sakinləri ilə ilk görüşünü xatırladan səlahiyyətli nümayəndə ötən dövrdə qaldırılan məsələlər və onların həlli istiqamətində görülən işlər barədə məlumat verib. Fuad Nəcəfli bildirib ki, icrası davam etdirilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"na əsasən, muxtar respublikanın bütün bölgələrində mühüm infrastruktur layihələri reallaşdırılacaq, yeni iş yerləri açılacaq, əhalinin rifah halı daha da yüksələcək. Proqram çərçivəsində Kəngərli rayonunun Qıvraq qəsəbəsində müasir məktəb binası inşa olunacaq, yeni su və kanalizasiya şəbəkəsi çəkiləcək, bütün yollar yenidən qurulacaq.

2023-cü ili ölkəmiz və Naxçıvan Muxtar Respublikası üçün uğurlu il kimi dəyərləndirən səlahiyyətli nümayəndə sakinləri fevral ayında keçiriləcək prezident seçkilərində fəal iştiraka çağırıb, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib.

Görüş zamanı sakinlərin müraciətləri və problemləri dinlənilib. Bütün müraciətlər protokollaşdırılaraq onların həlli istiqamətində müvafiq tədbirlərin görüləcəyi bildirilib.

***XQ***

## Sağlamlıq

# Beyin toxuması kiçiləndə fəsadlar böyüyür

**"Beyin atrofiyası – beyin toxumasının kiçilməsini və geriyə inkişaf prosesini ifadə edən tibbi termindir. Bu proses beyin hüceyrələrinin və əlaqələrin itkisi ilə təsvir olunur. Beyin atrofiyası bir sıra müxtəlif səbəblərlə əlaqələndirilir. Səbəblərin kompleksliyi bu vəziyyətin diaqnozu, müalicəsi və nəticələrinin anlaşılmasını çətinləşdirə bilər".**

**Bu sözləri ATU-nun neyrocərrahiyyə kafedrasının müdiri, dosent Rövşən Xəlilzadə XQ-yə verdiyi müsahibəsində deyib. Həkim beyin atrofiyasının yaranmasının müxtəlif səbəblərlə əlaqələndirildiyini və yaşla birlikdə artan xəstəlik olduğunu bildirib:**





– Beyin atrofiyasına səbəb olan patologiyalardan biri neyrodegenerativ Alzheimer xəstəliyidir. Əgər beyin hüceyrələri hər hansı səbəbdən zədələnir və yaxud ölürsə, beyin toxumasının həcmi kiçilir. Bir başqa xəstəlik olan multipl skleroz (MS) zamanı da immun sistemi orqanizmdə patoloji olaraq sinir hüceyrələrinə hücum edir və beyin toxumasının kiçilməsinə səbəb olur. Əgər xarici travma ilə bağlı əmələ gələn beyin yaralanmaları nəticəsində ətraf beyin toxuması zərər görərsə və həmin nahiyədə itki baş verərsə, o zaman cərrahi əməliyyata ehtiyac duyulur. Bundan başqa, insult, yüksək təzyiq və digər vaskulyar xəstəliklər də beyin toxumasının kiçilməsinə səbəb olur. Çünki həmin vaxt beyinə kifayət qədər oksigen və qan axını təmin edilmir. Bəzi beyin infeksiyaları – baş beyin exinokokku, meningit, meningoensefalit, beyin absesi və digərləri beyin toxumasında iltihab yaranmasına səbəb olur. Bundan başqa, bir sıra genetik xəstəliklər də beyinin boz maddəsinin normal inkişafına mane ola və beyin atrofiyasına gətirib çıxara bilir.

**– İnfeksiya, yaxud genetik xəstəliklər səbəbindən baş verən beyin atrofiyasi özünü necə göstərir? Simptomları fərqlidirmi?**

– Beyin atrofiyasının simptomları əsasən, yaşlı adamlarda, bəzən isə erkən yaşlarda da rast gəlinən yaddaş problemləri, unutqanlıq, iradi funksiyaların azalması, yəni, düşüncə, problem həll etmə keyfiyyətinin azalması, diqqət əskikliyidir. Əksər hallarda yaşlı insanlarda bu simptomlar özünü koordinasiya və müvazinət pozuntusu, sinir-əzələ keçiriciliyinin azalması, nitq qabiliyyətinin zəifləməsi, artan nevroloji şikayətlər, məsələn, Alzheimer və Parkinson kimi xəstəliklərlə göstərir.

**– Xəstəliyin diaqnostikası, gedişi və müalicəsi necə aparılır?**

– Beyin toxumasının itkisi koqnitiv funksiyalarda pozğunluq yaratdığından yaddaş, düşünmə, qərar vermə və hər hansı problemi həll etmə kimi bacarıqlara da təsir göstərir. Məsələn, hərəkət pozğunluğu haqda danışa bilərik. Beyin toxumasının kiçilməsi beyinin bədən üzərində nəzarətinə təsir edə və koordinasiya problemlərinə səbəb ola bilər. Bu vəziyyət müvazinət pozğunluğu və yerimədə çətinliklər kimi problemlərə gətirib çıxarır. Hətta beyin atrofiyası şəxsiyyət dəyişiklikləri, depressiya, təşviş, həyəcan, emosional instabillik kimi ruhi problemləri inkişaf etdirir.

Bundan başqa, beyin atrofiyası zamanı qadınlarda günlük rutin həyat fəaliyyətini yerinə yetirmədə çətinləşmə və aktivlik keyfiyyətində azalma müşahidə edilir. Bu ən çox klimaks dövründə özünü göstərir. Həmin dövrdə yumurtalıqlardan estrogen ifraz olunmasının çətinləşməsi sadəcə menstruasiyanın pozulma problemlərini deyil, eyni zamanda, nevroloji simptomların yaranmasına səbəb olur.

Beyin atrofiyasına maqnit rezonans tomoqrafiya (MRT) və ya kompüter tomoqrafiyası (KT) kimi instrumental müayinə üsulları ilə diaqnoz qoyulur. Əgər beyin atrofiyası altda yatan səbəblərlə əlaqələndirilirsə, bu xəstəliyin müalicəsi birincilidir. Məsələn, atrofiyanın səbəbi Alzheimer xəstəliyidirsə, bu xəstəliyin simptomlarının idarə edilməsi üçün dərmanlardan istifadə edilə bilər. Bundan başqa, hərəkət və kommunikasiya bacarıqlarını inkişaf etdirmək üçün fiziki və danışıq terapiyası məsləhət görülür. Simptomatik müalicə zamanı bəzi dərmanlardan istifadə edilə bilər. Lakin xüsusi hallarda neyrocərrahi müdaxilələrə ehtiyac duyulduğunu da yaddan çıxartmaq olmaz.

**– Bu xəstəlikdən necə qorunmaq olar?**

– Genetik səbəbləri demirik, çünki onlar altda yatan səbəblərdir. Amma çalışmaq lazımdır ki, heç kim beyin infeksiyalarına yoluxmasın. Bu xəstəlikdən əziyyət çəkən insanların həyat keyfiyyətini artırmaq üçün psixososial dəstək və təcili yardım tələb olunur. Bu vəziyyət hərəkət və ruhi funksiyalarda pozğunluğa gətirib çıxardığından, diaqnoz və müalicəsi səbəblərdən asılı olaraq dəyişir. Hər hansı simptom müşahidə edilərsə, ləngimədən həkimə müraciət etmək lazımdır.

Amma onu da qeyd etməliyik ki, travmatik beyin zədələrində spastiklik adlanan qeyri-iradi əzələ daralmaları baş verə bilər. Yaranan sancılar xəstənin oynaq hərəkətlərini pozursa və ya hərəkət zamanı ağrıya səbəb olursa, müalicə edilməlidir. Müalicədə cərrahi üsullarla yanaşı dərmanlar, fizioterapiya və məşqlər də tətbiq oluna bilər. Travmatik beyin zədələrində reabilitasiyanın müvəffəqiyyətinə beyin zədəsinin şiddəti, yaş, cins, xəstəlikdən əvvəlki vəziyyət, sosial-iqtisadi parametrlər kimi bir çox amillər təsir edir.

Müalicə prosesi uzun olsa da, əksəriyyəti gənc olan xəstələr düzgün reabilitasiya proqramı ilə sağalırlar. Vaxtında qoyulan düzgün diaqnoz və uyğun müalicə bu insanların həyat keyfiyyətini artırır və simptomların idarə olunmasına yardım edir.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# IDEA-nın növbəti "Bizim həyət"i



**Dekabrın 20-də Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Bakı şəhəri, Nərimanov rayonu, Faiq Yusifov küçəsi 40, 42, 44, Yusif Vəzir Çəmənzəminli küçəsi 106/44 və Əliyar Əliyev küçəsi 65, 67, 69 ünvanında 1600 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir.**

Həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə 18 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik sistemi yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 540 ədəd müxtəlif növ ağac, 13800 ədəd kol və 4500 ədəd mövsümü güllər əkilib, 3500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında sıx bitən və hava çirklənməsini effektiv şəkildə azalda bilən 2000 ədəd adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə "yaşıl sədlər" (green barriers) yaradılıb.

***XQ***

# Hərbi Prokurorluğun Şuşa toplantısı

**Hərbi Prokurorluq Ulu öndərin anadan olmasının 100 illiyi ilə bağlı Şuşada tədbir keçirib.**



Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Firad Əliyev, idarə rəisi Emil Kərimov, Füzuli hərbi prokuroru Elçin Hacıyev və digər çıxışçılar Ümummilli lider Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən bəhs ediblər.

Sonra hərbi qulluqçuların qayğı və problemləri ilə maraqlanılıb, onlarla hüquqi maarifləndirici mövzularda söhbətlər aparılıb.

**XQ**

# COP29 dünyanın diqqətini Azərbaycana yönəldəcək

**COP28 konfransı bəlkə də ilk dəfə idi ki, dünyada bu qədər geniş əks-səda doğurdu. Çünki tədbirdə çox vacib məsələlər və dünyadakı mövcud çağırışlar müzakirə olundu. COP-un konfransları dünya, o cümlədən Azərbaycan üçün olduqca vacib tədbirlərdəndir. Bu, dünyanın əksər ölkələrinin dövlət və hökumət başçılarının, rəsmilərinin, tanınmış şəxslərinin iştirak etdikləri platformadır. Bakıda keçiriləcək tədbirdə də, heç şübhəsiz, dünyada mövcud olan çağırışların həlli yolları, inkişaf tendensiyaları əsas müzakirə mövzularından olacaq.**



Bu fikirləri XQ-yə açıqlamasında Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov söyləyib.

O qeyd edib ki, "yaşıl iqtisadiyyat"a və alternativ enerji resurslarına keçid hazırda əksər dövlətlərin elan etdiyi və bəşəriyyət qarşısında duran əsas məqsədlərdən biridir. Bu səbəbdən də COP28-də ənənəvi enerji resurslarının dünyada tədricən azalması ilə bağlı müzakirələr aparıldı. Eyni zamanda, iqlim dəyişiklikləri ilə bağlı ciddi məsələlər gündəmə gətirildi ki, bu da tədbirin necə böyük əhəmiyyətə malik olduğunu göstərdi. Birləşmiş Ərəb Əmirliklərində keçirilən tədbirdə hər hansı ortaq məxrəcə gəlinmədi və birgə bəyanat imzalanmadı. Ona görə də 2024-cü ildə Bakıda keçiriləcək COP29-da iqlim dəyişikliyi, ənənəvi və alternativ enerji resurslarının gələcək istehsalı, istehlakı ilə bağlı bəyanatın imzalanması üçün böyük şans var. Əlbəttə, COP29-da təxminən 80-100 min insanın Azərbaycana gələcəyi bu tədbirin önəmindən, mötəbərliyindən xəbər verir və dünyanın diqqətini ölkəmizə cəmləyəcək.

Politoloq bildirib ki, COP29 siyasi mənada Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə bir daha çatdırılması, həmçinin ölkəmizin iqtisadiyyatı, turizm potensialı üçün müstəsna əhəmiyyətə və rola malik olacaq.

"Çox təəssüf ki, dünyada iqlim dəyişikliyi ilə bağlı müxtəlif mülahizələr irəli sürülsə də, COP kimi mühüm konfranslar keçirilsə də, hegemon ölkələr, əslində, bəşəriyyət qarşısında dayanan bu problemlərə bir çox hallarda biganə yanaşırlar. Mövcud problemlərin mövcudluğu güclü dövlətlərin apardığı siyasətdən qaynaqlanır. Ümid edirik ki, Bakıda keçiriləcək tədbirin nəticəsi olaraq, hegemon dövlətlər məsələlərin digər ölkələrin də maraqlarına uyğun olması üçün əməli fəaliyyət həyata keçirəcəklər. Əgər belə olarsa, bəşəriyyət qarşısında dayanan problemlər müəyyən qədər həllini tapa bilər", – deyə politoloq əlavə edib.

***Anar ƏLİ***
***XQ***

## Sosial xəbərlər

### 11 ayda 153 min 200 pensiya, müavinət, təqaüd təyin olunub




2023-cü ilin yanvar–noyabr aylarında 153,2 min pensiya, müavinət, təqaüd təyinatı elektron qaydada aparılıb. Onlardan 28 min 200-ü pensiya, 125 mini müavinət və təqaüdlərdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumtında qeyd edilib ki, 2019-cu ilin əvvəlindən başlayaraq pensiyaların, sonralar müavinət və təqaüdlərin təyinatı elektronlaşdırılıb. Həmin e-təyinat sistemləri vətəndaşlara hüquqları yarandığı halda müraciət olunmadan və sənəd təqdim edilmədən qeyd olunan sosial ödənişlərin e-sistem üzərindən təyinatının aparılmasını təmin edir.

### 89 nəfər insan alveri qurbanı sağlam həyata qaytarılıb




Sosial Xidmətlər Agentliyinin İnsan Alveri Qurbanlarına Yardım Mərkəzində bu ilin 11 ayında 89 nəfərə sosial reabilitasiya xidmətləri göstərilib. Onlardan 52-si insan alveri qurbanı, 37-si isə insan alveri təhlükəsi ilə üzləşmək riski olanlardır.

Mərkəzdə sosial işçi, psixoloq və hüquq məsləhətçisindən ibarət işçi heyəti tərəfindən həmin şəxslər üçün fərdi sosial reabilitasiya planı tərtib edilib və müvafiq tədbirlər həyata keçirilib. Burada, həmçinin onların sosial-hüquqi, sosial-psixoloji dəstəklə təminatı, tibbi-sosial reabilitasiyası, məşğulluğunun təmin edilməsi istiqamətində işlər aparılır.

### DOST RİM beynəlxalq müsabiqə qalibidir




DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi (DOST RİM) İsveçrənin Ümumdünya Rabitə Forumu Assosiasiyası tərəfindən təşkil edilən beynəlxalq "Davos Communications Awards-2023" müsabiqəsinin qalibi olub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər ki, bu barədə Asossasiyanın saytında məlumat yerləşdirilib. Məlumatda qeyd edilir ki, müsabiqədə Azərbaycan da daxil olmaqla 20 ölkədən 32 kateqoriya üzrə 95 qurum iştirak edib. DOST RİM müsabiqədə il ərzində həyata keçirilmiş sosial rəqəmsal layihələr və onların vətəndaşlar üçün töhfəsi barədə məlumatlarla iştirak edib və "İlin rəqəmsal agentliyi" nominasiyası üzrə gümüş mükafata layiq görülüb. Bununla da DOST RİM-in bu il əldə etdiyi beynəlxalq mükafatların sayı 10-a çatıb.

Qeyd edək ki, "Davos Communications Awards" müsabiqəsi qlobal miqyasda ictimaiyyətlə əlaqələr və qurum – vətəndaş kommunikasiyası sahəsində nailiyyətləri təqdim etmək məqsədi daşıyır.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Ulu öndərin Naxçıvanda verdiyi "Xüsusi tapşırıq"

**AMEA-nın Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi Urfullah Qurbanovun "Naxçıvan" Universitetinin baş müəllimi Rəna Qurbanova ilə birgə hazırladığı "Xüsusi tapşırıq" kitabının təqdimat mərasimi olub.**

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev giriş sözündə bildirib ki, "Xüsusi tapşırıq" kitabı Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunub: "Naxçıvana gəldikdən sonra bölgəni blokadadan çıxarmaq, qoruyub-saxlamaq, əhalinin yaşayışını təmin etmək kimi çətin və məsuliyyətli vəzifələrin icrasına başlayan Ulu öndərin təşəbbüsü ilə Dövlət Milli Müdafiə Komitəsi yaradılıb. Komitənin əks-kəşfiyyat şöbəsinin rəisi Urfullah Qurbanov bu planın icrasında fəallıq göstərib. U.Qurbanov Gəncədən lazım olan silah və avadanlıqları təyyarə ilə Naxçıvana gətirib, bu sıradan başqa mühüm tapşırıqları uğurla həyata keçirib".

Təqdimat mərasimində kitabın redaktoru, muxtar respublikanın Əməkdar jurnalisti Səbuhi Həsənov yeni nəşr barədə ətraflı məlumat verib, Ulu öndərin xilaskarlıq fəaliyyətinin Naxçıvan dövrünün öyrənilməsində kitabın önəmindən bəhs edib. Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya uzun illərdən bəri blokada və erməni quldurlarının davamlı basqılarının dəf edilməsi şəraitində yaşamış muxtar respublika əhalisinin mübarizliyindən, Ulu öndər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrünün mühüm tarixi-siyasi hadisələrindən söz açıb.

Mərasimdə "Yaşıl İğdır" qəzetinin baş redaktoru Cabbar Şıktaş, Naxçıvan Yazıçılar Birliyinin sədri Asim Əliyev, ehtiyatda olan polkovnik Fərail Rəcəbli, AMEA-nın müxbir üzvləri Əbülfəz Quliyev və Tofiq Əliyev qeyd ediblər ki, Naxçıvanın xilası Ümummilli liderin yorulmaz, uzaqgörən fəaliyyəti və onun göstərişlərini sədaqətlə yerinə yetirən qəhrəmanların cəsarəti sayəsində mümkün olub.

**XQ**

**Naxçıvan**



ŞƏHİDLƏRİMİZ

# Xankəndi Zəfərinin kürdəmirli şəhidləri










**Azərbaycanın Xankəndidə keçirdiyi unudulmaz Zəfər paradı dünya üçün tutarlı bir dərs olmaqla, qatil, qaniçən düşmənlərimizə və onların havadarlarına əsl qulaqburması kimi yadda qaldı. Bununla da son 2 əsrdə tuş gəldiyimiz erməni xəyanətlərinə, 30 illik hərbi təcavüzün son qalıqlarına, erməni vəhşiliyinə son qoyuldu.**

Bu tarixi qələbə həm də Ali Baş Komandanımızın hər dəfə xüsusi vurğu ilə, kəskin xəbərdarlıqla xatırlatdığı "dəmir yumruğ"un gücünü dünyaya göstərdi. Düşmən üzərindəki bu tarixi qələbəmiz "Mən nəyi nə vaxt və necə etməyi özüm yaxşı bilirəm" deyən Prezident, Ali Baş Komandan, səriştəli diplomat, igid sərkərdə İlham Əliyevin öz sözlərinə imzası qədər necə dəyər verdiyini bir daha təsdiq etdi.

Ali Baş Komandanımızın zəfər paradında böyük fəxrlə, yüksək qürur hissi ilə dediyi "Qələbəni əldə edən əsgərlərdir, zabitlərdir" sözləri eynilə anti-terror tədbirlərində iştirak etmiş cəsur döyüşçülərimizə də aiddir. Bu əməliyyat zamanı fədakarlıqla döyüşüb şəhid olmuş igidlərimizdən 6 nəfəri Kürdəmir rayonunun yetirməsidir. Onlardan 3-nü XQ-nin oxucularına təqdim edirik.

Əliyev Toğrul İlyas oğlu 17 aprel 1995-ci ildə Kürdəmir rayonunun Muğanlı kəndində anadan olub. Kənd məktəbində təhsil aldıqdan sonra Kürdəmirdəki texniki peşə məktəbində oxuyub. Hərbi xidmətini başa vuraraq Azərbaycan ordusunun təlim mərkəzindəki müddətdən artıq xidmət kursuna qəbul olunmuş, burada hərbi biliklərə və döyüş taktikasına yiyələnmişdir.

Toğrul hərbi xidmət sahəsində fəaliyyət göstərməyi özü üçün daimi peşə yolu seçmişdi. Bilirdi ki, tezliklə quduz düşmənlə üz-üzə gələcəklər. Odur ki, özünü qanlı döyüşlərə tam hazırlıqlı hesab edirdi. Buna görə də könüllü olaraq Komando briqadasına yazılmışdı və anti-terror tədbirləri başlananda Toğrul da öndə döyüşənlərin sırasında oldu.

...Bunu döyüş yoldaşlarından eşitmişəm: "Toğrul həmişə deyirdi ki, biz ancaq irəli getməliyik, geridə qalmağa heç birimizin haqqı yoxdur. Biz necə olur–olsun düşmənlərin ayağını torpaqlarımızdan birdəfəlik kəsməliyik ki, onlar bir də haçansa baş qaldıra bilməsinlər. Elə etməliyik ki, bizdən sonra övladlarımız əziyyət çəkməsinlər..."

Döyüş yoldaşları Toğrula deyirlərmiş ki, sən bir az ehtiyatlı ol, mümkün qədər özünü gözlə, uşaqların var. Amma o, heç kəsi eşitmirdi, öz bildiyi kimi də hərəkət edirdi, daim ön cəbhəyə can atırdı.

Döyüş yoldaşları deyir ki, Toğrul olduqca mərd, cəsur, xüsusilə də ölümlə qarşılaşanda soyuqqanlı idi. Bədəncə nisbətən zəif olmasına baxmayaraq, çox dözümlü idi. İdmançılara xas olan xarakteri vardı. Qorxu nə olduğunu bilmirdi. O, axıra qədər döyüşdü, qələbəyə lap az qalmış şəhid oldu.

Toğrul Xocavənd, Xankəndi uğrunda gedən döyüşlərdə şəhid oldu. Özündən sonra vətən üçün 3 oğul, gələcəyin 3 əsgərini yadigar qoyub getdi.

Toğrul Qızılgül ananın gözünün ağı-qarası bircə övladı idi. Ana onun haqqında ürəkdolusu danışır, ürəyində yaşatdığı xatirələri yada salır, oğlunun lap uşaq yaşlarından zəhmətsevər olduğundan, narçılıq təsərrüfatında çalışdığından danışır, deyir ki, Toğrul ağlı kəsəndən, əli iş tutandan torpağa, əkin-biçinə, bağ-bağata həvəs göstərib, yaddaşlarda işgüzar bir gənc kimi qalıb.

Toğrulun yadigar qoyub getdiyi övladlar ana üçün yeganə təsəllidir.

Əhmədov Vüsal İlqar oğlu 24 yanvar 1993-cü ildə Kürdəmir rayonunun Qarasu kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə gedib. Azərbaycan ordusunun təlim-tədris mərkəzində müddətdən artıq xidmət kursunu bitirərək yenidən hərbi xidmətə başlayıb və 2022-ci ilin sentyabr döyüşlərində də iştirak edib.

Həyatını hərbi xidmətə bağlayan Vüsal bu il sentyabrın 19-da keçirilən anti-terror tədbirlərində də ən fəal döyüşçülərdən biri kimi iştirak edib və Ağdərə uğrunda gedən döyüşlərdə şəhid olub.

Vüsalla eyni bölükdə xidmət etmiş kəşfiyyat qrupunun komandiri gizir Sakit Aslanov döyüş yoldaşı haqqında fəxrlə, ağızdolusu danışdı. Dedi ki, bir xeyli müddət Vüsalla bir yerdə xidmət etmişik, birlikdə döyüşmüşük. Vüsal ən çətin, ən təhlükəli kəşfiyyat və döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusi fədakarlıq göstərirdi. Məsələn, bilirsən ki, bir-iki yüz metr qarşıda səni mütləq ölüm gözləyir. Bunu bilə-bilə ölümə doğru gedən adamın gör nə boyda ürəyi var! Bax, Vüsal belə igid, mərd, qorxmaz döyüçülərdən idi. Bir şəxsiyyət kimi də, bir döyüşçü kimi də Vüsal çox ləyaqətli, dosta, yoldaşa sadiq, vətənpərvər bir insan idi. O, nümunəvi hərbi xidmətinə görə 2 dəfə Fəxri fərmanla təltif olunmuşdu.

**Atası dedi:** Vüsal çox ağıllı, zirək, qətiyyətli uşaq idi. Zəhmətə uşaq yaşlarından alışmışdı. Elə o vaxtdan mənim yaxın köməkçim olmuşdu. Diqqətindən heç nə yayınmazdı. Həyət-bacada, bağ-bağatda bir iş görəndə həmişə yanımda olurdu. Uşaq da olsa, mənə ağıllı məsləhətlər verirdi. Məsələn, deyirdi bunu elə yox, belə etmək lazımdı. Görürdüm ki, düz deyir. O, evimizin tikintisində də mənə çox kömək edib. Elə buna görədir ki, evimizdə, həyət-bacada, bağ-bağçada nələrə baxırıqsa, onun əllərinin izlərini görürük. Ağaclara calaq vurmağı xoşlayırdı. Vaxtilə əkib-becərdiyi neçə-neçə meyvə ağacları ondan yadigar qalıb.

Vüsalın yaşayarmlıq bir oğul övladı var. İlqar onu da dedi ki, uşağı tez-tez atası Vüsalın əkdiyi meyvə ağaclarının yanına aparıb orada gəzdirirəm. Uşaq ləhcəsi ilə ona başa salıram ki, bu ağacları ata sənin üçün əkib. O da ağacları əl vura-vura "ata-ata" deyib, dili dolaşa-dolaşa mənim sözlərimi təkrarlayır...

Vüsal şəhadətə qovuşdu. Onun əvəzində bu ailədə Eşqin adlı bir oğlan uşağı, gələcəyin bir mərd əsgəri böyüyür. Uşağın adını Vüsal özü qoymuşdu: "Eşqin". Bu sətirlərin müəllifi olaraq mən belə fikirləşirəm ki, Vüsal övladına "Eşqin" adını təsadüfən yox, bilərəkdən qoyub. Yəni o, vətənə, həyata, ataanaya, övlada, el-obaya olan sevgisini, istəyini oğlunun adında həm ümumiləşdirib, həm də əbədiləşdirib...

Əkbərov Şahid Natiq oğlu 22 oktyabr 1996-cı ildə Kürdəmir rayonunun Məhərrəmli kəndində anadan olub. Bakı şəhəri Xətai rayonunun Əhmədli qəsəbəsindəki 64 nömrəli orta məktəbdə oxuyub. Sonra Kürdəmirdəki texniki peşə məktəbini bitirib. Hərbi xidmətini başa vurduqdan sonra Azərbaycan ordusunun təlim-tədris mərkəzindəki müddətdən artıq hərbi xidmət kursunda oxuyub. Sonra Komando briqadasına yazılıb və ön cəbhəyə yollanıb. Sentyabrın 19-da keçirilən anti-terror tədbirlərində fədakarlıqla döyüşüb. Xüsusilə də tank əleyhinə olan döyüşlərdə mərdliklə şəhid olub.

Atası deyir ki, Şahid çox sakit, mehriban, ata–ana qədri bilən, sözeşidən, ümumiyyətlə, yaxşı mənada qeyri-adi xasiyyətləri olan bir gənc idi.

...Söhbət etdiyim şəhid valideynlərinin hamısı eyni sözü deyirdilər. Bildirdilər ki, övlad itkisi nə qədər ağır olsa da, təsəlliləri övladlarının Vətən, xalqımızın əmin-amanlığı yolunda canlarını qurban vermələri, şəhidlik zirvəsində əbədiyyət qazanmalarıdır: "Bizi səbirli, qürurlu edən də budur. Qəddar düşmənlərdən azad edilmiş torpaqlarımızda ucalan bayraqlarımız onların hünərini və mənəvi ömürlərini təcəssüm etdirir".

**Tofiq ABDULLAYEV,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

**Kürdəmir**

Bölgələrdə ədəbi mühit

**Böyük mütəfəkkir Abasqulu Ağa Bakıxanovun 1835-ci ildə "Gülüstan" ədəbi məclisi ilə təməlini qoyduğu Quba ədəbi mühiti bu gün Azərbaycan Yazıçılar Birliyinin Quba bölməsi, "Ay işığı", "Gülüstan", "Ulduzlar" və "Marvar" məclisləriylə yaradıcılıq ənənələrini davam etdirir.**

# Şahdağdan üzübəri gələn söz

"Gülüstan"ın əhatə dairəsi hətta Avropa ölkələrinə qədər geniş areallı əhatə edib. Bu əlaqələr sayəsində nəinki Azərbaycanda, eləcə də bütün Şərqdə ilk qadın dramaturq olan Səkinə xanım Axundzadə, Mirzə Möhsün Xəyali, Xaltanlı Tağı, Xınalıqlı Əmin, Baba Buduqi, Hacı Qubalı, Yetim Emin, M.Qorkinin XX əsrin Homeri adlandırdığı Süleyman Stalski, digər saz və söz ustaları tanınıb və milli ədəbiyyatımızın, mədəniyyətimizin zənginləşməsinə töhfələrini veriblər.

Ədəbiyyat və mədəniyyət tariximizin bir sıra maraqlı səhifəsi bilavasitə Quba ilə bağlıdır.1830-cu illərdə Tiflisdə Azərbaycan türkcəsində 300 nüsxədən ibarət "Tatar-əxbari" qəzetinin qubalılar arasında 30-dan artıq abunəçisi vardı. Bu qəzetin Qubada yayılmasına Qafqaz canişinliyinin dəftərxanasında tərcüməçi işləyən A.A.Bakıxanov köməklik göstərirdi. 1873-cü ildə qubalı mülkədar Abdulla ağa Bakıxanov (A.A. Bakıxanovun qardaşı) Həsən bəy Zərdabiyə "Əkinçi" qəzetini nəşr etdirmək üçün 1000 manat pul göndərmişdi.



Qubanın yaradıcı ziyalıları milli ədəbiyyatımıza öz xidmətlərini bu gün də davam etdirirlər. Ölkəmizin Şimal bölgəsinin folklor nümunələrinin toplanıb yayılmasında və tarixinin araşdırılmasında, ədəbi mühitinin və tarixi keçmişinin incəliklərinə qədər təhlil edilib gələcək nəsillərə çatdırılmasında elm və ədəbiyyat xadimləri Azad Nəbiyevin, İlyas Babayevin, Vaqif Arzumanlının, Şahin Fazilin, Ələkbər Salahzadənin, Firuzə Məmmədlinin, Nazif Qəhrəmanlının, Vaqif Musanın, Yusif Həsənbəyin, Tofiq Rüstəmovun, Qəmərşah Cavadovun, Qiyasəddin Qeybullayevin, Cabbar Xəlilovun, Vaqif Əlixanlının, Sədrəddin Bədirxanovun, Vaqif Piriyevin və başqalarının böyük zəhmət payı olub.

Şah dağından Xəzərə qədər uzanan qədim bir ərazinin təfəkkür mərkəzində ənənəni davam etdirmək, saf bir ədəbiyyat düşərgəsi yaratmaq məqsədilə 1993-cü ildə Qubada şair Ramiz Qusarçaylının təşəbbüsü ilə "Ay işığı" ədəbi məclisi yaradıldı. Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Dəmirqapı Dərbəndi təmsil edən istedadlı qələm sahibləri bu işığa üz tutdular, əyalət tənhalığı, ədəbi nigarançılıq və narahatlıq əriyib yox oldu, mənəvi və əbədiyyaşar sabahlara ümidlə baxılmağa başlanıldı. Tezliklə ölkənin jurnal və qəzetlərində bölgə yazarlarının əsərləri davamlı şəkildə dərc olunmağa, efirlərdə səslənməyə başladı. 1994-cü ildən etibarən "Ay işığı" ədəbi məclisinin 4 almanaxı dərc edildi. Vaxtaşırı Azərbaycanın görkəmli sənət və elm xadimləri məclisin qonağı oldular.

Mərhum Xalq şairi Bəxtiyar Vahabzadə yazırdı: "Mənim çox sevdiyim, haqqında bir neçə dəfə yazdığım şair Ramiz Qusarçaylının rəhbərlik etdiyi "Ay işığı" ədəbi məclisinin fəaliyyətini yarandığı vaxtdan izləyirəm. Məclisin yaratdığı təzə səs, təzə nəfəs bu gün Azərbaycanın heç bir bölgəsində yoxdur". AYB-nin Natəvan klubunda keçirilən görüşdə birliyin sədri, Xalq yazıçısı Anar çıxışında: "Bu gün "Ay işığı" ədəbi məclisinin üzvlərinin əksəriyyəti Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul olunmağa layiqdirlər. Odur ki, onlar hissə-hissə bizim sıralarımıza qəbul olunacaqlar," – deyə bildirib. Xalq şairi Söhrab Tahir, Əməkdar İncəsənət xadimi Məmməd Aslan, görkəmli yazıçı-dramaturq, keçmiş dövlət müşaviri, diplomat Hidayət Orucov da "Ay işığı"nın uğurlarını yüksək dəyərləndirib və Dərbəndin ədəbi qüvvələri ilə mütəmadi ünsiyyəti, ardıcıl əlaqələri xüsusi qeyd ediblər.

1994-cü ildə AYB-nin Quba bölməsi yaradılıb və bölgənin ədəbi həyatı daha sistemli şəkil alıb. Şair Yusif Həsənbəy bölməyə ilk sədr təyin olunub. 2002-ci ildən bölməyə böyük istedad sahibi olan Ramiz Qusarçaylı rəhbərlik edir. Quba ədəbi mühitinin bir çox fəalı AYB-yə üzv qəbul olunub. Onların yaradıcılıq və çap imkanları xeyli genişlənib. Hazırda bölgə yazarlarının əsərlərindən ibarət "Ay işığı-30" adlı almanaxı çapa hazırlanır. Topluya yerli müəlliflərin sevgi, səmimiyyət və insanpərvərlik duyğulu şeirləri ilə yanaşı, əlbəttə, qalib xalqın 44 günlük "Zəfər Yürüşü"nə həsr olunan dəyərli bədii nümunələri də daxil ediləcək.

**Ramiz Qusarçaylı şeirlərinin birində yazır:**

*Mən kənddən çıxanda gecə yarıydı,*
*Ay örpək çəkmişdi çöllərin üstə.*
*Heyrətim yolunu azan arıydı,*
*Uyuyub qalmışdı güllərin üstə.*

Doğrudan da, "Ay işığı"ndan başlanan yol sözün şəhdi-şirəsini çəkərək bal kimi şeirlərə çevirən və söz aləminə təqdim edən gözəl diyarın qələm sahiblərinin bütün ölkədə tanınmasına vəsilə olub. Bu gün fəxrlə demək olar ki, Qubadakı ədəbi mühit milli tərkibi müxtəlif olan bir bölgədə böyük ədəbiyyata, eləcə də dostluğa, qardaşlığa, ən başlıcası isə bütöv Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına xidmət edir.

**Əli NƏCƏFXANLI**
**XQ**

İDMAN

# Azərbaycan futbolu da Xankəndiyə qayıdır!

**Üç məqam bu tarixə xüsusi rövnəq verir. Əvvəla, Azərbaycan Kuboku turnirinin "Qarabağ" (Ağdam) – MOİK səkkizdəbir final görüşü erməni tapdağından azad edilib, müasir standartlara uyğun təmir işlərindən sonra yenilənmiş, milli rəmzlərimizlə göz oxşayan, şübhəsiz, bundan sonra da hələ çox dəyişib, ən yüksək tələblər səviyyəsinə çatdırılacaq Xankəndi şəhər stadionunda keçiriləcəkdir.**




İkincisi, çox dərin rəmzi məna daşıyır ki, şahidi olmağa tələsdiyimiz oyunda təqvimin hökmü və ya səxavəti ilə rəqiblərdən biri "Qarabağ" adını şərəflə, fəxarətlə daşıyan klub, digəri isə ərazilərimizi işğaldan azad etmiş qəhrəman hərbçilərimizin komandası – Mərkəzi Ordu İdman Klubudur.

Üçüncü məqam. Hər bir azərbaycanlının qürur duyduğu "Qarabağ" Xankəndiyə tarixi zəfərlə gedib. Bir həftə əvvəl bütün Azərbaycanı böyük nailiyyət – UEFA Avropa Liqası turnirinin 1/16 finalına və ya bahar sınaqlarına vəsiqə ilə ürəkdən sevindirmiş bu qoçaq komanda çox mötəbər yarışda qrupdan çıxıb, pley-off mərhələsinə yüksələn ilk klubumuz olması ilə haqlı olaraq fəxr edə bilər.

Bir daha Ağdam komandasına təşəkkürümüzü bildirək. Onun oyunçuları soyuq 14 dekabr axşamında İsveçin Geteborq şəhərinin "Hekken" komandasına son iki ayda ikinci dəfə qalib gəlməklə "Tofiq Bəhramov" stadionunun tribunalarına toplaşan on minlərlə azarkeşi, eləcə də oyunu teleekran qarşısında izləyən milyonlarla həmvətənimizi bir andaca hamılıqla ayağa qaldırdılar. Ölkənin sevinci hədsiz idi!

Avroliqa mövzusunda qeydlərimizi davam etdirib, onu da xatırladaq ki, dekabrın 18-də İsveçrənin Nyon şəhərində keçirilmiş püşkatma mərasimində Azərbaycan çempionunun bəxtinə Portuqaliyanın "Braqa" klubu düşmüşdür. Kriştianu Ronaldunun həmvətənləri ilə qarşılaşacağıq. Olsun! Oyundan-oyuna böyüyən "Qarabağ"ın da hər hansı komandaya layiqli rəqib olduğunu artıq Avropada bilməyən futbol adamı yoxdur. Gələn il fevralın 15-də Portuqaliyada, 22-də isə Azərbaycanda keçiriləcək oyunlardan sonra bu iki klubdan biri səkkizdəbir final sevinci yaşayacaq. Erkən baharın astanasında tale hansı xoşbəxt komandanın üzünə güləcək? "Qarabağ" bir daha sağ olsun ki, onun qitəmizin sayılıb-seçilən komandalarından biri olduğuna heç kimdə şəkk-şübhə qalmayıb. Deməli, imkanlar bərabərdir.

Ölkə çempionumuz təxminən 35 ildir ki, Azərbaycan futbolçularının ayağı dəyməyən stadionun meydançasına çıxdıqda tribunaları necə gurultulu alqış sədalarının bürüyəcəyini təsəvvür etmək çətin deyil. Futbolumuzu beynəlxalq meydanda ləyaqətlə təmsil edən komandaya azarkeş rəğbəti gündən-günə artır. Böyük xoşbəxtlikdir. Gözləntilərimiz də getdikcə böyüyür. Qarşıda hələ çox uğurlara şahidlik edəcəyik. Bizdə bu inamı "Qarabağ"yaratmışdır.

Futbol ictimaiyyətimiz üç gün əvvəl püşkatma mərasimini böyük maraq və həyəcanla izlədi. İndi isə hamı "Braqa" ilə iki raunddan ibarət döyüşü səbirsizliklə gözləyəcək. Həm də, təkrar edək, böyük ümidlə.

Hələlik isə "Qarabağ" Xankəndidədir. Komanda bu tarixi səfərə Azərbaycan Premyer Liqasının turnir cədvəlində vahid lider kimi yola düşmüş və növbəti dəfə çempionluğa doğru inamla irəliləyir.

Bu gün futbol həvəskarlarına dost-rəqiblərin görüşündən zövq almağı arzulayaq. Saat 14-də hakimin "Qarabağ" və MOİK komandaları arasında Azərbaycan Kuboku yarışının səkkizdəbir final görüşünün başlandığını bildirən işarəsindən sonra Xankəndi şəhər stadionu, onun yaşıl meydanı yeni həyatla nəfəs alacaq.

Günün mübarək, Azərbaycan futbolu!

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Qadın güləşçilərimiz güclərini artırırlar

**Başa çatmaqda olan 2023-cü ildə görülən işlər müzakirə edilir, yeni hədəflər müəyyənləşdirilir. Təbii ki, Olimpiya idman növləri üzrə komandalarımız dördilliyin ən mühüm yarışı olan Paris Yay Olimpiya Oyunlarına lisenziya qazanmaq və bu nüfuzlu yarışda ölkəmizi layiqincə təmsil etməyi qarşıya əsas hədəflərdən biri kimi qoyublar.**




**Bu yazıda qadın güləşi üzrə komandamızın builki nəticələri, Olimpiya şanslarından söhbət açacağıq. Bəri başdan onu deyək ki, qadın pəhləvanlarımız Paris Olimpiadasına lisenziya yarışlarında güclərini sınasalar da, hələlik vəsiqə qazana bilməyiblər. Qadınlardan ibarət yığmamızın baş məşqçisi Semyon Çterev "XQ"yə müsahibəsində güləşçilərimizin Olimpiya şanslarından danışdı:**



– Şanslar var və ondan düzgün istifadə etmək lazımdır. Əsas hədəf şübhəsiz, Olimpiya Oyunlarıdır. Yığmamızın lideri Mariya Stadnikin (52 kq) lisenziya qazanacağına əminəm. Komandamızın digər üzvlərindən 57 kiloqram çəkidə Jalə Əliyeva, Alyona Kolesnikin potensialını da xüsusi vurğulamaq istəyirəm. 68 kioqram çəkidə Elis Monolovanın da imkanları geniş idi. Onu da deyim ki, o, ötən olimpiadaya lisenziya götürmüşdü. Avropa çempionatının qalibi və dünya çempionatının mükafatçısıdır. Elis bir il bundan əvvəl zədəli idi. Almaniyalı həkim onun müalicəsi ilə məşğul olurdu. İndi tam formadadır. Ümid edirəm ki, gələcəkdə nəticələri yaxşı olacaq. Gültəkin Şirinova, İlona Dudyak Semkivə (53 kq) də inanırıq. Şübhəsiz, burada püşkatmanın nəticələri də rol oynayır.

**Baş məşqçi bu il Avropa və dünya çempionatlarında qadın yığmamızın nəticələri ilə bağlı danışdı. Bildirdi ki, bu il yığmamız Avropa çempionatında yaxşı çıxış etdi. Mariya Stadnik qalib oldu, Jalə Əliyeva isə gümüş medal qazandı. Komandamızın digər 2 üzvü də mükafatçılar sırasına düşə bilərdi. Ümumi nəticəyə görə 6-cı olduq. Amma dünya çempionatındakı nəticələri qənaətbəxş hesab edə bilmərik:**

– Dünya çempionatında Mariya medal və Olimpiadaya lisenziya qazana bilərdi. M.Stadnikin hazırlığı yüksək səviyyədə idi. O, 1/4 finalda ABŞ təmsilçisi Sara Ann Hildebrandta uduzduğu görüşdən əvvəlki iki qarşılaşmada çətinlik çəkmədən (10:0) qalib gəlmişdi. Jalə Əliyevanın da medal şansları böyük idi. Hər iki güləşçimizin rəqibləri növbəti mərhələdə uduzduqları üçün medal uğrunda mübarizə aparmaq şanslarını itirdilər.

Baş məşqçinin sözlərinə onu da əlavə edək ki, gənc güləşçimiz Jalə Əliyeva son 2 ildə sabit nəticələr qazanıb. Belə ki, ötən il U-20 Avropa çempionatının qalibi olub, 23 yaşadək gənclərin qitə çempionatında gümüş, İslam Həmrəyliyi Oyunlarında bürünc medallar qazanıb. Bu il isə böyüklər arasında Avropa çempionatında II yeri tutmaqla yanaşı, 23 yaşadək qızlar arasında Avropa çempionatında (bürünc) və dünya çempionatlarında (gümüş) mükafatçılar sırasına düşməyi bacarıb. Daha bir istedadlı güləşçi – Gültəkin Şirinova bu il 20 yaşadək qızların dünya birinciliyində bürünc, həmin yaş qrupunda Avropa birinciliyində gümüş medala sahib olub. Ümumiyyətlə, qızlar arasında müxtəlif yaş qrupları üzrə dünya, Avropa birinciliklərində qızlarımız parlaq nailiyyətlər qazanıblar ki, bu da gələcəkdə Olimpiya ehtiyatları üçün əsaslı zəmin yaradır.

**Semyon Çterev güləşçilərin növbəti lisenziya turnirlərinə hazırlığından da danışdı:**

– Gələn ilin fevralında Buxarestdə Avropa çempionatı keçiriləcək. Komandamızın maksimum nəticə göstərməsinə çalışacağıq. Olimpiadaya lisenziya xarakteri daşıyan Avropa təsnifat turniri aprel ayında Bakıda olacaq. Bir aydan sonra isə Türkiyədə dünya təsnifat yarışında iştirak edəcəyik. Bu yarışların hər biri mühüm əhəmiyyət daşıyır. Düşünürəm ki, güləşçilərimiz ən azı 1, maksimum 3-4 lisenziya qazana biləcəklər. Bunun üçün var gücümüzlə hazırlığımızı davam etdiririk. Çalışacağıq ki, qarşıya qoyduğumuz hədəfə nail olaq.

***Leyla QURBANOVA***
***XQ***

# Balıqçılıq təsərrüfatı və akvakultura sahəsində sessiya

**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) "Mərkəzi Asiya və Qafqazda balıqçılıq təsərrüfatı və akvakultura sahəsində Regional Komissiya"sının (CACFish) növbəti 8-ci sessiyası öz işinə başlayıb.**

İki gün davam edəcək sessiyanın gündəliyində Dayanıqlı İnkişaf Məqsədləri kontekstində su hövzələrinin və su bioloji resurslarının davamlı idarə olunması yollarının müzakirəsi, region ölkələrinin daxili su hövzələrində balıq ehtiyatlarının



öyrənilməsi, balıqçılıq təsərrüfatlarının idarə edilməsi üzrə regional prinsiplərin hazırlanması və sənədlərin qəbulu nəzərdə tutulub.

Sessiyada Azərbaycan, Türkiyə, Qırğızıstan və Tacikistan komissiyanın üzvləri qismində, Rusiya, Özbəkistan, Gürcüstan, Ukrayna, Qazaxıstan və Monqolustan isə müşahidəçi qismində təmsil olunur.

Tədbirdə Azərbaycan Respublikasının Kənd təsərrüfatı naziri, Dövlət Su Ehtiyatları, Azərbaycan Qida Təhlükəsizliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliklərinin sədrləri və BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi iştirak edirlər.

***FİDAN***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Britaniya Ukraynanı ayağa qaldırır

## Kiyevlə ilk təhlükəsizlik müqaviləsini London bağlayacaq

**Böyük Britaniya Kiyevlə müdafiə sahəsində əməkdaşlıqda aparıcı qüvvə rolunu öz üzərinə götürəcək. ABŞ və Avropa İttifaqı müvafiq olaraq 61 milyard dollar və 50 milyard avroluq tərəfdaşlıq maliyyəsi ilə bağlı razılığa gələ bilməsələr də və Ukrayna silahlı qüvvələrinin mümkün məğlubiyyəti ilə bağlı fərziyyələr Qərb mətbuatının səhifələrini doldursa da, Böyük Britaniya Ukrayna ilə ikitərəfli təhlükəsizlik müqaviləsi imzalayan ilk ölkə olmaq qərarına gəlib. Britaniya mətbuatının yazdığına görə, on il müddətinə hərbi yardım nəzərdə tutan saziş yaxın həftələrdə imzalana bilər. London əmindir ki, bu addım Kiyevin ayaqda qalmasına kömək edəcək və müttəfiqlərinə lazımi siqnallar göndərəcək.**

"The Telegraph" qəzeti yazır ki, yaxın həftələrdə Böyük Britaniya Ukrayna ilə on illik təhlükəsizlik zəmanəti müqaviləsi imzalayacaq və belə bir addım atan ilk dövlət olacaq. Kiyev son altı aydır ki, 30-a yaxın ölkə ilə oxşar ikitərəfli sazişlər üzrə danışıqlar aparır. Əvvəlcə müvafiq sənədin imzalanacağı ilk dövlətin ABŞ olacağı, bundan sonra başqalarının da onlardan nümunə götürəcəyi planlaşdırılırdı. Bununla belə, Vaşinqton indi 2024-cü ildə Kiyevə əlavə maliyyə yardımına zəmanət verə bilməz, ona görə də Amerika–Ukrayna hərbi əməkdaşlığının konturları, prinsipcə, böyük sual altındadır. Belə bir vəziyyətdə Böyük Britaniya



Ukraynanın tərəfdaşları arasında boş qalan lider yerini – ən azı mənəvi bir yeri tutmağa qərar verib.

Rusiyaya qarşı "mübarizədə Kiyevə dəstək" məqsədini əks etdirən anlaşma memorandumunun əsasını, ilk növbədə, dəniz əməkdaşlığı təşkil edəcək. Beləliklə, yeni saziş Ukraynanı minalardan təmizləmək məqsədilə gəmilərlə təmin etmək və dəniz imkanlarını gücləndirmək üçün Böyük Britaniya və Norveçin rəhbərlik etdiyi "dəniz koalisiyası" yaratmaq səylərinin davamı olacaq. "The Telegraph"ın yazdığına görə, Britaniya rəsmiləri "Ukraynanın Qara dənizdəki hərəkətlərindən heyran qalıblar" və Böyük Britaniyanın "hələ də dünyanın ən güclü donanmalarından birinə sahib olduğunu" nəzərə alaraq onun bu sahədə müdafiə qabiliyyətini dəstəkləməyə qərar veriblər.

London əmindir ki, Britaniyanın dənizçilik sahəsində "güc və biliyi" Ukrayna donanmasının imkanlarını artırmağa kömək edəcək. Kral Hərbi Dəniz Qüvvələri artıq ukraynalı mütəxəssislərə pilotsuz sualtı qayıqlardan istifadə edərək minalardan təmizləmə, dəniz bombalarının, dərin sularda mina sahələrinin zərərsizləşdirilməsi, həmçinin amfibiya əməliyyatları üzrə təlimlər keçir. Bundan əlavə, Britaniya artıq Ukraynanı "Brimstone" raketlərinin gəmi əsaslı modifikasiyası ilə təchiz etməyə başlayıb. Lakin məsələ bununla da bitməyəcək. London Kiyevin hərbi ehtiyaclarını maliyyələşdirmək üçün də öhdəlik götürəcək. Müqavilədə nə qədər vəsaitin göstəriləcəyi hələ məlum deyil. Lakin son iki ildə Böyük Britaniya Ukraynaya nə az, nə çox, düz 2,3 milyard funt sterlinq ayırıb ki, bu da ildə təxminən 3 milyard dollara bərabərdir. 2024-cü ildə bu məbləğin ən azı eyni səviyyədə olacağı gözlənilir. Qəzetin Britaniya Müdafiə Nazirliyindəki mənbələri Kiyevə gələcək silah tədarükü ilə bağlı konkret planları açıqlamayıb, lakin əmin ediblər ki, digər silahların sırasına "yer və hava vasitələri" də daxil olacaq.

"The Telegraph"ın müqavilənin əsas müddəalarından biri kimi qiymətləndirdiyi digər element kəşfiyyat məlumatlarının mübadiləsinin rəsmiləşdirilməsi olacaq. Nəhayət, sənəd həm də "Moskva yenidən hücuma qərar verərsə, onun hücumunu dəf etmək üçün müharibədən sonrakı təhlükəsizlik zəmanətlərini" təsvir edəcək. Bu bənd avtomatik "silah tədarükünün artırılmasını və sanksiyaların yenidən tətbiqini" nəzərdə tutur. Dekabrın 19-da fransalı həmkarı Ketrin Kolonna ilə görüşən Böyük Britaniyanın Xarici işlər naziri Devid Kemeron bildirib ki, London "nə qədər lazımdırsa" Kiyevi dəstəkləyəcək.

***S.ELAY***
***XQ***

# Məhkəmə Trampın prezident seçkilərində iştirakına qadağa qoyub

**ABŞ-ın Kolorado ştatının Ali Məhkəməsi ölkənin sabiq prezidenti Donald Trampı ştatın 2024-cü il seçki bülletenindən çıxarıb. Buna səbəb kimi onun 2021-ci il yanvarın 6-da tərəfdarlarının Kapitoliyaya hücumu ilə nəticələnən qiyamda iştirak etdiyi göstərilib. Məlumatı "Anadolu" verib.**



Məhkəmənin müvafiq qərarı 3 səs əleyhinə olmaqla 4 səslə qəbul edilib.

Qərara əsasən, Respublikaçı namizədlərin mübarizə aparacağı Koloradoda 2024-cü il martın 5-də keçiriləcək ilkin seçkilərdə Trampın adı bülletendə yer almayacaq.

Məhkəmə Trampın 6 yanvar 2021-ci il hadisələri zamanı hərəkətlərinin "qiyam və üsyan" cinayətlərinə bərabər olduğu və Konstitusiyanın 14-cü maddəsinin pozulması anlamına gəldiyi barədə qərar qəbul edib.

Qeyd edək ki, bu qərarla Tramp ABŞ tarixində çox nadir hallarda tətbiq edilən 14-cü düzəliş çərçivəsində Ağ Ev sahibi seçilmək hüququnu itirmiş hesab edilən ilk prezidentliyə namizəd olub.

***P.ƏMİRCANOV***
***XQ***

# Mühəndislər robotların özünüdərkini yaxşılaşdırmağın yolunu tapıblar

**Münxen Texniki Universitetinin mütəxəssisləri robotlara propriosepsiya verməklə, onların bədən hissələrinin harada olduğu və hansı funksiyaları yerinə yetirə biləcəkləri barədə fikir söyləməklə onların özünüdərketmə qabiliyyətini yaxşılaşdırmağın yolunu tapıblar. Araşdırma "Science Robotics" elmi jurnalında dərc olunub.**

Həmçinin kinesteziya adlanan propriosepsiya bədənin yerini, hərəkətlərini hiss etmək qabiliyyətidir. Ətraf mühiti düşünmədən sərbəst hərəkət edə bilməyimizin səbəbi də məhz budur. İnsanlarda və heyvanlarda beyin bədənin mövqeyindən və ətraf mühitlə necə qarşılıqlı əlaqədə ola biləcəyindən daim xəbərdardır.

Mühəndislər də maşına oxşar sistemi, onlara geriyə əlaqə sensorları əlavə etmək istəyirlər. Eyni zamanda, daxil olan məlumatları toplamaq və emal etmək üçün maşın öyrənmə texnologiyasından istifadə etmək qərarına gəliblər. Mütəxəssislər aşkar ediblər ki, mexanizmlər təsadüfi ardıcıllıqla müxtəlif mühərrəkləri işə salaraq onların hissələrinin işləməsi haqqında məlumat bazaları yaratmağa başlayırlar.

Altı ayaqlı bot, humanoid və robotqol da daxil olmaqla müxtəlif növ robotlar üzərində aparılan testlər göstərib ki, bütün mexanizmlər öz quruluşlarını, hissələrini və birlikdə onların necə işlədiklərini hiss edirlər.

***AYTƏN***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 279 (30395) 21 dekabr 2023-cü il, cümə axşamı

## İdman xəbərləri

## Gimnastlarımız 7 medal qazanıblar

**Bədii gimnastlarımız Böyük Britaniyanın paytaxtı London şəhərində keçirilən "Winter Stars" beynəlxalq turnirində uğurla çıxış edərək 7 medal qazanıblar.**



Ölkəmizi "Ocaq Sport" klubunu təmsil edən idmançılardan 6-sı qızıl medala layiq görülüb, biri isə ikinci yeri tutub. Belə ki, Nilay Quliyeva, Alsu Abdullayeva və Röya Alıkişiyeva topla hərəkətlərin icrasında hakimlərdən ən yüksək xalı alıblar. Evelin Yoşpa və Maya Kozaçuk halqa ilə hərəkətlərdə qızıl medala yiyələniblər. Gürzlə hərəkətlərdə isə Maya Kozaçuk bütün rəqiblərini qabaqlayıb, Röya Alıkişiyeva gümüş mükafata sahib olub.

## Uşu ustalarımızın 9 Avropa mükafatı

**Azərbaycanın uşu kunq-fu komandası Avropa çempionatında uğurla çıxış edib.**



Türkiyənin İstanbul şəhərində keçirilən yarışda yığmamız 2-si qızıl, 3-ü gümüş, 4-ü isə bürünc olmaqla 9 medal qazanıb. Kişilər arasında komandamızın üzvlərindən Elçin Eminov bütün rəqiblərini məğlub edərək qalib adını qazanıb. Bununla da o, altıqat Avropa çempionu olub. Komandamızın aktivinə digər qızıl medalı bütün rəqiblərinə qalib gələn Həmzə Rəsulzadə yazdırıb. Yabir Şıxəliyev isə bürünc medal alıb.

Gənclər arasında light sanda üzrə Hüseyn Qəmbərov, Elçin Quliyev gümüş, Şəfa Məmmədli bürünc, sanda üzrə Kişi Şükürov gümüş, Elçin Muradov, Nurlan Zeynalzadə bürünc medallar qazanıblar.

## MMA döyüşçümüzün 10-cu qələbəsi

**Azərbaycanın MMA (Qarışıq Döyüş Sənəti) döyüşçüsü Süleyman Süleymanov (70,3 kq) növbəti qələbəsini qazanıb.**



İdmançımız Tailandın paytaxtı Banqkokda təşkil olunmuş "ONE Friday Fight" yarışında rinqə çıxıb. "Lumpini" arenasında keçirilən görüşdə təmsilçimiz qırğızıstanlı rəqibi Nursultan Toktorovu 2-ci raundda məğlub edib. Bununla da, o, peşəkar karyerası ərzində keçirdiyi 10-cu döyüşündə ardıcıl qələbə qazanıb.

*Leyla SABİRQIZI*
*XQ*


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Media

# 100 yaşlı "Zaqatala"



**Bölgə mətbuatında özünəməxsus dəst-xəti ilə seçilən "Zaqatala" qəzetinin 100 illiyi münasibətilə bu rayondakı Heydər Əliyev Mərkəzində yubiley tədbiri keçirilib. Tədbirdə rayon rəhbərliyi, qəzetin əməkdaşları, media nümayəndələri və ziyalılar iştirak ediblər.**

"Zaqatala" qəzetinin redaktoru, Əməkdar mədəniyyət işçisi İbrahim İbrahimovun "Bir əsrlik salnaməçilik yolu" mövzusunda məruzəsi dinlənilib.

Qeyd olunub ki, qəzet müxtəlif illərdə fərqli adlarla dərc olunsa da, 1991-ci ilin sonundan başlayaraq "Zaqatala" adı ilə fəaliyyət göstərib. Qəzet fəaliyyət göstərdiyi illər ərzində 4 dəfə əlifba, 3 dəfə isə çap texnologiyasını dəyişib.

Tədbirdə "Xalq qəzeti"nin bölgə müxbiri İlqar Həsənov, Qax rayonunda çıxan "Şəlalə" qəzetinin redaktoru Xavər Əfəndiyeva, Zərdabda nəşr olunan "Əkinçi" qəzetinin redaktoru İsaməddin Əhmədov, pedaqogika üzrə fəlsəfə doktoru, qəzetin fəal yazarlarından olan Həşim İsmayılov çıxış edərək qəzetin əməkdaşlarına gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə çıxışında qəzetin rayonun ictimai-siyasi və mədəni həyatındakı rolunu xüsusi vurğulayıb, kollektivi yubiley münasibətilə təbrik edib.

Sonda kollektivə Zaqatala Rayon İcra Hakimiyyətinin fəxri fərmanı təqdim olunub.

*XQ*

## Sənət inciləri

# Cəzalandırılan "Ailə"

**Xalq rəssamı Rasim Babayevin ən gözəl rəsm əsərlərindən biri də "Ailə" tablosudur. Onun yaradıcılığında xüsusi yer tutan bu əsərdə rəssam öz prototipini təsvir edib. Tablonun yaranması fırça ustasının fəaliyyətinin erkən dövrlərinə – 1971-ci ilə təsadüf edir.**



Əsərin kompozisiyasının mərkəzində ata, ana və uşaqların obrazları göstərilib. Ailə ayaqyalın, nimdaş paltarda və yarıçılpaq təsvir edilib.

Sənətşünasların fikrincə, bu cür təsvirlər sənətdə sosialist realizmi ənənələrinin hakim olduğu dövr üçün qəbuledilməz idi. Elə buna görə əsər Moskvada sərgiləndiyi zaman keçmiş SSRİ-nin mədəniyyət naziri Yekaterina Furtseva tərəfindən rədd edilmiş, sərgi salonundan kənarlaşdırılmışdı.

Əsərin kompozisiyasına gəldikdə isə deyə bilərik ki, tabloda əsasən solğun tonlara, mavi, ağ, qəhvəyi rənglərə üstünlük verilib.

Bu əsər bizə zamana, məkana ilişib qalmaqdansa, yalnız irəliləməyi öyrədir.

Hazırda tablo Azərbaycan Dövlət Rəsm Qalereyasının kolleksiyasında saxlanılır.

*Leyla HADİ*
*tələbə-jurnalist*

## Hava

# Bu gün yağış yox, duman olacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 21-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.**

Axşam bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub küləyi əsəcək. Gecə 4-7°, gündüz 9-14° isti olacaq. Atmosfer təzyiqi 768 mm civə sütunundan 759 mm civə sütununa enəcək, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən, yağmursuz keçəcək.

Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 10-15° isti, dağlarda 5-10° şaxta, gündüz 2-7° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

# "Xarıbülbül əfsanəsi" Pakistanda



**Pakistanın Milli Müasir Dillər Universitetində"Xarıbülbül əfsanəsi" sənədli filmini nümayişi keçirilib.**

Azərbaycanın İsveçdəki səfirliyinin təşəbbüsü, UNESCO üzrə Azərbaycan Milli Komissiyasının və Mədəniyyət Nazirliyinin dəstəyi ilə lentə alınmış filmin təqdimatında Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səfirləri və səfirlik əməkdaşları, universitet rəhbərliyi, eləcə də tələbələr iştirak ediblər.

Öncə səfir Xəzər Fərhadov qədim Şuşa barədə söhbət açıb və bu şəhərin Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi mərkəzlərindən biri olduğunu vurğulayıb. O, Azərbaycan musiqisinin beşiyi olan bu şəhərin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" və 2024-cü il üçün "İslam dünyasının paytaxtı" elan edildiyini diqqətə çatdırıb.

X.Fərhadov çıxışında "Xarıbülbül"dən danışaraq onun Qarabağ ərazisində, xüsusilə Şuşa ətrafında bitdiyini, Qarabağın işğaldan azad edilməsi ilə "Xarıbülbül"ün azadlıq və zəfər rəmzinə çevrildiyini söyləyib.

Sonda qonaqlar universitetdə fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi ilə tanış olublar.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**
**İslamabad**

## Texnologiya

# Laçında ilk texnoloji təqdimat

***İşğaldan azad olunmuş ərazilərdə hazırda sürətlə bərpa-quruculuq işləri gedir və həyat axarına qayıdır. Kompüter avadanlıqlarının böyük idxalçılarından olan "Aztech" şirkəti dekabrın 19-da Laçında "LaCinema" kino mərkəzində "LEGİON GO" portativ oyun konsolunun ilk təqdimatını və gənclər arasında əyləncəli "Gaming Festival" keçirib. Bu, "Aztech" şirkətinin Laçına artıq ikinci səfəri idi.***



Bundan öncə Laçın rayonu 2 saylı tam orta məktəbə şirkət tərəfindən 30 noutbuk hədiyyə edilmişdir. Təqdimatdan sonra məktəblilər və gənclər arasında maarifləndirici və əyləncəli "Gaming Festival" təşkil olunub. Gənc nəslin maarifləndirilməsi, yeni texnoloji məhsullarla tanışlığı, asudə vaxtlarını daha necə faydalı keçirə biləcəkləri barədə maraqlı diskussiyalar aparılıb.

Laçınlı gənclər və məktəblilər üçün əsl bayram ab-havasında keçən və Qarabağda ilk dəfə təşkil olunan bu tədbirə maraq böyük olub.

**N.AYTƏN**
**XQ**

# Gözlər qaranlıqda niyə böyüyür?

***Qaranlıq bir otağa girib gözlərinizin qaranlığa öyrəşməyini gözlədiyiniz zaman nələr yaşandığını, heç düşünmüsünüzmü? Əgər otaqda heç bir işıq yoxdursa, yenі pəncərədən, az da olsa, işıq görünmürsə, siz ətrafı görə bilməzsiniz.***

Görməyiniz üçün cisimlərin yaydığı fotonlar olmalıdır. Buna görə də qaranlıqda çox az olan bu fotonları toplaya bilmək üçün göz bəbəklərimiz sürətlə böyüyür. Beləcə, retinada (gözün işığı qəbul edən təbəqəsi) işıq həssaslığı 16 dəfə artır ki, biz qaranlıqda görə bilək!

İlk 5 dəqiqədə gözlərimiz işığa öyrəşməyə başlayır, 20 dəqiqədən sonra isə, qaranlıqda görmə qabiliyyətimizin ən yaxşı səviyyəsinə çatırıq. "Gözün öyrəşməsi" adlanan hadisə budur.

*Ayan SƏMƏDQIZI,*
*tələbə-jurnalist*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu "Azərekspertiza" Birliyinin baş eksperti Zakir Abbasova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3337
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00